Hər kəs ədalətli olacaq
www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 29 (6122) 8 avqust 2025-ci il | Qiyməti 40 qəpik

# Prezident ABŞ-də işgüzar səfərdədir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona işgüzar səfərə gəlib. Dövlətimizin başçısını "Joint Base Andrews" hərbi hava bazasında rəsmi şəxslər qarşılayıblar.**

## Polis bu ərazilərdə nəzarəti gücləndirib




**Polis sahilboyu ərazilərdə ətraf mühitin qorunmasına nəzarəti daha da gücləndirib. Adalet.az xəbər verir ki, bu barədə Baş Dövlət Yol Polis İdarəsi (BDYPİ) məlumat yayıb.**

Bildirilib ki, polis əməkdaşları tərəfindən müvafiq dövlət qurumları ilə birgə Xəzər dənizinin sahilboyu ərazilərində ekoloji sabitliyin təmin edilməsi məqsədilə profilaktik tədbirlər davam etdirilir: "Bakı, Sumqayıt, Xaçmaz, Şabran, Siyəzən, Neftçala şəhər və rayonlarında sahilboyu ərazilərdə aparılan növbəti tədbirlər zamanı məişət tullantılarının təyin olunmuş yerlərdən kənara atılması, tullantı sularının kənara axıdılması, özbaşına tikinti işlərinin aparılması və qadağan olunmuş yerlərdə tütün çəkilməsi halları aşkar edilib. Tədbirlər çərçivəsində məişət tullantılarını tutumlardan (urnalardan) kənar yerlərə atan 24, sadalanan digər qadağan edilmiş əməllərə yol verən 5 nəfər barəsində polis əməkdaşları tərəfindən inzibati tədbir görülüb. Ekoloji təhlükəsizliyin təmin olunması istiqamətində profilaktik tədbirlər davam etdirilir".

## Ukrayna səfiri Azərbaycana təşəkkür etdi

**Daha 30 ukraynalı uşaq Azərbaycana gətirilib. Adalet.az xəbər verir ki, bu barədə Ukraynanın Azərbaycandakı səfiri Yuri Husyev bildirib.**

Onun sözlərinə görə, reabilitasiya və istirahət proqramından yararlanmaq üçün İrpen, Marqanets və Odessa bölgələrindən 30 uşaq Azərbaycana gəlib. Diplomat xatırladıb ki, artıq 400-ə yaxın ukraynalı uşaq Azərbaycanda bu proqramıdan faydalanıb. Səfir bu təşəbbüsə görə Azərbaycan rəhbərliyinə və xalqına öz minnətdarlığını bildirib.

## "QARABAĞ" YENƏ TAPDALADI, KEÇDİ





**"Nəsimi" filmində silah ustası belə bir ifadə işlədir: "At ağızlı oğullar".**

İndi Qurban Qurbanovun at ağızlı oğulları Şimali Makedoniyada "Şkendiya" komandasını tapdalayıb keçdilər.

Qurban xocanı və onun at ağızlı oğullarını təbrik edir və gələcək oyunlarda uğurlar arzulayıram.

## Azərbaycan qazının Suriyaya nəqlinə başlanıldı

**Qardaş ölkənin Kilis şəhərində Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya nəqlinə başlanılıb.**

Adalet.az xəbər verir ki, bu münasibətlə keçirilən mərasimdə iştirak edən Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov, Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar, Suriyanın energetika naziri Məhəmməd Əl Bəşir və Qətər İnkişaf Fondunun rəhbəri Fəhad Həməd Əl-Sulaiti Azərbaycan qazının Suriyaya ötürülməsini təmin edən boru kəmərinin açılışını birgə həyata keçiriblər.

## *Şahin Şıxlinski qiyabi həbs edildi*

**Moskvanın Basmannı Məhkəməsi Azərbaycanın Yekaterinburqdakı diasporunun rəhbəri Şahin Şıxlinskini qiyabi həbs edib.**

Adalet.az xəbər verir ki, bu barədə E1.ru portalı məlumat yayıb. "Azərbaycan diasporunun rəhbəri Şahin Şıxlinski Moskvanın Bas-



mannı məhkəməsi tərəfindən qiyabi həbs edilib", - məlumatda deyilir.

Nəşr bildirir ki, bu, onun axtarışa verilməsindən sonra baş verib. Şıxlinski bir müddət Azərbaycanın Moskvadakı səfirliyinin Rusiya təhlükəsizlik qüvvələrinin girişinə qadağa qoyulan ərazisində olub. Danışıqlardan sonra o, hakimiyyət orqanlarına təslim olub və avqustun 2-də Yekaterinburqa aparılıb. Orada istintaq hərəkətlərində iştirak edib və istintaq təcridxanasına yerləşdirilib.

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## ÇƏRX BAŞINA GƏLMƏYƏNİ, ÇƏRLƏDİN, ÇƏRLƏDİN ÖLDÜRÜN



***Rusiyanın bir sürü ziyalısı, deputatı, dövlət məmuru ağız-ağıza verib kürsəyə gələn itlər kimi bizə hürürlər. İndi də bu sürüyə Rusiyanın xalq artisti, kinorejissor və əslində mafioz, özü də nəsillikcə mafioz Nikita Mixalkov da qoşulub. Özləri faşist olanlar bizi faşist adlandırırlar. Atalar necə deyir: "Adımı sənə qoyum, səni də yana-yana qoyum".***

***Günahımız da odur ki, Azərbaycan hökumətindən icazəsiz, qeyri-qanuni torpaqlarımızda qayırdıqları Ayvazovskinin heykəlini uçurmuşuq. Heykəl qoyurdun Tolstoyun heykəlini qoyardın, Dostoyevskinin, Bulqakovun heykəlini qoyardın, ya da bizim Bakıda ucaltdığımız Puşkinin heykəlini. Nədən Ayvazovskinin?! Erməninin?! Bizi yandırıb-yaxmaq üçün?!***

**Bax:səh-2**

## *GÜNÜN LƏTİFƏSİ*



Vəli Xramçaylı babat vurubmuş. Küçədə bir çirkin qadınla rastlaşır.

Yanında olan şair Akif Əhmədgilə deyir:

***- Ə, qağa, bu nə çirkin qadındı?***

Qadın da iyrənirmiş kimi ona baxıb deyir:

***-Sən də sərxoşsan.***

Vəli gülərək:

***- Mənim sərxoşluğum sabah keçəcək, amma sənin çirkinliyin...***

# Prezident sərəncam imzaladı



**Naxçıvan Muxtar Respublikasının paylayıcı elektrik şəbəkəsinə dair Tədbirlər Planı təsdiqlənib.**

Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Sərəncama əsasən, "Naxçıvan Muxtar Respublikasının paylayıcı elektrik şəbəkəsinin yenidən qurulmasına və bərpasına dair 2026-2030-cu illər üçün Tədbirlər Planı" təsdiq edilib.

"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasını təmin etsin və icranın gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə növbəti illərdə dövlət büdcəsi layihələrində tələb olunan maliyyə vəsaitinin nəzərdə tutulması üçün zəruri tədbirlər görməlidir.

Bu Sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir.

"Elektrik enerjisi sisteminin, o cümlədən paylayıcı elektrik şəbəkəsinin müasirləşdirilməsi və innovativ texnologiyaların tətbiqi əsasında təkmilləşdirilməsi ölkəmizin dayanıqlı sosial-iqtisadi inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir.

Son illərdə ölkəmizdə bu sahədə həyata keçirilən ardıcıl islahatlar enerji sisteminin idarə edilməsi və inkişafı fəlsəfəsində keyfiyyət dəyişikliyinə zəmin yaratmış, elektrik enerjisi ilə istehlakçıların daha etibarlı, davamlı, təhlükəsiz və səmərəli təchizatına xidmət etmişdir.

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da iqtisadi inkişafın davamlılığının təmin edilməsi ilə bağlı görülən işlər, öz növbəsində, kommunal infrastrukturun, o cümlədən paylayıcı elektrik şəbəkəsinin keyfiyyətinin yüksəldilməsini, əhalinin fasiləsiz və təhlükəsiz enerjiyə çıxışını əsas prioritetlərdən birinə çevirir", - sərəncamda qeyd edilir.

# Azərbaycanda xidmət və işlərlə əlaqədar qanunvericiliyin tələblərini pozan QHT-lər cərimələnəcək

**Azərbaycanda qeyri-hökumət təşkilatı tərəfindən xidmətlərin göstərilməsi və işlərin görülməsi ilə bağlı qanunvericiliyin tələblərinin pozulmasına görə cərimələr müəyyənləşir.**

Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi İnzibati Xətalar Məcəlləsinə edilən dəyişiklikdə əksini tapıb.

Qanuna əsasən, Məcəlləyə edilən yeni 432-1-ci maddəyə əsasən, qeyri-hökumət təşkilatı tərəfindən xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydiyyat üçün qanunvericiliklə müəyyən edilmiş müddətlərdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməməsinə görə vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə ediləcək.

Xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilə olmadan və ya qeydiyyata alınmamış belə müqavilə üzrə qeyri-hökumət təşkilatı tərəfindən xidmətlərin göstərilməsinə və ya işlərin görülməsinə, yaxud bununla əlaqədar maliyyə vəsaiti və (və ya) başqa maddi formada vəsait qəbul edilməsinə görə vəzifəli şəxslər iki min beş yüz manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər səkkiz min manatdan on beş min manatadək məbləğdə cərimə olunacaq.

Qeyri-hökumət təşkilatları, yaxud banklar və digər ödəniş xidməti təchizatçıları tərəfindən "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada qeydiyyata alınmamış xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilə üzrə bank əməliyyatlarının və hər hansı digər əməliyyatların aparılmasına görə vəzifəli şəxslər iki min beş yüz manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan səkkiz min manatadək məbləğdə cərimələnəcək.

Dövlət başçısı müvafiq Qanunun icrası ilə bağlı Fərman imzalayıb.

# Sahibə Qafarova Türkmənistan Məclisinin sədri ilə görüşdü

**Avqustun 4-də Milli Məclisin sədri Sahibə Qafarova Türkmənistana işgüzar səfəri çərçivəsində Türkmənistan Məclisinin sədri Dünyagözəl Qulmanova ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən Adalet.az-a verilən xəbərə görə, Dünyagözəl Qulmanova Milli Məclisin sədrini salamlayaraq BMT-nin Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üzrə üçüncü Konfransı çərçivəsində keçirilən Parlamentlərarası Forumda iştiraka görə təşəkkürünü bildirib.

Azərbaycanın və Türkmənistanın qanunverici orqanları arasındakı əməkdaşlığı yüksək qiymətləndirən Dünyagözəl Qulmanova ölkələrimiz arasındakı münasibətlərin mövcud səviyyəsindən razılığını bildirib. Səmimi görüş üçün təşəkkürünü bildirən Milli Məclisin sədri konfransın iştirakçı ölkələrin parlamentləri arasında əməkdaşlığın inkişafı baxımından əhəmiyyətini qeyd edib. Sahibə Qafarova bu Konfransın yüksək səviyyədə təşkilinə görə Türkmənistan tərəfinə minnətdarlığını bildirib.



Sahibə Qafarova dost və qardaş ölkələrimiz arasında əlaqələrin inkişafından danışaraq, yüksək səviyyəli qarşılıqlı səfərlərin münasibətlərin inkişafında böyük rol oynadığını qeyd edib. O, ötən ay Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərini xatırlayaraq, ali qonağın həmin səfər çərçivəsində Prezident İlham Əliyevlə keçirdiyi görüşünün və aparılmış müzakirələrin əhəmiyyətindən danışıb. Spiker bildirib ki, ölkələrimiz arasında imzalanmış sənədlər münasibətlərimizin hüquqi bazasını formalaşdırıb. Bu sənədlər arasında "Azərbaycan Respublikası ilə Türkmənistan arasında Strateji tərəfdaşlıq haqqında Bəyannamə" ölkələrimizin hərtərəfli əməkdaşlığının daha da inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan-Türkmənistan münasibətlərinin inkişafında hər iki ölkənin parlamentlərinin əhəmiyyətini vurğulayan Sahibə Qafarova bu sahədə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının fəaliyyətini təqdir edib.

Görüşdə xalqlarımızı dərin tarixi köklərin, mənəvi və mədəni dəyərlərin birləşdirdiyini, bunları qoruyub gələcək nəsillərə çatdırmağın vacib olduğu diqqətə çatdırılıb.

Söhbət zamanı tərəfləri maraqlandıran digər mövzularda da fikir mübadiləsi aparılıb.

## *Azərbaycan, Türkmənistan və Özbəkistan üçtərəfli görüşü olub*

**Avazada Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və Azərbaycanın Baş naziri Əli Əsədov arasında üçtərəfli görüş keçirilib.**

Adalet.az xəbər verir ki, bu barədə Nazirlər Kabineti məlumat yayıb. Ə.Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Türkmənistan Xalq Məsləhətinin sədrinə və Özbəksitanın dövlət başçısına çatdırıb.

Qurbanqulu Berdiməhəmmədov və Şavkat Mirziyoyev Prezident İlham Əliyevin salamlarına görə minnətdarlıqlarını bildiriblər, onların da salamlarını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş ediblər. Qurbanqulu Berdiməhəmmədov və Şavkat Mirziyoyev Azərbaycanın Mərkəzi Asiya ölkələri ailəsində, Dövlət başçılarının Məşvərət şurasında xüsusi yerinin olduğunu, Azərbaycan Prezidentinin bu istiqamətdə çox iş gördüyünü vurğulayıb və Azərbaycanın region ölkələri ilə birlikdə Avrasiya, habelə bütün dünya üçün böyük əhəmiyyət kəsb etdiyini qeyd ediblər. Q.Berdiməhəmmədov Mərkəzi Asiya ölkələri və Azərbaycan formatının artıq faktiki olaraq mövcud olduğunu, bu əməkdaşlığın günün tələbinə çevrildiyini və bu formatın daimi praktikaya çevrilməsinin zəruriliyini qeyd edib.

Türkmənistan Xalq Məsləhətinin sədri Prezident İlham Əliyevin Azərbaycan-Türkmənistan-Özbəkistan formatında əməkdaşlığı vacib saydığını qeyd edib və bu görüşü belə bir yeni formatın əsasının qoyulması kimi qiymətləndirib. Üçtərəfli formatın ilk görüşündə humanitar, mədəni əlaqələrin inkişafının vacibliyi və iqtisadi əməkdaşlıq mövzuları müzakirə edilib. İqtisadi sahədə ən aktual istiqamətlər kimi nəqliyyat, logistika, enerji sektorlarında strateji əməkdaşlığın daha da genişləndirilməsinə qarşılıqlı maraq ifadə olunub. Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Azərbaycanda səfərdə olarkən Prezident İlham Əliyevlə Füzuli rayonunda məscidin tikintisi, habelə Füzuli və Arxadağ şəhərlərinin qardaşlaşması ilə bağlı razılığın əldə olunduğunu bildirib.

**Nicat NOVRUZOĞLU**

<u>*AQİL ABBAS*</u>

# ÇƏRX BAŞINA GƏLMƏYƏNİ, ÇƏRLƏDİN, ÇƏRLƏDİN ÖLDÜRÜN

***Rusiyanın bir sürü ziyalısı, deputatı, dövlət məmuru ağız-ağıza verib kürsəyə gələn itlər kimi bizə hürürlər. İndi də bu sürüyə Rusiyanın xalq artisti, kinorejissor və əslində mafioz, özü də nəsillikcə mafioz Nikita Mixalkov da qoşulub. Özləri faşist olanlar bizi faşist adlandırırlar. Atalar necə deyir: "Adımı sənə qoyum, səni də yana-yana qoyum".***

***Günahımız da odur ki, Azərbaycan hökumətindən icazəsiz, qeyri-qanuni torpaqlarımızda qayırdıqları Ayvazovskinin heykəlini uçurmuşuq. Heykəl qoyurdun Tolstoyun heykəlini qoyardın, Dostoyevskinin, Bulqakovun heykəlini qoyardın, ya da bizim Bakıda ucaltdığımız Puşkinin heykəlini. Nədən Ayvazovskinin?! Erməninin?! Bizi yandırıb-yaxmaq üçün?!***

***Yeri gəlmişkən, o Ayvazovskinin ki, XIX əsrin 90-cı illərində Osmanlı sultanı II Əbdülhəmid onu adam sayıb İstanbula dəvət etmişdi, çox qiymətli hədiyyələr bağışlamışdı. Osmanlı dövlətinin ən ali medalı ilə təltif eləmişdi.***





*Sonrası nə oldu? Həmin əsrin 90-cı illərində Türkiyədə, daha doğrusu, Osmanlı dövlətində yaşayan ermənilər qudurub türkləri tutmağa başladılar. II Əbdülhəmid də onları cəzalandırıb layiq olduqları yerində oturtdu. Bu da Ayvazovskinin xətrinə dəydi və namərdcəsinə Osmanlı dövlətinin ən ali medalını tulasının boynundan asdı.*

*Öz adlarını bizə qoyub bizi faşist adlandırmaları bizi necə yandırırsa, gör onun verdiyi medalın tulanın boynundan asıldığını eşidən II Əbdülhəmid necə yanıb-yaxılıb!*

*Ermənilər Qarabağda bizim məbədlərimizi, tarixi abidələrimizi, məscidlərimizi dağıdanda, məscidlərimizdə mixalkovlar saxlayanda, dillərini dinməz yerə qoyub heç bir etiraz bildirməyəndə, ermənilərə "vurma, txe" deyənlər nə humanist olublar?! İndi tumanlarını başlarına çırmayıb və xəbərləri də yoxdur ki, yanları da açıb qalıb, bizim haqqımızda ağızlarına gələni qusurlar.*

*Bir dəfə yazmışam, bilməyənlər üçün bir də xatırladım "vurma, txe" nə deməkdir?*

*Turşsu yaylağında erməni uşaqlarıyla dalaşanda ataları "vurma, txe" bağıra-bağıra gəlirdilər. "Vurma"nı azərbaycanca deyirdilər, "txe"ni ermənicə təbii ki. Eşidənlər də deyirdilər ki, uşağını və ya uşaqlarını danlayırlar ki, vurma. Əslində isə ermənicə "txe" "vur" deməkdir. İndi Rusiyada 30 il bizi sakitləşdirmək üçün ermənilərə "vurma, txe" deyirdilər. Və elə indi də.*

*İndi Rusiya görür ki, bizi çərx başına gətirə bilmir, çərlətmə üsulu tapıb, bizi çərlədirlər, ömrümüzü yeyirlər.*

*Bir sürü tülkünü salıblar Boz Qurdun üstünə. İndiyədək tülkülərin Boz Qurdu boğduqlarının şahidi olan varmı?! Təbii ki, yox.*

*Mənim bir dayım vardı, bəzən xoşu gəlməyən kişilərə arvad söyüşü edərdi.*

*Soruşurdum:*

*- Dayı, sən niyə kişiyə arvad söyüşü edirsən?*

*Gülüb deyirdi:*

*- O kişidir ki, ona kişi söyüşü edim?*

*İndi ürəyimdən keçdi ki, dayım kimi Mixalkova, Zatulinə, Şvidkoya, day nə bilim hansı kərtənkələyə yağlı bir arvad söyüşü edim, dedim ki, oxuculardan ayıbdı.*

*Dostum Mirşahin, bilirəm, səni də çərlədiblər. Döz, qardaş, döz, dözməliyik. Mübarizə hələ qabaqdadır. Rəsul Rza necə deyib:*

*Mübarizə bu gün də var,*
*Yarın da.*
*Biz də onun ön sıralarında.*



NİCAT NOVRUZOĞLU

## Marketdən aptekə, aptekdən marketə

**Nə zamandır ömürü belə sürürük. Ordan ora ordan da ora. Əvvəllər də belə olub. Amma əvvəllər yeyib yaşayırmışlar. Arada bir aptekə də dəyərmişlər. İndi isə elə bir dövrə gəlib çıxmışıq ki, tək yeməklə yaşamaq mümkün deyil. Gərək bir ayağın da aptekdə olsun. Canı dərmansız yaşatmaq müşküldü. Dərmanla da yaşamaq ondan da müşkül.**

**Paytaxtın Yeni Yasamal adlanan ərazisində yaşayıram. Burada əhali sıx yerləşib. Məhləmizdə təxminən 5 böyük market var. Və elə bu qədərdə aptek var. Marketlərdən biri 24 saat çalışır. Apteklərdən də biri. Ümumi götürəndə vəziyyət eynidi. Tək sayda yox. Həm də alıcıda. Mümkün deyil ki. aptekə daxil olanda növbədə birinci olasan. Nə vaxt girirsən ən yaxşı halda ikinci adamsan. Yəni ki, aptekin növbəliyi ilə marketin növbəliyi biz tərəfdə eynidir. Görünən odur ki, yaşamaq tək toxluqla alınmır.**

**O günləri xəbər oxudum. Dövlət Statistika Komitəsinin məlumatına əsaslanan xəbərdə bildirilirdi ki, 2025-ci ilin yanvar-may aylarında Azərbaycanda istehlakçılara 598,1 milyon manat dəyərində əczaçılıq məhsulları və tibbi ləvazimat satılıb. Əczaçılıq məhsulları və tibbi ləvazimatlar üzrə ticarət dövriyyəsinin yekunda xüsusi çəkisi 2,6% təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 18,2% çoxdur. 5 aya əhali 600 milyon xərcləyibsə çox güman ki, ilin axırına bu rəqəm milyard yarıma çatacaq. Tam əmin ola bilərsiniz ki, bu rəqəm ötən illərin göstəricilərindən kifayət qədər yüksəkdi.**

**Bu iki haldan baş verə bilər. Biri odur ki, dərman preparatlarının və tibbi ləvazimatların qiymətləri ötən illərə nisbətən yüksək ola bilər ki, bu da ümümi dövriyyədə özünü göstərə bilər. Yəni ehtiyac eynidir. Amma qiymət artımı xərclənən vəsaiti artırır. Ikincisi isə o ola bilər ki, insanların dərman preparatlarına və tibbi ləvazimatlara tələbi çoxalıb. Yəni sağlam insanların sayı azalır və yaxud da əksinə, xəstələrin sayı artır. Fikrimcə hər iki hal biz də mövcuddur. Həm qiymətlər qalxır, həm də ki xəstələr çoxalır.**

**Qiymətlər ona görə qalxır ki, manapoliya var.**

**Xəstələr isə ona görə artır ki, qida sektoru özü xəstədir. Və o üzdən qəbul etdiyimiz qidalar sağlamlığımıza zərbələr endirir. Yavaş-yavaş. Öldürmür.**

**Asılılıq yaradır. Dərmanlardan.**

**Bir də ki, əsəb və gərginlik. Bu da bizi məhv edir.**

**Xərçəng, şəkər, bel yırtığı, infarkt, qan təzyiqi...**

**Həm qidadan həm də ki, əsəb və gərginlikdən qaçmaq imkansızdır. Hara qaçasan? Fikirləşsən ki, gedim rayonda yaşayım təbii qidalarla qidalanım bu da mümkünsüzdür. Çünki elə rayondakılar da bizim günümüzdədir. Çünkisini yazmağa ömür yetməz. Xəstəyəm axı.**

**Bunu qısaca yazdım ki, bir marketdən bir də ki, aptekdən istəsək də istəməsək də bərk yapışmalıyıq. Yaşamaq üçün. Çarəmiz yoxdur.**

## ABŞ Ukraynaya 500 milyonluq silah ötürdü



**Birləşmiş Ştatların prezidenti Donald Tramp Ukraynaya hərbi yardım etməyəcəkləri ilə bağlı"vədinə" əməl edir. ABŞ Ukraynaya hərbi yardımı "Məmmədhəsənin", yəni Avropa dövlətlərinin əli ilə hərbi yardım edir.**

Bu dəfə Ukraynaya hərbi yardım edilməsi məqsədiylə Hollandiyaya 500 milyon dəyərində silah "satıb". Bu barədə, ABŞ -ın NATO-dakı nümayəndəsi, baş katibin müavini Mettyu Uitaker məlumat verib.

Hazırki hərbi yardım, ABŞ və NATO arasında Ukraynaya hərbi yardlm göstərilməsi ilə bağlı sazişə uyğun olaraq atılan ilk addımdlr. Bildirilir ki, Niderland Birləşmiş Ştatlardan "aldığı" Patriot sistemləri üçün raketləri, arteleriya mərmilərini, patron və digər ləvazımatları bir başa Ukraynaya göndərəcək. Uitaker "Bloomberg" verdiyi müsahibədə, digər Avropa dövlətlərinin də, Hollandiya nümunəsinə qoşulacağına ümid etdiyini bildirib.

Rüstəm Hacıyev

**Çox sevindirici haldır ki, Qarabağ erməni işğalından azad olub. Hətta orada yuxumuza da girməyən hadisə, tədbir və yeniliklər də baş verir.**

Məsələn, İyulun 21-də "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumu! Düzdür, media kapitanı olmadığıma görə, "əməkdar", "tərəqqi" , fəxri fərman sahibi deyiləm deyə o müdhiş tədbirə dəvət olunmadım!

Amma Allah şahiddir ki, o qədər sevindim ki... Ta ki, tanınmış politoloq Ramiz Yunusu o forumda görənə qədər!

"Tərəqqi" medalı ilə yenicə təltif edilmiş, tanınmış jurnalist Elçin Alıoğlunun 2019-cu ildə Ramiz Yunus haqqında yazdığı məqaləni zibil edib qoydular orda. Elçin bəy də məqaləsində dünyada aşağılayıcı bildiyi bütün sözləri bu politoloqun ünvanına yazmışdı:

1.Ə.Elçibəy demişdi: "Pənah bəy, nə edirsən et, amma o adamı bir də görmək istəmirəm. Rədd eləyin o qurumsağı buradan!"

2.Hikmət Hacızadə dəqiq "xasiyyətnamə" vermişdi: "Bu yaramaz telefon, nömrə alverçisidir!"

3.Sabiq daxili işlər naziri İsgəndər Həmidovun Ramiz Yunus barədə dedikləri də məlumdur: "Ramiz Yunus qanacaqsız, cılız varlıqdır. O, Əlikrəm Hümbətovun tulası olub. Onu indi danışdıranlar var. Ə, yeri get ağlını yığ başına, ailənə yiyəlik elə, ayıbına kor ol! Belə qanı qanımızdan olan məxluqlara fikir vermirəm".

# Ramiz Yunus Şuşaya gedərsə, tülkü niyə Həccə getməsin?




Sonrada Elçin müəllimin ürəyi soyumur, sənəd, fakt ortaya qoyaraq Ramiz Yunusun anasının Arşaluys Arsenovna Barseqyanın əslən Martuni rayonunda doğulduğunu, sonra Bakı şəhəri Nərimanov rayonunda yaşadığını yazır. Konkret deyir ki, ermənidirlər:"Azərbaycanın sabiq Geologiya və Mineral Ehtiyatlar üzrə Dövlət Komitəsinin əməkdaşı olmuş Ramiz Yunus sovet dönəmində Yəmənə xidməti ezamiyyətə göndərilir. Neftçıxarma sahəsində mütəxəssis və eyni zamanda SSRİ Geologiya Nazirliyinin ezam etdiyi əməkdaş kimi o, Yəməndə erməni Gevorq Qabrielyanın "buyruq qulu" kimi çalışıb".

"Sumqayıtda ermənilər qırğın törədəndə "vəhşi azərbaycanlılar"ı pisləyən və söyən Ramiz Yunus Yəməndə işlədiyi müddətdə soydaşlarından uzaq durur, həmişə ermənilərlə ünsiyyətə üstünlük verirdi".

"Həmin dönəmi xatırlayıram: Ramiz Yunus parlament binasında gün eynəyini çıxarmadan dolaşırdı və bu səbəbdən onu jurnalistlər "əyalət mafiozu" adlandırırdılar."

Novella xanım Cəfəroğlu 2013-cü ildə belə bir açıqlama da vermişdi: "Ramiz Yunus kimi gədələr və onun gəlini Leyla Yunus Azərbaycanı heç vaxt sevməyiblər".

Haqq üçünə deyək ki, Ramiz Yunus haqqında ən maraqlı məqalə də SİA.az- da gedib: "Ramis Yunus - erməni vələdüzzinası, yaxud haramzadəsi - FAKT"

Daha sonra Əməkdar jurnalist Eynulla Fətullayevin araşdırmasına görə isə, Yunusun yaxın qohumları indiyə qədər Ermənistanda, Dağlıq Qarabağda, Rusiyada yaşayır: " Məsələn, R. Yunusun dayısı- Suren Barseqyan ölənə qədər ermənilərin işğal etdiyi Şuşa şəhərində yaşayıb. Onun uşaqları, yəni Yunusun dayısı uşaqları Arsen, Erik, Armen, "Surik əminin" arvadı Kamella və qızı indiyə qədər erməni işğalı altındakı Şuşa şəhərində sakit həyat sürür. İki xalası - Nadya Gevorkyan və Siran Barseqyan əri Qrişa ilə bu yaxın zamana qədər Rusiyanın Krasnodar vilayətinin ermənilərlə bol olan Armavir şəhərində yaşayıb".

Hələ Afiq Hüseynov adlı bir soydaşımız bir neçə il əvvəl öz sosial şəbəkə hesabında yazmışdı ki, 1988-ci il hadisələri başlayanda Ramiz Yunus Hidrogeologiya idarəsində erməni dilində danışaraq, azərbaycanlıları təhqir edirdi.

Uzun sözün qısası, sizə burda sadaladığım bütün faktlar 2016-cı ildən 2024-cü ilə qədər Azərbaycan mediasını təmsil edən bütün sayt və qəzetlərdə baş məqalə olub. Bütün kapitanlar, mirzələr bu məqalələri dəfələrlə oxuyub, qiyabi olaraq Ramiz Yunusun üzünə tüpürüb.

**İndi ay hörmətli media kapitanları, "əməkdar"lar, "Qızıl qələm" , "Media açarı" , "Həsən bəy Zərdabi mükafatı", Ali Media Mükafatı və sair müxtəlif media mükafatlarının daşıyıcıları, birinizin cəsarətiniz çatmadı ki, Ramiz Yunusun müqəddəs məkanda - Şuşada nə gəzdiyini soruşasınız...**

**Ay sizin vətənşüvənliyiniz yerə girsin...**

Əntiqə RƏŞİD

SƏXAVƏT MƏMMƏD

## Zəngəzur dəhlizi və Xəzər düyünü: Yeni geosiyasi mərhələ başlayır



**Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanacağı istiqamətində addımlar atılır.**

**Abu-Dabi görüşündən sonra Vaşinqton görüşünün baş tutacağı iddia olunur. İddialar ortaya atılandan dərhal sonra Uzun zaman idi səssiz qalan Azərbaycan və Ermənistan müdafiə nazirlikləri səssizliklərini pozdular. Tərəflər bir-birini atəşkəsin pozulmasında, yalan informasiya yaymaqda ittiham etdilər. Gözlənilən idi? Əlbəttə!**

**Son zamanların ən çox müzakirə mövzusu Zəngəzur dəhlizidir. Hətta dəhlizi Tampın adı ilə də bağlayırlar. Ümumiyyətlə, Zəngəzur dəhlizinin mahiyyəti nədir? Zəngəzur dəhlizi Azərbaycanla Naxçıvanı bir-birinə bağladığı üçün əhəmiyyətlidir? Qətiyyən! Az qala bütün dünyanın baş sındırdığı yer Azərbaycanla Naxçıvanı bir-birinə quru əlaqəsi yaratması üçündür? Təbii ki, yox! Əgər bu belə olsa idi, dünya üçün ən əhəmiyyətsiz bir problem olardı.**

**Azərbaycan onsuzda İran üzərindən Naxçıvanla quru əlaqəsi qurur. Əsas məsələ Çindən İngiltərəyə qədər uzanacaq "Bir kəmər, bir yol" layihəsi və o layihənin bir neçə kilometrinə (Zəngəzur) hansı dövlətin nəzarəti ələ almasıdır.**

**Sanki hansısa bir güc bütün diqqəti bir nöqtəyə yolun Ermənistandan keçəcək hissəsinə cəmləyib, böyük ölkələr, böyük şirkətlər, siyasətçilər, analitiklər ancaq bura fokuslanıb.**

**Bu günə qədər yüzlərlə variant ortaya atılıb. Azərbaycanın hərbi güc tətbiq edərək o yolu açmasından tutmuş, ən sonuncu ABŞ şirkətinin icarəyə götürməsinə qədər variantlar mövcutdur. Son baş verən proseslər onu göstərir ki, Zəngəzur dəhlizinin Rusiyanın nəzarətinə verilmə ehtimalı çox aşağıdır. Sual yaranır. Rusiya dəhlizdən kənarlaşdırılacaqsa, dəhlizə müdaxilə etmək imkanı sıfıra enəcək? Başqa bir sual. Rusiya üçün "Bir kəmər, bir yol" layihəsinə müdaxilə imkanını düşünsək, Zəngəzur dəhlizi "A" variantıdır, yoxsa "B"? Düşünürəm ki, müdaxiləni imkanlarını hesablasaq Zəngəzur dəhlizi "B" varantıdır. Yaxşı, "A" varantı və hər kəsin diqqətdən kənarda saxladığı istiqamət Xəzər dənizidir.**

**"Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiya Azərbaycan, Qazaxıstan, Türkmənistan, Rusiya və İran tərəfindən imzalanıb. Ancaq İran parlamenti hələ də Konvensiyanı ratifikasiya etməyib. Bu o deməkdir ki, Konvensiya qüvvəyə minməyib.**

**"Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın 22-ci maddəsin deyilir:**

**"Bu Konvensiya ratifikasiya edilməlidir. Ratifikasiya fərmanları saxlanmaq üçün Depozitari funksiyalarını həyata keçirən Qazaxıstan Respublikasına verilir. Bu Konvensiya beşinci ratifikasiya fərmanının Depozitari tərəfindən alındığı tarixdən qüvvəyə minir".**

**Rusiyanın Xəzərdə dənizində son zamanlar aktivliyi artıb. Bundan əlavə Rusiya tərəfindən xüsusilə ötən ilin sonundan başlayaraq Xəzərin təhlükəsizliyi, Xəzərdən təhdid yönündə çıxışlara rast gəlirik. Hətta ötən ilin dekabrında Rusiya prezidenti təhlükəsizlik şurasının iclasında Xəzərin təhükəsizliyi məsələsi ön plana çıxardı.**

**Rusiya üçün Xəzər dənizində "Bir kəmər, bir yol" layihəsinə mane olmaq imkanları daha çoxdur. Xəzər dənizindəki 5 ölkənin hərbi gücünə baxıqda bunun asanlıqla edə biləcəyini deyə bilərik.**

**Azərbaycanın hərbi gücünü quru, hava, su olaraq katiqoriyalaşdırsaq, ən zəif yer kimi donanma olduğu ortaya çıxır. Azərbaycan 44 günlük müharibədən sonra köhnəlmiş hərbi təyyarələrini Pakistandan JF-17-lər alaraq yenilədi. Azərbaycanın döyüş gəmilərinin müasirliyi barədə danışmaq yersidir. Ola bilsin kimsə deyəcək ki, gəmi var, onun üzərinə müasir raketlər quraşdırmaq olar. Bunu düşünməyin özü belə bu sahə barədə bəsid anlayışın olmamasından xəbər verəcək.**

**Azərbaycan Pakistanla strateji müttəfiqdir. Bunu hərbi təyyarələr almaqla daha da möhkəmləndirib. Hazırda Pakistan Hərbi Dəniz Qüvvələrinin Ali Baş Komandanı Azərbaycanda səfərdədir. Bu istiqamətdə də hansısa əməkdaşlığın baş verəcəyi gözlənəndir. Pakistanın hərbi gəmilərin inşasını həyata keçirir, ancaq tam şəkildə özü bunu etmir. Pakistan hərbi gəmilərin inşasını Çin və Türkiyə ilə birgə həyata keçirə bilir. Hərbi gəmilərin inşası çox bahalı və uzun vaxt tələb edən bir layihədir.**

**Görünən odur ki, İran və Rusiyanın regiona olan təhdid və təzyiqi Zəngəzur dəhlizinin açılması ilə bitməyəcək. Yeri gəlmişkən Rusiyada Qazaxıstana qarşı ritorika kəskin dəyişib. Zəngəzur dəhlizi düyünü açılacağı təqdirdə Xəzər düyünü ortaya çıxa bilər. Bunun işartılarını artıq görmək mümkündür.**

*Mir Şahin Ağayev*



# BU SƏHVİ ETMƏYƏK!

**...Bir neçə gündür ki, mediada (sosiallı, sosialsız) Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın ABŞ-də təzliklə mühüm sənəd imzalayacağı barədə xəbərlər yayılır. Bu sənədin iki ölkə arasında sülh sazişi ola biləcəyi ehtimal edilir. Bununla da Qafqazda ən qanlı və ən uzunömürlü müharibə rəsmən başa çatacaq-deyə düşünürlər.**

**Ola bilər.**

**Hər şey mümkündür.**

**Bütün müharibələr səngərdə başlayır, masada bitir. Amma məni məsələnin başqa tərəfi maraqlandırır. Sanki kimlərsə-Ehtimali Sülh Sazişini bilərəkdən artıq indidən ABŞ Prezidentinin tarixi nailiyyəti kimi təqdim etməyə çalışır. Bu səhvi etmək olmaz! Bu təkcə tarixi həqiqətləri təhrif etmək deyil, həm də öz xalqına qarşı böyük hörmətsizlikdir! Ola bilsin ki, ABŞ lideri D. Tramp Azərbaycanın lideri İlham Əliyevə rəğbətlə yanaşır. Amma 100 illərin tarixi sənədini D. Trampın ayağına yazmaq, onun cahanşümul uğuru kimi qələmə vermək təşəbbüsləri son dərəcə zərərlidir. Vətən müharibəsində qazandığımız uğurlara şərik qoşmaq cəhdləri kimi.**

**Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa, dövlət suverenliyinin təmin olunması-Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən möhtəşəm ümumxalq prosesinin müstəsna nəticəsidir. 44 günlük vətən müharibəsi, 8 noyabr Zəfər Günü, 20 sentyabr antiterror əməliyyatı mahiyyətcə misilsiz olmaqla, həm də həlledici hadisələrdir. Deyəsən, kimlərsə ya axmaqlıqdan, ya da arxayınlıqdan Dəmir Yumruqu unutmağa, unutdurmağa çalışır?! Olmaz bunu etmək! Əgər bu gün ABŞ Azərbaycan və Ermənistana hər hansısa sənəd, hətta Sülh Sazişi imzalmaq məqsədilə öz məkanında yer və fürsət təklif edirsə, bu məhz Dəmir Yumruğun nəticəsi ilə barışmaqdır, Azərbaycanın Qələbəsini, ilahi ədaləti qəbul etməyə məcbur olmaqdır. Unudulmamalıdır:**

**Biz indiki məqama Birinci və İkinci Qarabağ müharibəsində verdiyimiz 20 minə qədər şəhidin canı, on minlərlə qazinin qanı, xalqımızın birliyi və tarixi hövsələsi, işğalla barışmazlığı, dözümü, dəyanəti bahasına yetişmişik.**

**Sülh sazişinin də şərtlərinin müəllifi Prezident İlham Əliyevdir. Və əgər nə vaxtsa, fərqi yoxdur-bu gün, sabah, ya birisigün-Azərbaycan və Ermənistan arasında Böyük Sülh Müqaviləsi imzalanacaqsa, əsas müəllif yalnız Azərbaycan, yalnız onun lideri olacaq. Qələbənin müəllifi İlham Əliyev oldu. Sülhü də biz uduruq. Bu zəfərin də müəllifi bəllidir: Prezident İlham Əliyev: yəni Azərbaycan xalqı və Azərbaycan dövləti!**

# Əhmədbəyli - Şuşa yox, Bəhmənli- Şuşa!

**Azərbaycan öz zəngin keçmişi və tarixi ilə həmişə digər xalqlardan fərqlənib.Özü də bizim millətdə olan böyük ürək, səxavət, səmimiyyət heç də hər millətdə yoxdu...**

**Və xalqın həm də tarix yazan böyük şəxsiyyətlər də var! O tarix yazan böyük şəxsiyyətlərdən biri də Pənahəli xandır. O Pənahəli xan ki, 1750- ci ildə Şuşanın əsasın qoyub və ora tikdirib. Və bunu heç kim inkar edə bilməz, hətta ermənilər belə Şuşanın Pənahəli xan tikdirdiyini inkar etmir.**

**Tarixdən o da , bəllidir ki, Bəhmənli oymağında anadan olub.Bu barədə tarixi mənbələrdə və konkret olaraq" Qarabağnamədə" ətraflı yazılıb.Bizim sözümüzün canı Pənahəli xanın haralı olması deyil! Çünki Pənahəli xan türk oğlu türkdür. Və onun damarlarından tər-təmiz türk qanı axır! Bizim sözümüzün canı odur ki, Əhmədbəyli- Şuşa yolu elə deyil , belə adlandırılmalıdır: Bəhmənli - Şuşa yolu! Bu ideyanı və təklifi böyük ziyalı, Füzuli rayon Ağsaqqallar Şurasının sədri, Pənahəli xanın nəslindən olan Zülfüqar Əliyev səsləndirib. Çox orjinal və gözəl ideyadır.**

**Zülfüqar həkim deyir ki, əgər bu möhtəşəm yol Bəhmənli- Şuşa adlandırılsa, bax onda böyük Pənahəli xanın da ruhu sevinər, şad olar! Nə gözəl! Bizdən deməkdir! Onu gerçəkləşdirmək isə aidiyyəti qurumların işidi!..**

**FAİQ QİSMƏTOĞLU**

# "Trampın vəd etdiyi görüş Azərbaycana, Qafqaza nə verə bilər?"

*Xəbər verildiyi kimi, ABŞ, Ermənistan və Azərbaycan liderlərinin iştirakı ilə Vaşinqtonda sammit keçiriləcək. Sammitin məqsədi Ermənistan və Azərbaycan liderləri tərəfindən tezliklə sülh sazişin imzalanmasına və Cənubi Qafqazda sülh və sabitliyə töhfə verilməsidir.*

*Azad Vətən Partiyasının sədri Akif Nağı məsələ ilə bağlı Adalet.az saytına müsahibə verib.*

- ABŞ prezidenti Donald Tramp bu həftənin sonunda Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanı Ağ Evdə qəbul etməyə hazırlaşması xəbəri, görüşlə bağlı açıqlama gözlənilməz oldu. Respublikaçılar Partiyasının üzvü, amerikalı senator Stiv Deyns Azərbaycan və Ermənistan arasında sülh sazişi bağlaması ilə bağlı pozitiv açıqlama verməsinə baxmayaraq, Ermənistan tərəfi bu görüşün baş tutması ilə bağlı nə təsdiq, nə də təkzib məlumatı yayıb. Eləcə də, Azərbaycan tərəfi də bu görüşlə bağlı rəsmi bir açıqlama verməyib. Amma qeyd etmək yerinə düşər ki, ABŞ administrasiyasının bu prosesdə fəallığı hiss olunur. Çünki Ermənistan Azərbaycanın bir sıra tələblərini yerinə yetirir.

**- Amma tələblər yerinə yetirildikdən sonra arxasınca problemlər ortaya çıxır... Məsələn, Paşinyanın sonuncu Rusiya səfəri...**

-ABŞ-ın Qafqazdakı vəziyyətə müdaxilə etməsi, ümumiyyətlə Qafqazda, Ermənistanda görünməsi Rusiyanın xoşuna gələn hal deyil. Hətta Azərbaycan və Ermənistan arasındakı sülh prosesinə qoşulması da təbii ki, Rusiyanı qıcıqlandırır və regionda fəallığını artırır. Məsələn, Qarabağı könüllü tərk etmiş ermənilərə tez-tez yardımlar edir.Özünü onların himayədarı kimi göstərməyə çalışır. Bununla kifayətlənməyən Rusiya Gümrüdəki 102 saylı hərbi bazaya hərbi yük daşımasını artırıb. Erməni mediası yazıb ki, hər gün bir neçə belə təyyarə Gümrüyə eniş edir. Ermənistanın xarici ticarət dövriyyəsində önəmli yerdə olmaqda davam edir.

Bəli, Rusiya və ABŞ regionda təşəbbüsü ələ almaq üçün gizlicə mübarizə aparır və bunun bariz nümunəsi D.Trampın belə bir təkliflə çıxış etməsidir. Üstəlik ABŞ Prezidenti Rusiyaya Ukrayna ilə razılaşmalara nail olmaq üçün verdiyi müddəti 50 gündən 10 günə endirib. Ola bilər ki, bu da həmin rəqabət prosesinin bir hissəsidir. Yəni, ABŞ 3 tərəfli görüş başlayana qədər Rusiyanın Ukrayna ilə bağlı bir qərara gəlməsini tələb edir, necə deyərlər, onu sıxmağa çalışır.

**-Akif müəllim, yayılan məlumatlarda bildirilir ki, ABŞ lideri Donald Tramp əvvəlcə Ermənistan Baş naziri Nikol Paşinyanla görüşəcək. O, daha sonra Azərbaycan Prezidenti İlham Əliyevlə bir araya gələcək. Bundan sonra üç lider birgə bəyanatla çıxış edəcəklər.**

- Bilirsiniz, o görüş baş tutarsa... təbii ki, "sülh müqaviləsi" əvvəlcədən hazırlanmalı idi.



Əslində bu çox çətin məsələdir, amma ola bilər ki orda sülh müqaviləsinin paraflanması ilə bağlı razılıq əldə olunsun. Ümid eləyirəm ki, Zəngəzur dəhlizi ilə bağlı hansısa bir çərçivə razılaşması ola bilər. Və yaxud ilkin razılaşma ola bilər . Yəni, bax bu istiqamətdə hansısa nəticələr əldə oluna bilər.

Hər halda müsbət bir prosesin göstəricisi olan bu görüşdə Azərbaycanın təkliflərinin, tələblərinin yer alınacağını düşünürəm. Hazırda Amerikanın bu mövqedə çıxışları da onu göstərir.

**- Belə çıxır ki, dünya "ədalət"lənib?**

- Azərbaycanın tələblərinin nəzərə alınması Azərbaycanın regiondakı lider roludan irəli gəlir, təbii bunu da nəzərə alırlar. Məsələ ilə bağlı Türkiyənin də fəallaşması prosesi gedir. ABŞ administrasiyasının Azərbaycanla münasibətlərində müəyyən işlər var və belə görünür ki ABŞ regionda Azərbaycan və Türkiyənin rolunu hesablayaraq onların nəzərdə tutduğu təklif və tələblər çərçivəsində regionda sabitliyə nail olmağa çalışır. Ermənistanı da buna məcbur edəcəklər ki prosesə razılaşsın.

**- Əgər dediyiniz tələb və təkliflər nəzərə alınarsa, bu Rusiyanın Qafqazdakı fəaliyyətinin aktivliyini azaldarmı?**

- Azərbaycanla Ermənistan arasında baş verəcək sülh müqaviləsi və buna bənzər digər razılaşmalar Rusiyanın Qafqazdan vurub çıxartmaq yoludur. Bu onun bir mərhələsidir . Bunu bu şəkildə dəyərləndirmək olar!

Yenə də qeyd edirəm, bu görüşdə sülh müqaviləsinin imzalanması texniki cəhətdən mümkün deyil, çünki müəyyən qaydada prosedur keçməlidir. Amma son dövrdə bilirsiniz ki, sülh müqaviləsinin paraflanması ilə bağlı söhbətlər gedir . Paraflana bilər və ya yaxud çərçivə sazişi imzalana bilər ki, bu da irəliyə doğru bir addımdır.

**Əntiqə Rəşid**

# Düşmənçiliyə bir addım yaxın: Rusiyanın Azərbaycan qazı axan kəməri vurması...

**Ötən gündən başlayaraq sosial şəbəkələrdə Rusiya hərbçilərinin Odessa vilayətində magistral qaz kəmərinə zərbələr endirdiyi müzakirə obyekti olub.**

Məlumatlarda qeyd olunur ki, zərbələr nəticəsində İzmail rayonunun Orlovka kəndi yaxınlığında "Orlovka-1/2" qazpaylayıcı stansiyası dağılıb. Söhbəti gedən kəmər vasitəsilə Ukrayna Yunanıstandan, Rumıniyadan, Türkiyə və Azərbaycandan da qaz alırdı.

Mövzu sosial şəbəkə istifadəçilərini iki yerə ayırıb. Bir tərəf düşünür ki, əgər Azərbaycanla Rusiya arasında gərginlik olmasaydı, Rusiya həmin kəməri vurmazdı. Əllərindəki fakt da odur ki, 2008-ci ildə Rusiya Gürcüstana qarşı işğalçı müharibəyə başlayanda istəsəydi Bakı-Tiflis-Ceyhan boru xəttini asanlıqla bombalayardı, amma bunu etmədi! Amma politoloq Elxan Şahinoğlu bununla bağlı sosial şəbəkə hesabında dəqiqliklə qeyd etdi ki, həmin savaş uzansaydı, Kreml qəsdən boru xəttini zədələyə bilərdi:" Çünki Azərbaycan neftinin Gürcüstan və Türkiyə üzərin-



dən dünya bazarlarına nəqli Kremlin yaralı yerlərindən biri idi".

İkinci tərəf isə düşünür ki, Rusiya, xüsusən Putin üçün heç bir şey önəmli deyil, əsas onun məqsədləridir ki, ona da mütləq çatmaq üçün qarşısında duran hər şeyi məhv etməyə qadirdir. İstifadəçilər onu da vurğulayır ki, əgər Putin qanı qanından, dili dilindən, dini dinindən, kökü kökündən olan insanları Ukraynada amansızcasına , kütləvi şəkildə qırırsa, o Azərbaycana qarşı nələr etməz ki?

Əslində ikincilərin fikri ilə daha çox razılaşmaq olar. Bir faktda mən qeyd edim: Deməli, 2022-ci il fevralın 22-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" imzalandı.Tərəfdaşlıq, müttəfiqlik, dostluq, təhlükəsizlik əlaqələri ilə bağlı yekəyekə saziş və müqavilələr imzalandı, bəyanatlar səsləndirildi.

Amma bu təntənəli "atəşfəşanlıqdan" heç bir ay belə keçməmiş Rusiya Dövlət Dumasının deputatı Mixail Delyaqin Bakının neft mədənlərinə bomba zərbəsi endirməyi təklif etdi. Mixail Delyaqin iddia etdi ki, Azərbaycan Rusiya üçün böyük təhlükədir və Bakının cəzalandırılması lazımdır: "Azərbaycanın neft sənayesini məhv etməli və nüvə zərbəsi endirməliyik".

İl başa çatmamış isə Kremlin "ağzı" hesab edilən, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) Hərbi-Siyasi Araşdırmalar Mərkəzinin aparıcı eksperti Mixail Aleksandrov Azərbaycana qarşı təxribat xarakterli bəyanatlar verdi . O, kütləvi informasiya vasitələrində verdiyi geniş auditoriya kütləsinə ünvanlanan audiomüraciətində "Azərbaycanın bütün neft sənayesinin, enerji sisteminin raketlərlə bombalanması və tamamilə məhv edilməli olmasını" bildirməklə açıq çağırışlar etdi.

Rusiya hakimiyyəti bununla bağlı hər iki rəsmi şəxs haqqında heç bir ciddi ölçü götürmədi və bu da onu göstərirdi ki, əslində Putinin sözlərini onun "ağzı" hesab edilən rəsmilər bəyan edb!

**Bu da el arasında bir misal kimi deyilən"behi-bazarı" olmayan adam anlamına gəlir. Zənnimcə, kəmərə vurulan zərbə də nəyinsə xəbərdarlığıdır, hədəsidir! Biz tanıdığımız Putin düşmənçilik aparmağa başlayanda bütün müqəddəs sədləri tapdalayır! Onun üçün pislik, rəzillik, faciə, dəhşət yaratmaq 2vur 2-dir! Bu qədər bəsit!**

**Bu dəfə də yaxşı qurtardıq**

**Əntiqə Rəşid**

# Qarabağımın azadlığa çıxmış gozəllikləri: Vəngli - II yazı

**Tam 40 ildən sonra yolum ilk dəfə Ağdərə rayonunun Vəngli kəndinə düşdü! - Vəngli-2**

Vəngli kəndi ermnilərin ən çox diqqət yetirdiyi, tikib -qurduğu kəndlərdən biri, bəlkə də birincisi olub.

Niyə? -deyə sual versəniz, cavab üçün deyərəm ki, məqalənin birinci hissəsində kəndin təbii gözəllikləri, mənzərəsi, relyefi və və qədim tarixə malik Gəncəsər məbədi məkanın turizm inkişfına tam uyğun olmasıdır. Qarabağı işğal etdikləri gündən Qarabağın kəndləri də, şəhərləri də "artsax respublikası"nın büdcəsini "möhkəmləndirmək" üçün istifadə edilib. Daha dəqiq, ermənilər təkcə var olanlarla barışmayıb, əksinə Vəngli kəndində turizmin məhsuldarlığını artırmaq üçün müxtəlif tikinti və quruculuq işlərinə də start veriblər.

Vəngliyə böyük yatırımlar qoyan isə erməni separatçıların baş sponsoru, "pul kisəsi", "qara kassası", ermənilərin dili ilə desək, "xeyriyyəçi, milyonçu" Levon Ayrapetyan olub. Onu bizim ictimaiyyətimiz nə vaxt tanıdı? 2008-ci il oktyabrın 16-da "Böyük Qarabağ Toyu" adlı mərasim keçirirdi və 675 erməni cütlüyün eyni vaxtda toyunu təşkil etdi.

Tanıtım üçün deyək ki, 1988-ci ildə "öz müstəqilliyini" elan etmiş separatçılara dəstəyi ilə seçilən bir şovinist erməni öz genetikasına uyğun şəkildə öz başından hekayələr uydurur və buna həm özü inanırdı, həm də ətrafındakıları inandırırdı. Çünki o,12 mart 1949-cu ildə Vəngli kəndində anadan olub və özünü 13-cü əsr Alban hökmdarı Həsən Cəlalın varisi sanırdı.

(Toplumca xəstədirlər də!) Deməli, bu əbləh Levon 2000-2002-ci illərdə doğulduğu Vəngli kəndi yaxınlığında yerləşən və XIII-cü əsrin ortalarında alban hökmdarı Həsən Cəlal tərəfindən inşa edilən Gəncəsər monastırını təmir etdirir. Bu dini məbəd Qarabağ ermənilərinin memarlıq incisi elan edtirir.

Xəstə təfəkkürlü Levon özünün olmayan kəndi "öz dədə-baba" yurdu kimi "sevirdi".

Kənddəki orta məktəbi bitirdikdən sonra o, sənədlərini Moskva Dövlət Universitetinə verir və fəlsəfə fakültəsində təhsil alır. Uzun illər "Komsomolskaya Pravda", "Sobesednik" qəzetlərində, "Oqonyok" jurnalında jurnalist kimi çalışır. Amma bir gün də Vəngli kəndini unutmur. Çünki əsl pul qazanmaq, milyonlar əldə etmək üçün əla məkan və fürsət idi.

Tanınmış yazar Həmid Herisçi məqaləsinin birində qeyd edir: "Özünün dediyi kimi, məhz Dağlıq Qarabağda baş verən hadisələr bizneslə məşğul olmasına və separatçılara maliyyə yardımları etməyə təkan verir.

Erməni mediası isə yazırdı:"2016-cı ilin aprel döyüşləri zamanı Ayrapetyanın Qarabağdakı bütün hotel-motelləri oğlu Qurgen tərəfindən döndərilir qaçqın düşərgələrinə. Vəng kəndindəki "Eklektika", "Tsovin kar" hotellərində yüzlərlə qaçqını müvəqqəti sığınacaqla təmin edir."

Doğulduğu Vəng kəndində atası Qurgen Ayrapetyanın adını daşıyan, internet sinfi olan müasir məktəbini, üçmərtəbəli uşaq bağçası, mebel fabriki, incəsənət məktəbi, yeni xəstəxana binasını, "Yuniastrum bank"ın filialını, mehmanxana, "Titanik" adlı istirahət mərkəzini, ağac emalı zavodunu inşa etdirdi, müasir yol infrastrukturu qurdu. Bundan başqa, 2007-ci ildə Xaçın çayı üzərində 7 milyon dollar dəyərində su elektrik stansiyasının qurulmasını təmin etdi. Vəngli̇dəki SES-dan söz düşmüşkən bildirək ki, qüdrətli Azərbaycan dövləti Levonun tikdiyi su elektrik stansiyasını söküb yerində "Yuxarı Vəng" Su Elektrik Stansiyası tikiblər. SES-də il ərzində 66 milyon kilovat-saatadək yaşıl enerjinin istehsal olunması nəzərdə tutulur. Bu da 15 milyon kubmetr təbii qaza qənaət edilməsi, 27 min tondan çox karbon emissiyasının qarşısının alınması deməkdir. Yadımdaykən deyim, Ayrapetyanın "qeyri-adi" təşəbbüsü ilə hər il Vəngli̇də "Qarabağ korridası" adlı eşşəklərin yarışı keçirilirdi. Bu "eşşək yarışı" Vənglidə məskunlaşmış erməni sakinlər üçün əyləncəli ənənəyə çevrildi. Niyə də olmasın, Ayrapetyan yarışın mükafat fondunu 2000 dollar müəyyənləşdirmişdi. Qazanan "eşşək" 2000 dollar mükafat alırdı.

Yəni, bir sözlə, Vəngli kəndi Levon Ayrapetyanın "kurasiyasında" idi, ona məxsus idi. Biznes sahəsində etdiyi saxtakarlıqlara görə 2014-cü ildə Rusiyada saxlanılan milyarder , 2016-cı ildə 700 min dollar vəsaiti mənimsəməkdə təqsirli bilinərək 4 il müddətinə azadlıqdan məhrum edildi.Dünyadakı erməni diasporunun 10 ən varlı fəalından biri hesab edilən Levon Ayrapetyan 2017-ci ildə oktyabrın 18-də cəza çəkdiyi Mordoviyadakı xüsusi rejimli 12 saylı əmək-islah düşərgəsində ölüb.

Bu Levon qalsın ölməyində , keçid edək Vəngli̇dəki tikililərə!

"Tsovin Kar" oteli - 1998-ci ildə tikilməyə başlayıb, 2000-ci ildə hazır olub. Erməni dilindən tərcümədə "Dəniz daşı" oteli deməkdir. Xaçınçayının sahilində yerləşən otel kompleksi dəniz səviyyəsindən 1031 metr yüksəklikdə dağlarla əhatə olunmuş ərazidə yerləşir. Kənd işğaldan azad etdildikdən sonra bizim biznesmenlər oteli yenidən bərpa edərək onu "Ağdərə Riverside otel" adlandırdılar. Otelinin yerləşdiyi ərazidə təbii şəraitdə formalaşmış 4 ədəd yeraltı bulaq yerləşir ki buda tam təbii bulaq suyudur.

Vəngli, sözün həqiqi mənasında, turizm üçün yaranıb.

Beləki, Riverside Ağdərə otelin ərazisində Ailəvi Vəngli İstirahət mərkəzi, otelin önündə dünya mətbəxinin yeməkləri hazırlanan Riverside Restoranı, həmcinin müasirliyi və tarixi özündə birləşdirən Gəmi restoranı , Balıq restoranı yerləşir.

Gəmi restoranının yarnma tarixi haqqında danışmamışdan əvvəl Riverside otelinin yaxınlığında qayadan oyulmuş məşhur aslan başından danışaq.

Beləki, otelin tam yanında, yəni otelə bitişik ərazidə qayaüstü aslan təsvirini də Levon biznesi gücləndirmək məqsədi ilə ora əlavə etdirir.

Aslan qaya heykəlini yaratmaq ideyası Levonun beynində 2006-cı ildə yaranır. Milyarder, erməni rəssam Aram Avaqyanı 2007-ci ildə aslan heykəli üzərində işləməyə sövq edir və arzusuna nail olur.

Aslan qaya təsvirindən təxminən 100 addım irəlidə isə Levon hardansa oğurladıqları, guya totemləri olan qartal heykəlini ucaltdırıb. Pis də alınmayıb. İstifadəçilərin sağlığına qismət!

Hə, indi gələk, ermənilər sevimli "Eklectica" oteli haqqında məlumatlara! Levon Ayrapetyan Qarabağda, xüsusən Vəngliyə maya qoymaqda davam edirdi.

O , 2007-ci ildə Qarabağda analoqu olmayan qeyri-adi gəmi restoran -otelin tikintisindən sonra dünyanın tanınmış şəxslərini həmin "Eklectica" otelə(Ermənilər ona "Titanik"də deyirdilər) dəvət edirdi.

Əslində bu Qeyri-adi dəniz memarlıq görünüşünə və unikal mebellərə malik bu üç mərtəbəli otelin ən maraqlı yeri bütün görünü ilə birgə zirzəmidəki "Van Qoq" restoranı idi.

2010-cu ilin payızında Ayrapetyanın dəvəti ilə tanınmış italyan müğənni Al Bano da Ağdərənin Vəngli kəndində həmin bu "Titanik"də konsert proqramı ilə çıxış edir. Soyuq hava şəraitində, fonoqram altında çıxış edən Al Bano bu cansıxıcı konsertinə görə, rusiyalı biznesmendən böyük məbləğdə qonorar alır. Qarabağ ermənilərinin hər il keçirdikləri eşşək yarışlarına da tamaşa edən Al Bano 2013-cü ilin sentyabrında Azərbaycan Xarici İşlər Nazirliyinin təxminən 300 nəfərdən ibarət "qara siyahısı"nda yer alır.( 2013-cü il dekabrın 18-də "Baku Crystal Hall"da İtaliya estradasının əfsanəvi ifaçıları "San-Remo festivalının ulduzları Bakıda" adlı konsert proqramı ilə çıxış ediblər. Al Bano da konsertdə çıxış edir)

Son olaraq: Bu fotonu alman fotoqraf Matthias Schumann 2007-ci ildə Dağlıq Qarabağda Vank kəndində çəkib. Deyilənə görə, bu da Levonun "başının altından çıxıb". Bu lövhəni gələn qonaqlara göstərib "qədim erməni xalqını" öyürmüş. Tualet divarına yapışdırılan maşın nömrələri ermənilər tərəfindən öldürülən, eləcə də, öz yurdundan məcburi köçkün düşən azərbaycanlılara məxsusdur. İşğalçı ermənilər bunu abidə kimi dünyaya fəxrlə göstərirdilər.

Bir sözlə, nə tökərsən aşına, o da çıxar qaşığına!











***P.S** Hazırda adını çəkdiyimiz inzibatı binalar və obyektlər dağılıb, istifadəyə yararsız haldadır. Bir gün "Ağdərə Riverside otel" kimi onların da yenidən təmir edilərək əhalinin istifadəsinə verilməsi reallaşar deyib, yazını da burada bitiririk!*

*Ümid edirəm, Vəngli̇ni ömürlərində görməyən soydaşlarımızda müəyyən bir təsəvvür yarada bildik, Vəngli̇ni az da olsa tanıda bildik!*

**Əntiqə Rəşid**

---

**Rüstəm Hacıyev**

# Trampın ümidləri uzun çəkməz



**Xəbər verildiyi kimi, ABŞ prezidenti Donald Trampın xüsusi nümayəndəsi Stiven Uitkoff, Ukrayna münaqişəsinin həlli ilə bağlı, Rusiya Federasiyasının prezidenti Vladimir Putinlə danışıqlar aparnaq üçün Moskvaya gəlib.**

**Putinin köməkçisi Yuri Uşakovun sözlərinə görə, Kremldə keçirilən görüş konstruktiv və səmərəli başa çatlb. Moskva Vaşinütona Ukrayna məsələsiylə bağlı bəzi siqnallar ötürüb və eyni zamanda Rusiya-ABŞ arasında münasibətlərin inkişafı perspektivləri müzakirə olunub.**

**ABŞ prezidenti Donald Tramp görüşün nəticələrindən ümidlənib. ABŞ prezidenti Truth Social sosial şəbəkəsində yazır ki: "Böyük "proqress" əldə olundu. Mən, əldə olunan nəticələrlə bağlı bir sıra avropalı tərəfdaşlarımızı məlumatlandlrdım. Hamı razıdır ki, bu müharibə sona çatsın və biz, yaxın günnlərdə, yaxın həftələrdə bunun üzərində çalışacağıq".**

**Hələlik görüşün detalları açıqlanmasa da, şübhə yoxdur ki, Rusiya prezidenti atəşin dayandırılması üçün, daha əvvəllərdə irəli sürdüyü tələblərin yerinə yetirilməsini istəyib. Yəni, İşğal etdikləri Krımın və dörd vilayətin Rusiyanın əraziləri kimi tanınması, İşğal edilmiş və artıq Rusiyanın ərazilərinə daxil edilmiş vilayətlərin Ukraynanın əlində qalan parçalarınln da Rusiyaya verilməsi, Ukrayna silahlı qüvvələrinin faktiki olaraq tərksilah edilməsi, Ukraynanın heç vaxt NATO-ya qəbul edilməməsinə zəmanət verilməsi və s. "sərsəmləmələr".**

**Təbii ki, Ukrayna Rusiyanın faktiki olaraq təslimçilik tələbləriylə heç vaxt razılaşa bilməz. Belə bir vəziyyətdə ABŞ prezidenti Donald Trampın bu görüşdən məmun qalması, görüşün səmərəli olduğunu bəyan etməsi, ən azından təcüb doğurur. Ya da, Tramp Putinə verdiyi 10 günlük müddətin bir azda uzanmasını sığortalamaq istəyir.**

**Çünki, Trampda başa düşür ki, Ukraynanın Rusiyaya tıəslim olması, Putinin əl-qolunu açıa və imperiya xəyyallarının gerçəkləşdirməsinə ruhlandıra bilər.**

**Rusiya prezidrşentinin Trampın xüsusi nümayındəsinə verdiyi vədlərin yerinə yetirmıyəcəyi gün kimi aydındlr. Rusiya prezidentinin son onillərdə-"Rusiya heç vaxt Krımı almayacaq", "Ukraynaya hücum etmıyəcək", "Kremlin imperiyanı bərpa etmək niyyəti yoxdur" və s. bu kimi bəyənatlarlnın son nəticələri hazırda göz qabağındadır. Bundan baçqa son vaxtlar solovyovlar, skabayevalar, simonyanlar, tolstoylar və nəhayət onlra yeni qoşulan mixalkovlar kimi şivinist ruporları vasitısiylə keçmiş postsovet respublikalarını açıq təhdit etməsi də, onun mənfur niyyətlərindən xəbər verir...**

***P.S...** **Putinin köməkçisi Uşakov, Putinin Uitkoffla danışıqlarının detallarının, ABŞ prezidrnti Trampa məruzə edildikdən sonra açıqlanacağını bildirib. Gözləyək görək, Tramp nədən məmun qalıb?..***

***P.S.S...** **Bu arada, New York Times, mənbələrinə istinad edərək yazlr ki, Tramp gələn həftə Putinlə görüşəcək...***

---

## *Bayraktar: "Türkiyəyə bütün enerji resursları Zəngəzur dəhlizi üzərindən ötürüləcək"*



**"Yaxın zamanda Türkiyəyə bütün enerji resursları Zəngəzur dəhlizi üzərindən ötürüləcək və logistik yollar birləşdiriləcək".**

Adalet.az xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Türkiyə-Suriya qaz boru kəmərinin açılış mərasimində Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar deyib.

O bildirib ki, hazırda Azərbaycandan Türkiyəyə elektrik enerjisi Gürcüstan ərazisindən keçməklə ötürülür. Onun sözlərinə görə, Orta Asiyada yerləşən digər enerji mənbələri və logistik marşrutlar Azərbaycan üzərindən Türkiyəyə, oradan isə Avropaya çatdırılacaq. Nazir vurğulayıb ki, Azərbaycandakı təbii sərvətlər - neft, qaz, bununla yanaşı, elektrik enerjisinin Türkiyəyə ixracı ilə bağlı bütün layihələr birgə icra olunur. Bu istiqamətdə mühüm irəliləyişlərin olduğunu diqqətə çatdıran Bayraktar deyib: "Bu günədək həyata keçirilən layihələrə misal olaraq Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kəmərləri, eləcə də Naxçıvan-Türkiyə elektrik interkonnektorunu qeyd edə bilərəm".



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# HEYİF SİZDƏN, ƏNVƏR MÜƏLLİM!

**Avqust 2-də səhər saatlarında Ənvər Seyidovun sürücüsü işləmiş Samir dostumuz mən zəng elədi. Həyəcanlı səsindən o dəqiqə hiss etdim ki, nə isə üzücü bir xəbər var! Arada səsi yaxşı eşidilmədi. Ürəyimə damdı ki, Ənvər müəllimin səhhətində çətin vəziyyət yaranıb. Sonra sözünün ardını gətirdi və dedi ki, Ənvər müəllim rəhmətə gedib!!! Son vaxtlar dostlarımla bağlı belə üzücü xəbərləri tez-tez alıram... Və artıq ürəyimin dərd yükü bu dərdlərə tab gətirmir. Gözümüzü yaşı da quruyub...**

**Və beləcə kədərin, dərdin içində boğuluruq. Mən Ənvər Seyidovu Ali Məhkəmənin hakimi olanda tanıyırdım. Və bir dəfə elə oldu ki, 1992-ci ildə bir cinayət işi ilə əlaqədar qəzetimizə vətəndaş müraciət etmişdi. Mən də onun ərizəsini araşdırmaq üçün bu işlə məşğul oldum. Aydınlaşdı ki, həmin cinayət işinin məhkəmə istintaqını Ali Məhkəmənin hakimi Ənvər Seyidov aparır. Prosesdə iştirak elədim.**



**Düz bir aydan çox məhkəmə istintaqı davam elədi. Sonda da Ənvər müəllim ədalətli qərar çıxardı. Və şikayətçi də qəzetimizdən, məndən və Ənvər Seyidovdan çox razı qaldı!**

**Bu hadisədən sonra Ənvər müəllimlə bizim dostluğumuz başladı və dünyasını dəyişən günə qədər dostluğumuz davam elədi...**

**Zarafat deyil, biz onunla düz 33 ildir ki, dost idik. Gözəl ailəsi, övladları var. İki oğlu, bir qızı onun onun başını həmişə uca ediblər. Oğlanları hüquq elmləri namizədi, qızı tibb elmlər namizədidir. Ənvər müəllim özü də hüquq elmləri doktoru, Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru idi. Bakı Ağır Cinayətlər Məhkəməsində təqaüdə çıxandan sonra adını çəkdiyimiz ali təhsil ocağında hüquq fənnindən dərs deyirdi.**

**Özü də o dərsləri o qədər gözəl aparırdı ki, tələbələri böyük həvəslə onun növbəti mühazirəsini gözləyirdilər. Mənim nəvəm də Ənvər müəllimin tələbəsi olmuşdu...**

**Və həmişə də onun tələbələrə olan böyük sevgisindən danışıb. Nəvəm deyir ki, Ənvər Seyidov kasıb və imkansız tələbələrə böyük qayğı göstərirdi. Ənvər müəllim hər adamı evinə dəvət eləməzdi. Amma məni evinə dəvət edirdi, süfrə açdırırdı, yedirtməsə, içizdirməsə rahat olmazdı. Evlərinin həyətinə gələndə Samir deyərdi ki, Faiqi evə gətir. O, kəsdiyi düz-çörəyə və dostluğa çox sədaqətli idi... Alicənab, gözəl xasiyyətli həyat yoldaşı vardı: Aybəniz xanım! Və Aybəniz xanım rəhmətə gedəndən sonra Ənvər müəllim uzun müddət özünə gələ bilmədi, sarsıldı. Həmişə də mənə və dostlarına deyərdi ki, həyat yoldaşınızın qədrini bilin, onların yerinə heç kim verə bilməyəcək!**

**Ənvər müəllim tək hüquqşünas, hakim kimi deyil, həm də şair kimi, yazıçı kimə də ölkəmizdə böyük nüfuz sahibi idi. Onun neçə-neçə şeirinə gözəl mahnılar bəstələnib və həmin gözəl mahnılardan birini də Xalq artisti Flora Kərimova ifa edir. O, altı romanın, bir neçə povestin və televiziya tamaşalarının müəllifidir. Bu televiziya tamaşalarını da Az.TV-nin məşhur rejissoru, rəhmətlik Məhərrəm Bədirzadə çəkib. Onun ”Təlatüm” , ”Gürzə”, ”Ünvansız eşq” və başqa romanları oxucular tərəfindən böyük sevgi ilə qarşılanıb... Ənvər müəllim öz adını nəvəsinə qoymuşdu və balaca Ənvər də bal kimi şirin uşaqdı.**

**Qanının ən qara vaxtında, canı ağrıyanda o uşağı qucağına alar və bir az keçəndən sonra qanı durular, ağrısı azalardı... Ənvər Seyidov Azərbaycan məhkəmə sistemində öz nüfuzu və böyük hörməti olan hakimlərdən idi. Öz alicənablığı, ağayanalığı, sadəliyi və səmimiyyəti ilə həmişə yadda qalıb. Onun ölümü hüquq aləmində deyil, həm də cəmiyyətimiz üçün böyük itkidir. Çünki o həmişə imkansız, ehtiyac içində olan insanlara arxa durub! Heyif sizdən Ənvər Seyidov! Həmişə yeriniz görünəcək, gözümüz sizi axtaracaq!!!**

## *Evlər niyə bahalaşır?*



**Son vaxtlar Bakıda mənzil bazarında bahalaşma gedir. Özü də bu bahalaşma yüksək sürətlə davam edir.**

Heç şübhəsiz ki, bahalaşmanın obyektiv və subyektiv səbəbləri var. Bu səbəblər aydınlaşdırılanda məlum olur ki, bir çox halda ev biznesi ilə məşğul olanlar bəzi hallarda bahalaşmanı süni surətdə yaradırlar. Amma mənzil üzrə ekspert Arif Həsənov deyilən fikirlə razılaşmır. Və o, tələb , təklif məsələsini gündəmə gətirir. Bildirir ki, elə Bakının özündə sayı- hesabı bilinməyən evlər inşa edilir.

Evlər də , çoxdur, alıcılar da! Sadəcə hamı istəyir ki, aldığı mənzil yaxşı və ucuz olsun. Təbii ki, bu da mümkün deyildir.Çünki tikinti bazarında inşaat materialları da bahadır. Bax , bu da evlərin qiymətinin yüksəlməsinə səbəb olan əsas səbəblərdəndir. Məsələnin bir tərəfi də ondan ibarətdir ki, yeni tikilən binalarda( el dilində buna ” novosrtoyka” deyirlər) qiymətlər daha bahadır.

Belə ki, əksər insanlar bu mənzillərə maraq göstərirlər.İpotekadan çox insanların istifadə edərək ev alması bir neçə aydan sonra mənzil bazarında bir qədər də bahalıq yaradacaq! Bu isə o deməkdir ki, canlanma hiss olunacaq, bir çox insanlar yeni bahalaşmaya qədər mənzil almağa tələsəcəklər!

## *Tikinti materiallarını yola yığıblar*



**Çox qəribədir ki, Bakıda bəzi tikinti malları satan mağazalar onları səkinin düz ortasına yığırlar. Bu isə həmin səkidə hərəkət edən insanların böyük narazılığına səbəb olur. Əlbəttə, belə tikinti materiallarının satışı, həm də, küçə ticarəti deməkdir.**

Bu qanunsuzluğa qarşı icra hakimiyyətləri, o cümlədən polis mübarizə aparmalıdır. Ədalət naminə deyək ki, adını çəkdiyimiz qurumlar da çox vaxt üzərlərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlirlər. Amma bəzən görürsən ki, yenə küçə ticarətində neqativ hallar baş verir. Məsələn, Yeni Günəşlidən Göhnə Günəşliyə gedərkən yolayrıcına az qalmış solda inşaat materialları mağazası var.

Tikinti materiallarının bir hissəsi mağazadan çıxarılıb, düz səkinin ortasına yığılıb. Bu isə birmənalı olaraq qanun pozuntusu, küçə ticarəti deməkdir. Həmin səki ilə hərəkət eləmək istəyən piyada istər- istəməz avtomobil yolunun hərəkət hissəsinə çıxacaq! Bəs bu, nə deməkdir? Bu , o deməkdir ki, piyadanı yola çıxarkən hər an avtomobil vura bilər.

Onsuz da Bakıda biz tez- tez piyadavurma hadisələrinin baş verməsini eşidirik! Qanunu pozub küçə ticarəti ilə məşğul olan, eləcə də piyadaların hərəkəti üçün təhlükə yaradan bu tikinti materiallarının mağazası mövcud nöqsanları aradan qaldırmalıdir. Eyni zamanda küçə ticarətinin qarşısını almalı olan icra orqanları da qanunu puzduğuna görə, tikinti materialları mağazasını inzibati məsuliyyətə cəlb etməlidir!

## *Bəzi sürücülər qaydaları pozmaqda...*



**Hər gün Bakıda və respublikamızın avtomobil yollarında ölümlə nəticələnən ağır yol-nəqliyyat hadisələri baş verir.**

Təbii ki, bu da yol polisini , eləcə də, ictimaiyyəti narahat edir. Deməli, buradan belə bir məntiqi nəticə çıxır ki, hələ də bəzi sürücülər yol hərəkəti qaydalarını pozmaqda davam edirlər. Heç şübhəsiz ki, bu cür qayda pozuntular sonda xoşagəlməz hadisələrlə nəticələnir! Ona görə, Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin əməkdaşları hər cür qayda pozuntularına qarşı qabaqlayıcı tədbirlər həyata keçirir. İdarənin Yol Patrul Xidməti Alayının beşinci tağımının əməkdaşları xidmət apardıqları küçə və prospektlərdə davamlı olaraq kobud qayda pozuntularına yol verən sürücülərə qarşı sərt mövqe tuturlar.

Onlar sərxoş və avtoxuliqanlıq edən sürücüləri tez bir zamanda dayandırır və barələrində qanunamüvafiq ölçü götürürlər. Beşinci tağımının komandiri, polis mayoru Nurlan Əliyev deyir ki, havaların çox isti keçməsinə baxmayaraq, biz öz vəzifə borcumuzu məsuliyyətlə yerinə yetiririk.Öncə istər kobud qayda pozuntularına və digər qanunu pozanlara qarşı ciddi tədbirlər görürük.

Sərxoş və avtoxuliqanlıq edən sürücülər at oynada bilmirlər.Və bir də biz sürücülərin daim maarifləndirilməsini ön plana çəkirik.Səmimi söhbətlər və isti münasibətlər öz müsbət nəticələrini verir. Ancaq özündən razı , təkəbbürlü sürücülərlə qanunun sərt dili ilə danışırıq! Bir daha sərxoş və avtoxuliqanlıq edən sürücülərə xəbərdarlıq edərək deyir ki, onlar bu yoldan çəkinsinlər və yol hərəkəti qaydalarına əməl etsinlər. Əks - təqdirdə belələrinə heç bir güzəşt olmayacaq, arxalarında kimin dayanmasında asılı olmayaraq, saxlanılacaq və məsuliyyətə cəlb ediləcəklər!!!

## *Mənim avtomobilim Şəbnəmkindən, Nəfəsinkindən bahadı...*



**İndi səsi olmayan və oxuya bilməyən müğənnilər özəl televiziya kanallarında at oynadırlar.**

Çünki pulları var, bütün qapılar onların üzünə açıqdır. Özəl televiziyalara isə sənət yox, pul lazımdı...Və beləleri də həmin kanallara pul verib, saatlarla ağızlarına gələni oxuyur və danışırlar.

Oxuduqları mahnıların nə sözləri, nə musiqisi, nə də ifaları yönnüdü... Bir neçə gün bundan əvvəl ” Xəzər TV” nin ” Həmin Zaur” proqramında efirə çıxan və heç bir istedadı , səsi , ifası ilə diqqəti cəlb etməyən və ancaq görünüşü , danışığı ilə tamaşaçıları təəccübləndirən Canan( əsil adı Gülnar) deyir ki, mənim avtomobilim Şəbnəminkindən, Nəfəsinkindən bahadır.

Biz görmüşük ki, mügənni səsi və yeni ifaları ilə yadda qalır. Amma belə müğənnilər masını və bahalı evləri ilə yadda qalmaq istəyirlər. Və bir də həm Şəbnəm, həm də Nəfəs( ifaları mənim xoşuma gəlməsələr də) Canandan daha yaxşı müğənnidirlər.

Eləcə də, hər iki ifaçı kütlə tərəfindən sevilir.Bax belə! Kimi tamaşanın yaddaşında gözəl səsi və ifası ilə yadda qalır, kim də boş- boş danışıqları ilə. Və bir də indi efirləri zəbt edənlərin 90 faizi 10 ildən sonra yaddan çıxacaq!!!

## *İsti günlərdə ayda bir dəfə...*



**İsti yay aylarında- iyun, iyul, avqust aylarında Bakıda ağacların susuzluqdan yanıb- quruması heç kimə sirr deyil. Dünyanın isə yaşıllıqlara, gözəlliklərə böyük ehtiyac var. Və bir şəhərdə, qəsəbədə , kənddə o yaşıllıqlara xidmət etmək , qorumaq müəyyən qurumların vəzifə borcudur!Amma indi, gəlin görək, o qurumlar bu vəzifənin öhdəsindən gələ bilirmi?**

Təbii ki, bu suala birmənalı cavab vermək mümkün deyil. Amma gəlin onunla razılaşaq ki, yaşıllıqlara xidmət edən, onu qoruyan bir neçə qurum var: yaşıllaşdırma idarələri, icra hakimiyyətləri, mənzil kommunal təsərrüfatı birlikləri və bələdiyyələr! Yeni Günəşlidə baxımsızlıq üzündən küknar, çinar, zeytun, söyüd ağacları quruyur.

Hansı ki, adını çəkdiyimiz bu qurumlarda nə qədər adam işləyir və dövlətdən hər ay yüksək maaş alırlar.Heç olması yay aylarında bir dəfə o ağaclara suyu maşınlarla gətirməklə həmin ağacları suvarmaq olar və onların qurumasının qarşısını almaq mümkündür. Qaraçuxur Bələdiyyəsi hər nə qədər əmlak vergisi yığır. Bir dəfə olsun belə bu bələdiyyə bir yeni təşəbbüslə çıxış edib abadlıq işləri görməyib.

Ən azından Yeni Günəşlidəki ağacları yay aylarında suvarıb , qorumaqdan xilas etmək olar. Bir adam dəfələrlə Qaraçuxur Bələdiyyəsinə sədr seçilib. Görəsən, hansı işinə görə?Əgər bələdiyyə qəsəbənin bir abadlıq işinə, bir yaşıllığına kömək etmirsə, bu qurum və kimə və nəyə lazımdır! Üstəlik də o yığılan pullar hara və kimin cibinə axır? Görünən odur ki, isti yay günlərndə baxımsızlıq üzündə su verilmədiyini görə , yaşıllıqlar quruyur! Və belə getsə, bundan sonra da quruyacaq!!!

## *Bişmiş toyuğun gülməyi gəlir...*



**İndi yerindən duran ya politoloq olur, ya sosialoq olur, ya da müxtəlif sahələr üzrə ekspert.**

Burada qəribə heç nə yoxdu. Qəribə odur ki, bu adlarla televiziyalarda, sosial şəbəkələrdə, KİVlər də çıxış edənlərin heç də hamısı savadlı deyil və danışanda o dəqiqə hiss edirsən ki, savadlı deyil, ağızlarını sanki əriştə yandırıb. Nə nitq qabiliyyətləri var , nə də fikiri aydın ifadə etmək qabiliyyətləri. Amma haçan televizora baxırsan çox vaxt onları görmək olar.Eləcə də müxtəlif sahələr üzrə ekspertlər. Təhsildən xəbəri olmayan adamı təhsil üzrə ekspert kimi təqdim edirlər.

Ağızlarını açan kimi bilərsən ki, bu adam heç nə bilmir və sahədə ” piyadadır”. Bax belə ”ekspertləri” görəndə bişmiş toyuğun gülməyi gəlir! Bir çox halda biz jurnalistlər belə savadsız adamları məşhurlaşdırırıq. Və onlar da məşhurlaşandan sonra gözləri ayaqlarının altını görmür və yekəxanalıqlarından yerə - göyə sığmırlar!

**EMİL FAİQOĞLU**





**2021-ci il dekabrın 1-də Azərbaycanın Xankəndi şəhərində erməni əsilli Rusiya rəssamı İvan Ayvazovskinin ( Ovannes Ayvazyan) ”Rusiya şöhrət xiyabanı” layihəsi çərçivəsində qanunsuz şəkildə separatçılar və Rusiya sülhməramlıları tərəfindən heykəli ucaldıldı.**

Əntiqə Rəşid

# Bəlkə, ermənilər nə vaxtsa "adam" oldu, Zatulin, əsla!

2025-ci il İyulun 29-da Xankəndidə erməniəsilli rusiyalı rəssamın abidəsi söküldü.

Azərbaycan dövlətinin icazəsi olmadan Azərbaycan ərazisində nəinki abidə ucaltmaq hətta daşı- daş üstünə qoymaq əxlaqsız bir hərəkətdir. Sözüm söküntüdən narazı qalan Rusiya və Ermənistan hökümətlərinədir.

Üstəlik hazırda səsini başına atıb Azərbaycanı günahlandıran Rusiya Dövlət Dumasının üzvü, ermənipərəst Konstantin Zatulin qətiyyən sakitləşmək bilmir. Ermənidən betər erməni olan bu zat Lenta.ru-ya bildirib ki, Azərbaycan hökuməti gərək rəssamın ad günündə onun heykəlini sökməməliydi ( 29 iyul 1817):

”Bunun vəhşilik olması ilə yanaşı, bir çox vəhşiliklər kimi, bu, açıq şəkildə axmaqlıqdır. Aivazovski hamı tərəfindən tanınan, təkcə bizim Rusiya İmperiyasında deyil, bütün dünyada yüksək qiymətləndirilən rəssamlıq dahisidir. Ermənilərə qarşı döyüşən o ”şanlı” döyüşçülər, bu gün Qarabağ respublikasının ərazisini idarə edənlər, Qarabağ respublikasının mədəni təsirinə məruz qalmışlar. Onlar təkcə Aivazovskinin abidəsinin sökülməsi ilə kifayətlənmirlər, onlar artıq Çardaxlı kəndindən olan məşhur sovet hərbçilərinin abidələri-ni( İvan (Hovannes) Baqramyan Şəmkir rayonu Çardaxlı kəndindəndir. Abidəsi Qarabağdan sökülüb ) sökməyə nail olublar və çoxlu sayda xaçkarı məhv etməklə dini abidələrin sökülməsinə başlayıblar”. İndi orada- Moskvada heç kimin şüuru o səviyyədə deyil ki, soruşsun: Zatulin, sənin hökumətin özgənin torpağında istədiyini edəndə, erməniyə abidə ucaldanda ”çox vəhşiliklər kimi, bu, açıq şəkildə axmaqlıq” deyildimi?







Ayvazovski böyük rəssamdır, dünya tanıyır, apar onun heykəlini Rusiyanın istənilən bucağında ucalt, mane olsaq, səndən də səviyəsizik!

Xatırladaq ki, milyonçu Alek Manukyanın, 31 mart soyqırımının baiskarı Stepan Şaumyanın, erməni pilot Nelson Stepanyanın, erməni ideoloqu , faşist Qaregin Njdenin, ermənilərin Qarabağda döyüşmüş ” qəhrəmanları Vazgen Sarkisyanın, Monte Melkonyanın, Aşot Bekorun, Fransada yaşayıb yaradan, milyonçu müğənni Şarl Aznavurun heykəlləri işğal dövrünün layihələri olduğu və Azərbaycan dövlətinin icazəsi olmadan tikildiyi üçün tarixin zibil yeşiyinə atılıb. Erməni mediası nə qədər hay-küy salsa da, konkret olaraq bununla bağlı heç bir ölkə bizim ölkəmizə nota, bəyanat və s. xəbərdarlıq etməyib.

Qaldı ki, adı 2 dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovu məkrli şəkildə öldürülməsində hallanan, əsl adı Hovannes olan, Şamaxıda dünyaya göz açan Sovet İttifaqı marşalı, 2 dəfə Sovet İttifaqı Qəhrəmanı İvan Baqramyanın heykəli işğal illərində Xankəndidə ”bitir” . Onda niyə ermənilərə ”vəhşi və axmaq” demirdin?

Baqramyan xislətçə digər məşhur ermənilərdən heç nə ilə seçilmədiyini hamı bilir... Kefin çəkirsə, apar Baqramyana da Rusiyada heykəllər ucalt!

**Qeyd edək ki, hələ 2022-ci ildə Zatulin Ermənistanda ”persona non qrata” elan edilib. Yəni onu Ermənistana girişinə qadağa qoyulub. Çünki rusiyalı deputat Zatulin öz müsahibələrində birində 44 günlük müharibədəki məğlubiyyətdə Ermənistan hakimiyyətini ittiham etmişdi.**

*Məzahir ƏHMƏDOĞLU*

# İLĞIM



**Hərdən az da olsa qəzet köşklərinin, buna bənzər qurğuların qarşısında tünlük görüb əvvəlcə sevinirəm, daha sonra təəccüblənirəm. Çoxdanın qəzetçisiyəm axı... Yadıma keçmişlərdəki qəzet almaq üçün sıralanmış növbələr düşür. Xəyal qanadlarında keçmişə səyahət bəzən doğrudan belə əlamətdar olur. Ancaq təəccüb həm də tərəddüd yaradır. Sənin jurnalist nostaljin , jurnalist arzuların miraja dönərək də əlçatmaz olur, tərs kimi son vaxtların bu səhra havasında susuzluqdan yanan ciyərlərin də o qəzetlərə ... üzr istəyirəm, o bulağa yetişə bilmir.**

**Vallah mövzum başqadır. Ancaq bəzi peşəkarların da naşılara, ”özündənjurnalistlərə” qoşularaq mətbuatı pis günə qoymasına da dözmək olmur. Dövlətin bu qədər qayğı və diqqətinin əvəzində ...**

**... O dediyim tünlük də həqiqətən elə mirajdır. Ancaq o gerçək miraj kimi getdikcə çata bilmədiyin oazis də deyil. Əksinə lazım gəlsə özü sənə yaxınlaşar, özü səni qucaqlayar, özü səni... Ey kasıb!**

**Axı bu, ” Azərlotoreya” adlı Qafqaz dağı boyda Əjdahanı sənin son manatlarınla doydurmaq üçün qurulmuş oyundur!**

**”Poz-qazan”! Sən də ”Qızıl kərpicləri”, ”Göz muncuqlarını”, ”Bombardirləri”, ”Sür qazanları” ( ???) , ”Beşdə-beşləri ” ... Off, nəfəsim qaraldı! Yazıq sənin halına da , ey kasıb! Sənə dedimmi sevmə, ey ...üzr istəyirəm , alma, pozma ” bircə xal yandırdı ” deyib , növbəti ”pozmaqlığın” tələsinə düşmə ? Demədim? Hələ bir ”Alıbəy fenomeni” ! Xatırlamırsan? Bəs Aqil Abbasın yazdıqlarını necə? Açıq yazırıq, təmsilləşdiririk, sarkazmla aydırırıq- xeyri yoxdur! Yenə də balalarının boğazından kəsib Əjdahanı yemləməyə tələsirsən. Elə bilirsən ki bu Əjdaha bir gün insafa gəlib, ona verdiklərin qurbanların əvəzini qaytaracaq. Xeyr! Ağzında Əjdaha deyirsən, o belə səhv iş tutmaz .İş tap özünə...**

**... Həm də bax gör bircə nəfər də olsa varlı adam taparsanmı yan-yörəndə. Həm də bircə nəfər görmüsənmi yüksək məbləğ cəhənnəm, heç olmazsa 5000, 10000, 25000 manat udmuş olsun.Sənin yüz minlik, beş yüz minlik illuziyalarını da hələ qoyaq bir kənara.**

**Təkrar soruşuram, yaxşı xatırla, indiyədək ”poz-qazan” alan bircə nəfər varlı adam görmüsənmi, eşitmisənmi? Yoxdur belə fakt! Varlı ona görə varlıdır ki, hər manatının qədrini bilir. İstər halal yolla olsun, istər hər necə...**

**Kasıb qardaşım, incimə məndən. Əgər inciməyib mənə qulaq assan, sənə başqa məsələlərdən də danışaram. Elə öz başıma gələnlərdən... Amma indi yox, başqa bir vaxt . Çünki sənə əvvəlcə Tamadanın hansı yollarla gəlib başa çıxmağı, hökm verən olmağı haqqında pritçamı oxuyacağam. Səbrli ol, tələsmə...**

## *Kənd qeydiyyatında olan uşaqlar şəhərdəki məktəblərdə təhsil ala bilərmi?*



**Kənd qeydiyyatında olan uşaqları şəhərdəki məktəblərə qoymaq mümkündür.**

Adalet.az xəbər verir ki, bunu MÜTDA-nın Ümumi təhsilin təşkil şöbəsinin aparıcı məsləhətçisi Aidə Əsgərli MÜTDA-nın canlı yayımında deyib.

O bildirib ki, ilkin qaydada prioritet tətbiq edilən məktəblər var idi, bu vaxtı qeydiyyat ünvanı əsasında qəbul həyata keçirilirdi.

”Yəni qeydiyyatdan keçən uşaq və ya valideyinin qeydiyyat ünvanı, seçilən məktəbin ünvanı ilə üst-üstə düşməli idi. İndiki qaydada isə bu sərbəst qaydada həyata keçirilir. Boş yer olduğu halda valideyin daxil olub həmin məktəb üçün sorğusunu yerləşdirə bilər”,- deyə o əlavə edib.

# Gözünüz aydın, köçkünlər "zəbt etdikləri mənzili "özləri ilə aparmadılar

**Deməli, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən Trend-ə məlumat verilib ki, bu günədək işğaldan azad edilmiş ərazilərə başqa vətəndaşa məxsus mənzildə müvəqqəti məskunlaşmış 188 ailə (676 nəfər) köçürülüb.**

Dübarə bildirilib ki, işğaldan azad edilmiş ərazilərə ilk növbədə qəzalı və ağır şəraitdə, yataqxana, sanatoriya, yarımçıq tikililər kimi müxtəlif müvəqqəti məskunlaşma obyektlərində, eləcə də başqasına məxsus mənzildə müvəqqəti məskunlaşmış keçmiş məcburi köçkünlər köçürülür.

Bunu niyə yazdım? Çünki tam 5 ildir ki, Azərbaycan seqmentinin sosial şəbəkələrində köçkünlərə qarşı qarşısıalınmaz bir aqressiyanın çoxumuz şahidi olmuşuq. Bəzi ”vətəndaşlıq, soydaşlıq” hisslərindən bixəbərlər ”torpağınız alındı, niyə çıxıb öz yurdunuza getmirsiniz?” deyib arxasıncada töhmətlə ” bunlar torpağı erməniyə verib gəliblər ki, Bakıda rahat yaşasınlar, palçıqdan, mal-heyvandan qaçıb yaxaların qurtarıblar, geri çətin qayıdalar” deyib onsuzda 30 ildir əlimizdən getmiş səbrimizi zorlayır, bizi təxribata çəkirdilər. Sanki biz yurdumuzu könüllü qoyub gəlmişdik, sanki biz Bakıya kef dalınca gəlmişdiq, sanki biz qarabağlılar erməni- rus ordusunun , terror-çu-separatçı dəstələrin qarşısında 5 il (1987-1993-cü illər) ailəlikcə, doğmalarımızla dözüş gətirməmişik.Sonunda anladıq ki, ordusu pərən -pərən olmuş, komandirləri qəsdlə öldürülmüş, əsgər və zabit-



ləri tələyə salınmış, uduzdurulmuş , parçalanmış ordu olmadıqdan sonra əliyalın xalqın qaçmaqdan başqa çarəsi qalmadı. Ölümdən də qaçmadıq haa, sırf Xocalı faciəsindəki kimi başımıza gətiriləcəklərdən qorxduq... Bu şərtlərin altında, yerimizi-yurdumuzu, doğmalarımızı itirdikdən sonra bir təhər hərə bir tərəfdə daldalandı. Heç bir köçkün gedib heç kəsi döyüb evdən çıxardıb, evə basqın etməyib. Sadəcə boş evlərə giriblər.

Və elə o gündən xalq 2 hissəyə ayrıldı: Yerlilər və nəcə deyərlər ”qaşqınlar”...

Dəfələrlə belə mənasız mübahisələrdə iştirak etmişəm. Qarşıdakı insanı başa sala bilməmişəm ki, köçkün öz yurduna döndükdən sonra ev yenə də sənindir. Axı, 30 ildir ayaq döydüyünüz məhkəmələrimiz də mən deyəni deyirdi. Hələ 3 il əvvəl Suraxanı rayonu, Qaraçuxur qəsəbəsi 40-42 -60 məhəlləsi, bina 45 ünvanında mənzilləri olan, amma köçkünlər tərəfindən zəbt edilən 70 sakininin harayı respublika ilə bir olmuşdu.

İndi evi özünə qayıdan 188 ailəyə burdan ”gözünüz aydın olsun” deyirəm. Amma , vallah qara-qışqırığa ehtiyac yox idi, köçkünlər yurduna dönəndən sonra ev yenədə sənindir.

SONDA: Ay mənim gözəl millətim, gözəl xalqım! Vallah, düz 33-34 il əvvəl köçkün özbaşına, kefindən Bakıya gəməmişdi ki, indi də özbaşına Bakını tərk eləsin, sizin sözünüzlə”yurduna getsin”! Allah haqqı köçkün özbaşına deyil! Nə vaxt əlaqədar dövlət orqanları ”yığışın” deyəcək, onda da yığışıb gedəcəklər öz yurdlarına.

**Uzun sözün qısası, münaqişəyə, davaya, acı söz deyib qəlb qırmağa çalışmayın.**

Əntiqə Rəşid

## *Zelenski: Ukrayna Rusiya ilə dövlət başçıları səviyyəsində danışıqlara hazırdır*



**”Biz Rusiya tərəfinin bəyanatları ilə tanışıq. Əgər bu, müharibəni davam etdirmək və sanksiyalardan yayınmaq üçün vaxt qazanmaq yox, müharibəni dayandırmaq istəyi və dayanıqlı sülhün bərqərarı istiqamətində siqnaldırsa, Ukrayna istənilən vaxt dövlət başçıları səviyyəsində danışıqlara hazır olduğunu növbəti dəfə təsdiqləyir”.**

Adalet.az xəbər verir ki, bunu Ukrayna Prezidenti Volodimir Zelenski ”Telegram” hesabında yazıb.

”Biz Rusiyada qərarları kimin qəbul etdiyini və müharibəni məhz hansı şəxsin dayandırmalı olduğunu anlayırıq. Bunu tək biz yox, bütün dünya bilir. Ukrayna bəyanatlardan və texniki xarakterli görüşlərdən liderlər səviyyəsində danışıqlara keçidi məqbul sayır. ABŞ da bu təklifi edib, biz isə dəstəkləmişik. İndiki mərhələdə Rusiyanın buna hazır olması tələb olunur”.

O eyni zamanda ABŞ Prezidenti Donald Trampın müharibənin başa çatdırılması və sülhün əldə edilməsi üzrə səylərini dəstəklədiyini vurğulayıb.



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# ƏDƏBİYYATIN ƏBƏDİ ADAMI

**Yazmaq çox çətindir, lap çox çətin. Nə hava ilə bağlı deyil, nə söz qıtlığı ilə, nə də yazmaq imkanı ilə. Bu, yaşadığımla, indi içində olduğum ovqatla bağlıdı. İnana bilmirəm yaşadığıma, barışa bilmirəm ovqatımla, razılaşmıram fələklə. Çünki...**

Həyatımda özəl yerləri olan və mənim yazı-pozu dünyasında öz yerimi tutmaqda məsləhəti ilə, diqqəti ilə, qayğısı ilə səbəb olan bir neçə nəfər var ki, onlar hər zaman, elə onda da, indi də, yəqin ki, sabah da mənimlə olublar və olacaqlar. İlk əl tutanım, yol göstərənim mərhum redaktorum Əlisəfa Məmmədov olub. "Təşviqatçı" jurnalında ştatdankənar müxbir, sonra müxbir kimi fəaliyyət göstərmişəm. Kənddən gələn bir uşaq tələbə ola-ola bu jurnalda imzasını tanıdıb oxucusuna. Nüsrət Kəsəmənli - bir ürək, bir ailə dostluğu yaşamışam onunla. Gənc bir şairi iştirak etdiyi əksər görüşlərdə yanında tutub. Ona da söz verib... Məcnun Namazəliyev - Füzulidə "Araz" qəzetində yaradıcılıq yoluma yaşıl işıq yandırdı. Özü də böyük ürəklə. Sonra barəmdə Xalq şairi Bəxtiyar Vahabzadə, böyük ədəbiyyat adamları, yaşıdlarım, həmkarlarım, dəyərli tənqidçilərimiz fikirlər söylədilər.

Bütün bunlar ömrümün ayrı-ayrı seçilən və heç vaxt unudulmayan məqamlarıdı. Ancaq son illərdə mənimlə bağlı, daha doğrusu, yaradıcılığımla bağlı Azərbaycanın iki dəyərli ziyalısı, ədəbiyyatşünası, yazıçısı, alimi böyük səxavət, həm də böyük diqqətlə yazılar yazdılar. Onların biri Elçin Əfəndiyev, digəri isə Kamal Abdulla idi.

Mən bu xatırlatmanı ona görə edirəm ki, avqust başlayar-başlamaz sözümüzə, ədəbiyyatımıza, mədəniyyətimizə, ictimai həyatımıza əli baltalı gəldi. Və ədəbiyyatımızın, sözümüzün ən nəhənglərindən biri olan Elçin müəllimə qıydı. Böyük ADAMIN, böyük ürək sahibinin dünyamızı tərk etməsi xəbəri çoxlarımız kimi, özü də lap çoxlarımız kimi sarsıtdı məni. Çünki mən ilk öncə onun daimi oxucusu idim. Mətbuatda çıxan bütün yazılarını, məqalələrdən tutmuş xatirələrinə, hekayə, povest, romanlarına kimi hamısını bir-bir oxumuşam.

Gücüm çatanda dərk etdiyim, duyduğum səviyyədə münasibət də bildirmişəm. Bu mənim bir oxucu özünüifadəm idi. Amma Elçin müəllimin mənim barəmdə yazdığı böyük məqalə və dövri mətbuatda çap olunan yazılarımla bağlı etdiyi telefon zəngləri, əlamətdar ad günlərimə göndərdiyi təbrik teleqramları həyatımın şah səhifələridi.

Aldığım ən böyük mükafatlardı. Elə mükafatlar ki, onlar böyük ADAMIN mənimçün yandırdığı yaşıl işıq, mənə verdiyi xeyirdua, mənə bağışladığı ümid idi. Məhz dəyərli şairimiz Çingiz Əlioğlunun vasitəsilə ilk üzbəüz təmasımızdan başlanan oxucu-müəllim anlaşmamız sonda Elçin müəllimin məni bir qələm adamı kimi öz böyük ürəyinin qiymətinə layiq gördü...

Şuşada xeyli söhbətlərimiz oldu. Dövlət Dram Teatrında tədbirdə, yazıçıların qurultayında və digər tədbirlərdə... harda onu gördümsə yaxınlaşdım, ehtiramımı bildirdim. O da həmişəki təbəssümü və səmimiyyəti ilə mənə ən isti sözlərini söylədi, ağsaqqalməsləhətlərini verdi. Bir dəfə də olsun gözündən yayınmadım. Ətraf qələbəlik olanda aralıdan keçmək istədim. İstəyəndə başını qaldırıb məni yanına çağırırdı. May ayında Elçin müəllimin doğum günü ilə bağlı "Ədəbiyyatımızın Elçini" adlı məqalə yazdım. Qəzet ona çatan kimi yenə həmişəki üslubunda zəng edib təşəkkür etdi. Xüsusilə, məqalənin adı ilə bağlı ayrıca sağol da dedi. Son dəfə avqustun 1-də telefonla danışdım. Səhhətində narahatçılığı olduğundan hal-əhval tutmaq istədim. Hiss etdim ki, biraz yorğundu, amma büruzə vermək istəmir. Mənə son zəngimdə dediklər indi də qulaqlarımda səslənir:

-İzləyirəm, oxuyuram. Elə-belə də davam elə. Yorulmaqdan qorxma. Yaz. Bəzən alınmaya bilər, amma yaz.

Bəli, bu dünyada mənim üçün ən böyük ADAM, ən böyük AYDINlardan biri olan Elçin Əfəndiyev indi Tanrı dərgahındadır. Həmişə deyirdi ki, söz adamlarının yeri Allahın yanındadı. Deməli, o, yenə öz yerindədi. Yenə öz sözü ilə bizim Allahımızın yanında oturub sözünü yaşadır. Təbii ki, bizim ürəyimizdə, tarixin yaddaşında, ədəbiyyatın tarixində! Kim nə deyir-desin, kim hardan və nə ilə baxır-baxsın, Elçin Əfəndiyev xalqın tarixində, ədəbiyyatında Elçin olaraq qalacaq. Mən may ayında Elçin müəllimin doğum günü ilə bağlı yazdığım yazını da bu beş-altı cümlənin sonuna əlavə edirəm. Çünki onun haqqında yazacağım, deyəcəyim sözlərin hələ ip ucunu tam tapa bilməmişəm. Ruhuna baş əyirəm, Elçin müəllim!

***

## *Ədəbiyyatımızın ELÇİNİ*

Bu yazımı UNUDULMAZ Elçin Əfəndiyevin doğum gününə yamışdım.... Oxuyub mənə təşəkkür də etmişdi...

Azərbaycanın ədəbi mühitinə və bədii sözün izləyicilərinə bəlli olan bir gerçəklik var. Həmin gerçəklik də ədəbiyyatımızın cəfakeşi, yaradıcılarından ən öndə gedənlərindən və tanıdanlarından olan Elçin müəllimin doğum günü ilə bağlıdı! Yəni, həm dolaysı, həm də birbaşa demək istəyirəm ki, bu il Elçinsevərlər özlərini ədibin yubley notunda kökləyiblər. İstər ölkəmizdə, istərsə də onun hüdudlarından kənarda Elçin müəllimi oxuyanlar Azərbaycan yazıçısının həyat və yaradıcılığı özləri üçün daxilən yeniləyirlər.Bu yubley sanki bizim yaddaşımıza bir göstəriş verib və biz də həmin zəruri göstərişə uyğun olaraq yazıçı Elçini ilk hekayəsindən bu günümüzə qədər cildlənən kitablarını vərəqləyirik...



Elə buradaca xatırladım ki, mənim özümə görə yazmaq verdişim, üslubum var. Adətən kiminsə barəsində yazı yazmağa başlayanda sözün hardan başlayıb harda bitəcəyini düşünmürəm.

İçimdə, ağlımda olanları birbirinin ardınca söyləyib yazımın məramını, məqsədini ortaya qoyuram. Və təbii ki, ürəyimin səsi, ağlımın hökmüylə yazdığım bu yazılarda qəhrəmanıma, yazımdakı obraza münasibətimi də olduğu kimi sərgiləyirəm. Necə deyərlər, özüm hansı haldayamsa, yazım da elə onun ifadəsinə çevrilir.

Düşündüyüm, dərk etdiyim nədir, necədir onu yazıram...Özgə arşını ilə , kimin nə deyəcəyi ilə yox , öz arşınımın məndəki təsdiqlənmiş nəticəyə söykənib yazıram... Amma...

Amma bu gün ağlımda bir əmma var! Düşünürəm ki, mən bu yazı yükünün altından çıxa biləcəmmi? Və mən Elçin müəllimin yubleyi ilə bağlı oxucu sözünü dilə gətirməklə ölçülərdən kənara çıxmıram ki?

Bu məqamda bir zəruri qeyd etməliyəm - Bəli, bu yazını yazmaq mənim üçün çox çətindi. Çünki artıq Elçin müəllim məni tanıyır, Şuşaya,yəni Vaqif poeziya bayramlarına səfərdə onunla həmsöhbət olmaq, telefonla fikir bölüşmək xoşbəxtliyim və fürsətim olub! Bax, bu səbəbdəndi ki, hörmətli Elçin müəllimin doğum günündə bir oxucu, bir jurnalist və nəhayət, həm də bir şair kimi fikir söyləmək mənə çox çətindir.

Lakin daxili istəyimin mənə diqtəsi ilə bu yazını xalq yazıçısı Elçin Əfəndiyevin oxucusu olaraq onun doğum gününə ünvanlayıram. Və bir yazımda da vurğuladığım kimi, hələ doğulduğum Tuğ kəndində, orta məktəbdə oxuduğum illərdən tanıyıb sevmişəm Elçin Əfəndiyev yaradıçılığını. Xüsusilə onun unudulmaz xalq yazıçımız İlyas Əfəndiyevin oğlu olduğunu biləndən sonra ürəyimdə qəribə bir hiss baş qaldırmışdı. Özüm-özümə sual verirdim ki, görəsən iki yazıçı bir evdə mövzuları, yazdıqlarını müzakirə edirlərmi? Bir-birlərilə iki qələm adamı olaraq hansı mövzularda mübahisələri olur?

Məni qınamayın. Bu bir orta məktəb şagirdinin, bir cavan oğlanın tam səmimi duyğularından doğan sual idi. İllər keçdi və mən Elçin Əfəndiyevi həyatda da görməyə başladım. Müxtəlif tədbirlərdə çıxışlarını dinlədim. Xüsusilə İlyas Əfəndiyev cənnətə köçüb haqqa qovuşandan sonra İlyas müəllimlə bağlı keçirilən tədbirlərin böyük əksəriyyətində iştirak etdiyimdən mən Elçin müəllimi orada yaxından görürdüm. Hətta bir dəfə şair dostum, qardaşım, ailəvi bağlılığım olan Çingiz Əlioğlu Milli Dram Teatrın foyesində tamaşaya gələn Elçin müəllimlə əhvallaşanda məni də yaxınlaşıb görüşməyə dəvət edir. Bir az ehtiyatla Elçin müəllimə yaxın gəldim və salam verdim. O da əlini uzatdı... Bax, bu mənim Elçin müəllimlə Şuşa ziyarətimizə qədər olan üzbəüz yeganə görüşüm idi...

Elçin Əfəndiyev mənim üçün gözəl novellaların, xüsusilə "Baladadaşın ilk məhəbbəti"nin müəllifidi... Elçin müəllim mənim üçün "Bir görüşün tarixçəsi", "Ox kimi bıçaq", "Mahmud və Məryəm"... " "Bayraqdar", "Toyuğun diri qalması", "Gümüşü furqon", "Dolça" ,"Ağ dəvə", "Ölüm hökmü", " Baş" romanını müəllifidi... Elçin müəllim ayrı-ayrı şəxslər barəsində xatirə yazıların müəllifidi... Hansı ki o yazılar - xatirələr barəsində söhbət açılan şəxsləri bizlərə yenidən və həm də ətraflı şəkildə tanıdır...Elçin müəllim mənim üçün düşündürməyi və inandırmağı bacaran səhnə həyatı verdiyi obrazların müəllifidir... Elçin müəllim mənim üçün həm də ədəbi düşüncəylə fəlsəfi düşüncəni birbirinə calaq edən yox, bir-birində ifadə edən yazıçı alimdi... nasir, həm də filosofdu... Ona görə də onun oxuduğum əsərlərini demək olar ki, hamısında mən hər bir sözün arxasında ikinci və bəzən də üçüncü sözün dayandığını görürəm. Sözlər qat-qatdı, bir -birinin arxasında dayanan insanlar kimi. Oxuduğun anda sənə adi görünür. Sonra həmin O görüntü səniyavaş və sakitcə özünə tərəf çəkir və başlayırsan gördüyünün ardınca getməyə. Gedib sonsuzluğa yox, işığa çatırsan. Sözün məbədində qaynayan o bulağın gözündə bütün rənglərin, bütün gözəlliklərin və həyatla insanın mücadiləsinin şahidinə çevrilirsən. Burda söhbət daha çox yaşatmaqdan, yaratmaqdan gedir. Dağıtmaq, məhv etmək istəyinə qarşı çıxmaqdan gedir. Və nəhayət, Elçin müəllimin bir nasir, bir dramaturq, bir ədəbiyyatşünas kimi oxucu önünə çıxardığı hər bir fikir, hər bir əsər dərhal müzakirə ünvanına çevrilir. Çünki təzə tərdi... Çünki hamının dediyi formada yox, məhz Elçinin dediyi formada ortaya qoyulubdu. Bu, özünəməxsusluqdu! Bu mənə görə həm də Elçinşünaslıqdı!

Mən Elçin Əfəndiyevin oxucusu olaraq özüm üçün bir gerçəkliyi də müəyyənləşdirmişəm və o gerçəkliyi özümün haqqım kimi qəbul etmişəm. Bu gerçəklik də mənə görə, bundan ibarətdir ki, Elçin Əfəndiyev pafos yazıçısı deyil.

Elçin Əfəndiyev gerçəyin, yəni oxucunun yazıçısıdı! Və mən sevinirəm ki, bu gün Azərbaycan söz məkanından kənara çıxaraq Azərbaycan ədəbiyyatını tanıdanların önündə Elçin Əfəndiyev də var!

Bu yer onun həm haqqıdır, həm də oxucularının ona verdiyi missiyadır! Bu gün Azərbaycan ədəbiyyatının öncüllərindən biri olan Elçin Əfəndiyev bizim üçün, Azərbaycan üçün, ədəbiyyatsevərlər üçün yazıb yaradır.

Bu gün ömrünün 82-ci baharını-yayını yaşayan və yazıb-yaradan Elçin müəllim barəsində ən yüksək mərtəbələrdə, səviyyələrdə fikir bildirilir...münasibət ifadə olunur..təbriklər deyilir, yazılır...

Bunların hamısı da birmənalı olaraq Elçin müəllimin halal haqqıdır! Düşünürəm ki, bir vətəndaş , bir yazıçı xoşbəxtliyi Elçin müəllimin ömürlüyünü bəzəyib! Bu xoşbəxtlik də onun Şişanı, Füzulini, bütün Qarabağı işğaldan azad görməsidi! Doğum gününüz də, bu xoşbəxtliyiniz də mübarək olsun, əziz Elçin müəllim!

***P.S.** Çox hörmətli Elçin müəllim, inanın ki, sizə ünvanladığım bu kiçik yazı istəklərimin tam səmimi ifadəsidir. O sizə layiq olmasada, hər halda, mən oxucunuz kimi yaradıcılığınızla bağlı düşündüklərimi çatdırmağa çalışdım...*

# ÖMRÜN AVQUST CİZGİLƏRİ

**Mənim inancıma görə həyatda elə an, elə məqam var ki, o təkcə bütün ömrünə bərabər olmur, həm də sənin doğum günün kimi yaddaşına yazılır. Və bu yazı heç vaxt pozulmur, hətta o yazının üstünə şeh də düşsə, toz da qonsa, onu birdəfəlik silmək, cırıb atmaq, unutmaq mümkünsüzdü. Axı, ömrə yazılıb, ürəyə yazılıb!.. Hə, mən bu bir cümləlik fikrimdə nə yazacağımı, nə deyəcəyimi öncədən çatdırmaq niyyətində deyiləm. Amma sadəcə bir içimdən gələn pıçıltını yazımın əvvəlinə çıxartdım...**

Hər anı, hər dəqiqəsi olduğu kimi yadımdadı. Elə bil ki, kinoya baxıram. Fırlanır çarx gözümün önündə. Və mən də o fırlanan çarxla birlikdə dönürəm o günə, o ana. Gəlişini, ilk kəlməsini, hətta gözlərinin dibində gizlənib, oradan boylanan kədəri də görürəm... İlahi, o baxış, o kədər, o pıçıltı sanki qeybdən gəlirdi, qeybdən də görünürdü. Onu görməmək, onu duymamaq mümkünsüz idi. Mən nə qədər cəhd etdim, nə qədər görməmək, duymamaq istədim, mümkün olmadı. O anın özündə bir maqnit dalğası var idi. Yaxalamışdı məni, elə yerimdən tutmuşdu ki, tərpənə bilmirdim. Və bu günə qədər də maqnit dalğasının tutduğu yer mənə aid deyildi. Məndən qopub gedibdi. Elə məni də aparıbdı bəlkə də...

Hə, tarix elə bu yazının dünyaya gəldiyi günə təsadüf edir. Onda da avqust idi. Onda da qora bişirən öz işini görürdü. Və elə onda da mən başımı salıb aşağı kağız-qələmin ixtiyarına vermişdim özümü. Bilmirdim ki, bu kağız-qələm məni ona tərəf aparır, ona səmtləyir... Və mən də qələmin, kağızın ətəyindən tutub gedirəm. Əslində getmirəm ey. Mənə tərəf gəlir, onu qarşılamağa çıxıram... Və həmin an qarşılaşırıq, öncə baxışlarımız görüşür. Sonra... Bax, elə hər şey də o sonradan başlayır. Bu mənim doğum tarixinin yeni başlanğıcıdır. Soruşa bilərsiniz ki, nə baş verdi. Nədən dəyişdi doğum tarixi? Düzünü deyim ki, bu sualın cavabını hələ də tapa bilməmişəm. Ona görə də sizə heç nə deyə bilməyəcəm və məndən də yəqin ki, ağıllı bir cavab da ala bilməyəcəksiniz. Axı, insan niyə doğulduğunu özü bilmir və heç vaxt da bilməyəcək!

Sizi çox da maraqda qoymamaq, intizarda saxlamamaq üçün bircə anladığım bir gerçəyi, dərk etdiyim bir həqiqəti deyə bilərəm ki, həmin avqustda, həmin o qora bişirəndə mənim doğulmağım Allahın növbəti möcüzəsidi. Çünki dünyaya mənimlə birlikdə bir sevgi də gəlmişdi. O sevgi yeni şeirlərimin, yeni pıçıltılarımın, yeni duyğularımın ünvanı, bəlkə də elə özü idi. Əslində elə də var. Özü də bəlkəsiz, filansız!..

Bax, onda mən əlimi göyə açıb şükür duaları ilə Allaha və sənə təşəkkürümü çatdırdım. İndi o duaları da, o şükürləri də içimdə təkrarlaya-təkrarlaya yazıram:

***Göydən düşən üç almayla***
***Bitdi mənim nağıl ömrüm.***
***Ondan nə mənə pay düşdü -***
***Nə də sənə ağıl, ömrüm!***

***Bədahətən söz deyərdim,***
***Öz yükümü çox bəyəndim.***
***Mən dəvə yox, mən küyəndim -***
***Belə gəldi, axır ömrüm!***

***De, o kimdi şəkili daşda?***
***Demirəm ki, başdan başla.***
***Gülə-gülə, əli qaşda -***
***Daş üstündən baxır ömrüm...***

***O həsrətə bu tabıyla,***
***Haqqa, sənə, xitabıyla...***
***Neçə-neçə kitabıyla -***
***Yüngül gəldi, ağır ömrüm!***

Bəli, mən bütün yazılarımın, bütün xitablarımın və bütövlükdə ömrümün mənasını həmin o gündə, o anda tapdım və qibləmi də bir daha müəyyənləşdirdim. Elə bilirəm ki, həmin ana qədər asi idim. Yox, mən onda Allahın adi, sadə, iddiasız başıaşağı bir bəndəsi kimi yaşayırdım ömrümü. Məhz, həmin o doğum günümdən içimdən bir iddia boy verdi. Bu iddianın adı Məcnundan artıq Məcnunluq idi. Bugünə qədər də böyük Füzulidən min dəfələrlə üzr istəməklə, özümü Məcnundan böyük Məcnun sayıram. Düşünürəm ki, mənim sevgim, mənim səcdəm birmənalıdır, dəyişməzdir və onun hansı bucaq altında təqdim etməyimdən asılı olmayaraq, o, mənə aid olmaqla yanaşı, həm də təzədi, tərdi

Bəli, ürək kiməsə bir parsa ətdir, kiməsə yumruq boyda daşdır, kiməsə tez sınan şüşədi və kiməsə eləbelə heç nədi. Yəni, insan bədəninin bir əzasıdı. Amma ürək həm də bütöv bir dünyadı. Duyğuların, hisslərin, ağrıların, sevinclərin, kədərlərin, vüsalların, həsrətlərin, bir sözlə, insana aid olan hər şeyin həm beləyidi, həm beşiyidi, həm də elə özüdür ki, var. Deməli, ürək həm də Allahın sənə tikdiyi evdi. Sən də o evin həm özüsən, həm də müsafiri, sakini. Deməli, elə ürək həm də Sənsən!



Sən olan yer heç vaxt qaranlıq ola bilməz, darısqal ola bilməz, soyuq ola bilməz, ümidsiz ola bilməz, işıqsız ola bilməz! Bilirsən niyə? Ona görə ki, Sən olan yeri Allah sənə aid edib! Və Allahın aid etdiyi yerdə işıqsız, susuz, havasız olmur axı. Bax, bütün bu dediklərim, yazdıqlarım pafoslu da çıxa bilər, sərsəmlik kimi də görünə bilər, hətta bayağı da adlanmaq şansında da qorunmur. Amma kim nə deyir-desin, kim hansı qiyməti verir-versin, heç vecimə də deyil. Bilirsən niyə? Ona görə ki, səni Allah çıxartdı qarşıma. Sənə aid olan yeri Allah müəyyənləşdirdi. Və səni ömrümə Allah hopdurdu. Mən və bütün bəndələr Allah qarşısında həm acizik, həm də heç kimik. Ona görə də Allahın iradəsinə qarşı çıxmaq qeyri-mümkündür və mən bunu heç ağlıma da gətirmirəm. Çünki həyatımın bütün anları Allaha və Sənə aiddi!

Ona görə də mən nəyi nə vaxt yazmağı və necə yazmağı da heç kimdən soruşmuram. Çünki yazdıran da, pıçıldayan da Allah və Sənsən.

Bax, elə indi yazdığım şeir də o pıçıltılardan biridir.

***Yenə təkliyimlə pıçıldaşıram,***
***Bir az dünənimdən, bir az bugündən.***
***Ağrı baltasını itiləyibdi -***
***Kəsib ümüdümə düşən düyündən...***

***Üst-üstə gəlməyən kipriklərimi,***
***Əyməyə çalışır nəm ağırlığı.***
***Ağırlıq barədə bildiklərimi -***
***Alt-üst eləyibdi qəm ağırlığı...***

***İçimdə-çölümdə külək at çapır,***
***Təklik qamçılayır zənnimcə onu...***
***Büdrəyən bəndəni, demək tez tapır -***
***Ölümdən tez gəlir adamın sonu...***

Bu pıçıltıların arxasında bir ömür dayanır. Əl barmaqlarının sayını keçmiş ömür. Yəqin o sayı sən də bilirsən. Allahın bildiyi sayı deyirəm!..

Yəqin bu pıçıltıların arxasında sonu görünən ömrün kimə aid olduğunu da gözündən qaçırmırsan. Çünki onu Allah da artıq bilir və bir də ömrün alt-üst olmasına təzə bir fikir deyil və təzə söz də sayılmaz. Amma qəmin bütün ağırlığı ilə vücuda hopması hər adamın ömrünə yazılan yazı deyil. Buna birmənalı inanıram. Ona görə ki, ömrü yazan yer üzündəki bütün insanları fərqli yaratdığı kimi onların yazısını da fərqli qələmlə, fərqli fikir və cizgilərlə yazır. Kimi insan ömrü yaşayır, adidən adi. Kimi Məcnun ömrü yaşayır, aşiqdən aşiq və yaxud dəlidən dəli. Kimi də yenidən doğulur öz sevgisi ilə. Elə mənim kimi! Deyəsən, çox təriflədim özümü, çox "mən-mən" dedim.

Bunu günaha yazma, günahdan sayma. Özündən razılıq hesab etmə. Bil ki, mən Allahın və Sənin nəzərlərinin altında olmaqla yanaşı, həm də sizdən aldığım impulsların işığında yazıram, danışıram...

Bütün bu yazı boyu mən içimdə sanki ələk əliyirdim. Bunu ona görə xüsusi qeyd edirəm ki, həmişəkindən fərqli olaraq sözü seçməyə, fikri təqdim etməyə bütün gücümlə çalışırdım. Məqsədim, məramım da bu ildi ki, artıq sözə, artıq fikrə yol verməyim, yer ayırmayım. Kimsə həmin o artıq sözdən, yersiz fikirdən yapışıb haralarasa gedib çıxmasın. Məhz bu səbəbdən yazının üstündə nanə yarpağı kimi əsmək dərəcəsinə gəlib çıxmışdım. Hətta özüm-özümə bir az acıyırdım da. Özümün-özümə bir az yazığım da gəlirdi. Axı, heç kimə bəlli olmayan, heç kim üçün maraq doğurmayan, yenidən doğulmağımın, kağıza köçürməyimin nə mənası var? Amma yox, təkcə yazılanın yadigar olması, qalması baxımından yox, həm də yazılanın bir təbrik, bir xatırlatma, dünənə dönüş olmasıdır. Mən də məhz təbrik üçün, dünənə dönüş üçün yenidən həmin avqustdan bu ilin avqustuna gəlmək üçün düşüncələrimi sözə çevirdim və yazdım. Hər halda bu yazı ad günü təbriki kimi də oxuna bilər, xatirə kimi də!

**Bəli, yazının əvvəlində dedim ki, heç kim doğum gününü doğulacağı andan öncə bilmədiyi kimi, təkrar doğulacağını da bilmir. Allah nəsib etdi, mən təkrar doğulmağımın şahidi oldum, elə Sən də! Və ömrümdəki Fərəh, Sevinc, Kədər, Ümid, Həsrət, bir sözlə, nə varsa hamısı həmin günlə bağlıdır. Və onların hamısı hər bir an mənimlə baş-başa, mənimlə birlikdədir. Mən də onlarla. Elə yəqin ki, Sən də!..**

**Əbülfət MƏDƏTOĞLU**

## Yunus Oğuzun 65 illik yubileyi münasibəti ilə kitab çap olundu




**Əməkdar mədəniyyət işçisi, yazıçı -publisist, "Olaylar" qəzetinin baş redaktoru, tarixi romanların müəllifi Yunus Oğuzun həyat və yaradıcılığından bəhs edən "Munis yazılar - 1" adlı yeni kitabı çapdan çıxıb.**

Kitab müstəqil ədəbi qurum olan "Yazarlar" jurnalı tərəfindən həyata keçirilmiş "Yunus Oğuz - 65" layihəsinin yekunu olaraq, bu müddət ərzində müxtəlif mətbu orqanlarda, eyni zamnda "olaylar.az", "yazarlar.az", "zefernews.az" və digər saytlarda yayımlanmış Yunus Oğuzun 65 illik yubileyi münasibətilə ölkənin tanınmış ziyalılarının məqalələri - ürək sözləri, səmimi dost arzuları əsasında ərsəyə gətirilib.

Bakı Dövlət Universitetinin professoru Cahangir Məmmədlinin "Jurnalistika və ədəbiyyatda iz qoyan sənətkar" adlı giriş məqaləsində yubilyarın jurnalist və yazıçı kimi yaradıcılıq fəaliyyəti barədə tam dolğun məlumat verilib.

**Kitabda Yunus Oğuz haqqında uzun illərdir onu yaxından tanıyan, çoxşaxəli fəaliyyətinə yaxşı bələd olan Rəşad Məcid, Nizami Cəfərov, Fazil Mustafa, Əkbər Qoşalı, Aydın Mirzəzadə, Vüqar İskəndərov, Zahid Oruc, Səyyad Aran, Təranə Dəmir, Asif Mərzili, Zaur Ustac və digər qələm adamlarının yazıları yer alıb. "Yazarlar" jurnalının ədəbi tənqid məsələləri üzrə meneceri Günnur Ağayeva tərəfindən tərtib olunmuş "Munis yazılar - 1" kitabının redaktoru Zaur Ustac, naşiri isə Tuncay Şəhrilidir.**

## "Azərxalça" ASC-nin xalçaları yaxın gələcəkdə Vyetnamda sərgilənəcək

**Azərbaycan-Vyetnam iqtisadi-ticarət və elmi-texniki əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 3-cü iclasında da bildirildiyi kimi iyul ayının sonunda Bakı şəhərində 3-cü "Vyetnam Günləri" təşkil olundu. Tədbirin əsas məqsədi iki ölkə arasında mədəni əlaqələrin genişləndirilməsidir.**



Bu məqsədlə də gələn xarici qonaqlara ilk növbədə Azərbaycanın milli mənəvi sərvəti, əsl Azərbaycan qadınlarının göz nuru, əl əməyinin məhsulu, 100% təbii məhsullardan hazırlanan Azərbaycan xalçaları nümayiş olunub. Azərbaycanın ən böyük xalça istehsalçısı "Azərxalça" ASC- nin İçərişəhərdə yerləşən satış və nümayiş salonunda baş tutan görüşdə qurumun İdarə heyətinin sədri Emin Məmmədov başda olmaqla yaradıcı heyət, Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Şövqi Mehdizadə və Trinh Thi Thu Hanın başçılıq etdiyi tədbir üçün Bakıya gələn qrup nümayəndələri iştirak edib. Qonaqlara Azərbaycan xalçalarının tarixi, keçdiyi inkişaf yolu və müasir dövrü haqqında geniş məlumat verilib. "Azərxalça" ASC-də istehsal olunan yun və ipəkdən ənənəvi və müasir üslubda toxunan xalçalar qonaqların marağına səbəb olub. Bundan əlavə qonaqlar xalça toxuma prosesində iştirak ediblər, ilmə atmağı öyrəniblər. Xalça toxunmasında iştirak edən hər bir kəsə "Azərxalça" ASC sədri Emin Məmmədov tərəfindən sertifikatlar təqdim olunub.

Görüş zamanı həmçinin yaxın gələcəkdə Vyetnamda baş tutacaq əsl Azərbaycan xalçalarının ibarət sərginin detalları da müzakirə olunub.

# Beyrutdakı partlayışın Azərbaycana zərbəsi: Siyasi şou

**Bu gün Livanın paytaxtı Beyrutda baş verən partlayışdan 5 il ötür.**

Adalet.az xəbər verir ki, 4 avqust 2020-ci ildə, yerli vaxtla 18:08-də Livanın paytaxtı olan Beyrut şəhərinin limanında iki ardıcıl partlayış baş verdi. Partlayış nəticəsində ən azı 218 nəfər öldü, 7 min nəfər yaralandı, 80 nəfər itkin düşdü.

Hizbullah partlayış ilə bir əlaqəsi olmadığını açıqlamış, "bu milli faciəyə görə başsağlığı" vermiş və qeyd etmişdir ki, "bu fəlakət bütün Livan xalqının milli səviyyədə bir olması"nı tələb edir.

Növbəti gün Hizbullahı Livan parlamentində təmsil edən Məhəmməd Rəad Livan xalqını fəlakətin səbəblərini dəqiqləşdirmək və ədalətin öz yerini tapması üçün "müsbət əməkdaşlıq" etməyə çağırmışdır. Lakin Livanın keçmiş ədliyyə naziri Aştaf Rifi Beyrut limanında tonlarla ammonium nitrat kübrəsinin saxlanıldığı anbarın "Hizbullah"a məxsus olduğunu açıqlayır.

Livan İctimai Təhlükəsizliyinin ümumi direktoru Abbas İbrahim partlayışın səbəbini 6 ildir anbarlarda saxlanılan təqribən 2.750 ton nitrat ammonyak - ammonyak turşusu ilə əlaqələndirdi. Partlayışın böyüklüyü təqribən 300 ton TNT-nin partlamasına bərabər idi.

Məlumatlarda partlayış nəticəsində 16 erməni öldüyü də bildirilirdi.

Elə həmin gündən hər ilin 4 avqustu Beyrut qurbanlarının Anım Günü kimi qeyd olunur.

1994-cü ildən etibarən, Qarabağ işğal olunduqdan sonra ermənilər qondardıqları "artsax respublikası"nı beynəlxalq aləmdə tanıtmaq üçün işə başladılar. Əsas məqsəd Qarabağ ərazisindən silah gücünə çıxardıqları azərbaycanlıların yerini doldurmaq, əhalinin sayında artım etmək idi.

Xatırlayırsınızsa, 2003-cü ilin dekabrında Ermənistanın baş naziri A.Marqaryan erməni əhalisinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə köçürülməsi məsələsinin Ermənistan hökuməti üçün prioritet təşkil etdiyini rəsmən bildirdi.

Bunun üçün ilk öncə ermənilərin kompakt yaşadığı şəhər və kəndlərdə rifahı qənaətbəxş olmayan və yaxud münaqişəli zonalarda təhlükə altında qalan ermənilərin Ermənistana daşınması, oradan da Qarabağa köçürülməsi prosesi başlandı. Təsəvvür edin ki, Ermənistan mediası o illərdə açıq yazırdı ki, Suriyada müharibə başlayandan 15 min suriyalı erməni Ermənistana köçüb.

Rəsmi mənbələr bildirir di ki, Qarabağ müharibəsindən sonra imzalanan atəşkəsdən dərhal sonra Ermənistan hakimiyyəti tərəfindən Laçın şəhərinin və rayonun bir neçə ətraf kəndin məskunlaşdırılmasına dair məxfi əmr verilmişdi. Ermənistan bununla Dağlıq Qarabağa aparan yeganə yolun keçdiyi strateji mühüm ərazini nəzarətdə saxlamağa çalışırdı: "Ermənistan o vaxt hesab edirdi ki, Laçın rayonunun dörd yaşayış məntəqəsinin məskunlaşdırılması kifayətdir.

1995-ci ildə Laçın rayonunun 4 yox, 12 kəndində ermənilər qanunsuz məskunlaşmışdı. 2004-cü ildə isə Laçın və kəndlərində, o cümlədən digər ətraf rayonlarda yaşayan ermənilərin sayı 13500-ə çatmışdı". Bəli, onların bir qismi Qarabağa, Laçın rayonuna yerləşdirildi. 2018-ci ildə 76 belə erməni ailəsi Azərbaycanın işğal altında olan bu rayonuna köçürüldü. Eyni zamanda işğal illəri ərzində Livandan Qarabağa erməni köçləri də baş tutmuşdu.

Amma məlum parrtlayışdan sonra Livandan Ermənistana və iş-



ğal altında olan Dağlıq Qarabağa ermənilərin köçürülməsi məsələsi yenidən gündəliyə gətirildi. Ermənistanın diaspor üzrə ali komissarı Zare Sinanyan hadisədən sonra bildirdi ki, Ermənistan vətəndaşlığını qəbul etmiş 20 min livanlı erməni ölkəyə dönmək istəyir.

Həmin dövrdə mediada gedən bir məlumatı sizə xatırlatmaq yerinə düşər: "Beyrut limanındakı partlayışdan sonra Ermənistan rəhbərliyi Livan ermənilərinin Qarabağa köçürülməsi prosesinə başlayıb.

İşğal altındakı Azərbaycan torpaqlarında yaradılmış qondarma rejimin rəhbərinin köməkçisi Rudik Usnunts Livandan Qarabağa insanların köçürülməsi barədə danışıb. "Mənim başçılığım altında işçi qrup yaradılıb.

Biz 100-150 ailə qəbul etməyə hazırıq. Amma 1000 ailə gəlsə belə onları da yerləşdirməyə hazırıq. Biz Livan ermənilərinə ev, iş verə, cəmiyyətə inteqrasiya edə bilərik".

Livandan köçürülən ermənilərin əsasən, bank işçisi, həkim, inşaatçı, zərgər və usta olduğunu deyən Usnunts onların Ermənistandan Qarabağa köçürülməsi işlərinə başlanıldığını əlavə edib.

"Yeni köçənlərə Yerevanda anketlər verilir. Burada onlar öz tərcümeyi-halı və ixtisası barədə geniş məlumat verirlər. Həmin ermənilərin işə düzəldilməsində anketlərdən istifadə olunacaq".

Separatçıların rəsmisi Qarabağ köçmək istəyən ermənilərin bütün nəqliyyat xərclərini də ödədiklərini qeyd edib.

Xatırladaq ki, iyul-avqust aylarında Livandan Ermənistan 500-dən artıq erməni daimi yaşayış üçün köç edib".

Qarabağ adlı problem artıq bitib. Amma Türkiyə və Azərbaycan birliyini, qardaşlığını həzm edə bilməyən bəzi ölkələr, beynəlxalq qurum və təşkilatlar, senatorlar və konqresmenlər "Qarabağ" adlı növbəti problemin varlığına start veriblər.

"Erməni qaçqınların"uydurulmuş sayı haqqında ağıllarına gələni danışmaqla növbəti bir münaqişəyə yol açırlar.

Məsələn ölkəmizə qarşı ədalətsiz yanaşması və ermənipərəst mövqeyi ilə seçilən Avropa diplomatiyasının rəhbəri Jozep Borrell Azərbaycana qarşı qərəzli olduğunu heç vaxtgizlətməyib. Beləki, Ermənistan tərəfi 100 min nəfər olduğunu iddia etsə də, Avropa İttifaqının Xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borrell Qarabağdan bir həftə ərzində 150 min insanın evlərini tərk etməsini dedi.

Bax elə o gündən Azərbaycana qarşı qərəzli qətnamə qəbul edilməsi, bəyanatlar yayılması sürətləndirildi.

Fransa, ABŞ konqresmenləri Azərbaycan üzərinə hərəkətə keçdilər və "er-mənilərin Qarabağa qayıdışı" iddiasını irəli sürməyə başladılar.

Hələlik heç bir "uğur"a nail olmayan dünya ermənipərəstləri milçək kimi ürəkbulandırmaqda davam edirlər.

**Suriyadan, Livandan köçürülərək qeyri qanuni şəkildə Qarabağa yerləşdirilmiş ermənilər növbəti bir problemə səbəb olublar.**

**Əntiqə Rəşid**

# Milli mətbuatın avanqardı

**XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda milli demokratik hərəkatın başlanmasına təkan verildi. Mütəxəssislər Şimali Azərbaycanda çar Rusiyasının müstəmləkə əsarətinə qarşı başlayan bu hərəkatı üç inkişaf dövrünə bölürlər. 1875-1904-cü illər-"Əkinçi" qəzetinin nəşrə başlaması ilə əsası qoyulan milli hərəkatın birinci mərhələsi şərti olaraq "Əkinçi dövrü" də adlandırılır. Biz bu yazımızada milli azadlıq hərəkatının ilk ideyaları, ideoloji prinsipləri və nəzəri əsaslarının meydana gəlməsindən, bu mərhələdə milli oyanışın baş verməsindən söhbət açacağıq.**




Hərəkatın getdikcə geniş vüsət almasını yeni ictimai qrupların meydana gəlməsi və ali təhsilli ziyalıların sayının artması ilə əlaqələndirirlər. Həsən bəy Zərdabi, Ağa bəy Yadigarov, Əlimərdan bəy Topçubaşov, Cəmo bəy Hacınski, Aslan bəy Səfikürdski, Səməd bəy Mehmandarov, Ələğa Şıxlinski və başqaları Azərbaycanda yeni ziyalı nəslinin öncülləri idilər. Bu şəxslər müxtəlif tarixi kəsimlərdə Azərbaycandan uzaqlarda, dünyanın aparıcı universitetlərində təhsil almışdılar. Həsən bəy Zərdabi də Moskva Universitetinin təbiət elmləri şöbəsini bitirmişdir. Azərbaycanda ictimai və pedaqoji fəaliyyətlə yanaşı, kənd təsərrüfatı və təbiət elmlərinin (xüsusilə bilogiya elminin) inkişafında böyük xidmətləri olmuşdur. Hərtərəfli şəxsiyyət kimi formalaşan H.Zərdabi Nəcəf bəy Vəzirovla birlikdə ilk teatr tamaşası hazırlamışdı.

"Əkinçi" qəzeti ilə Azərbaycan milli mətbuatının əsasını qoymuşdu.

Azərbaycanda milli mətbuatın həyata vəsiqə qazanması ictimai həyatın son mühüm hadisəsi idi. Bu cahanşümul hadisənin cığırdaşı Azərbaycan mətbuatının banisi - ictimai xadim, alim və maarifçi Həsən bəy Məlikov Zərdabi (1842-1907) olmuşdur. H.B.Zərdabi uzun illər həsrətində olduğu bir ideyanı gerçəkləşdirmiş, böyük əzab-əziyyətdən, qara qüvvələrin manelərini çətinliklə də olsa dəf etdikdən sonra 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin ilk nömrəsini nəşr etməyə nail olmuşdur. H.B.Zərdabi Rusiya imperiyası ərazisində türkcə nəşr olunan bu ilk qəzetin-"Əkinçi"nin həm naşir, redaktor, həm də mürəttibi olmuşdur. 1875-1877-ci illərdə oxucuların ixtiyarında olan qəzetin cəmi 56 nömrəsi çapdan çıxmışdır. Milli mətbuatın təməl prinsiplərini müəyyən edən bu qəzetin üstünlüyü onda idi ki, o, Şərq dünyasında Avropa üsulunda dərc olunan birinci mətbu orqanı idi.

Xalqı maarifləndirmək, milli dili inkişaf etdirmək məqsədi ilə məktəblərdə yeni təlim və tərbiyə üsullarının tətbiq edilməsinə nail olmaq, milli şüuru (milli özünüdərki) oyatmaq, dilin və mədəniyyətin inkişafını yüksəltmək, demokratik ideyaları təbliğ etmək "Əkinçi nin əsas məqsədi idi.

Təqdirəlayiq haldır ki, milli azadlıq hərəkatının başlanmasından hələ bir neçə il əvvəl görkəmli mütəfəkkir M.F.Axundzadə bu istiqamətdə uğurlu işlər görmüş, özünün bədii və fəlsəfi əsərlərində milli inkişafı əngəlləyən amilləri cəsarətlə tənqid etmiş, xalqın gözləri qarşısındakı cəhalət pərdəsini cırıb atmağa çalışmışdır. Dövrün məşhur ziyalısı, maarifçi filosof və komediyanəvis M..F.Axundzadədən sonra H.Zərdabi millətin kimliyini (türk, sonra isə müsəlman olmalarını) dərk etməsinə çalışmışdır. Nəşr etdirdiyi məqalələrində müasir tipli məktəblərin açılmasını, milli tərəqqinin yüksəlişini zəruri hesab edirdi.

"Əkinçi" qəzetinin geniş oxucu auditoriyası qazanmasından narahat olan çar hökuməti qəzetin bağlanması üçün bəhanə axtarırdı. Axır ki, həmin bəhanəni tapdı. Bəhanə də bu oldu ki, guya qəzetdə siyasi məsələlərə toxunulur və Osmanlı dövlətinə rəğbətlə yanaşılır. 1877-ci ildə isə Rusiya-Osmanlı müharibəsinin başlamasını bəhanə edərək qəzet bağlanıldı.

"Əkinçi"nin bağlanmasından sonra onun ideya istiqaməti ilə uyğun gələn qəzetlər çap olunmağa başlanıldı.

1979-cu ildə Tiflisdə Səid Əfəndi Ünsizadə tərəfindən Ziya" (1880-ci ildən "Ziyayi-Qafqaziyyə adlanırdı". Bu qəzet Azərbaycan türkcəsində nəşr olunan həftəlik qəzet idi), 1883-cü ildə Tiflisdə Cəlal Ünsizadə tərəfindən "Kəşkül" ("Azərbaycan milləti" ifadəsini ilk olaraq bu qəzet işlətmişdir) və başqa qəzetlər çap olunmağa başladı.

Dövrün mütərəqqi ziyalılarından S.Ə.Şirvani, A.Adıgözəlov və başqaları qəzetin ətrafına toplandılar. Qəzetdə maarifçi və demokratik ideyalar təbliğ olunur, fanatizm və mövhumat tənqid atəşinə tutulurdu.

Bakıda Azərbaycan türkcəsi ilə yanaşı "Kaspi", "Bakinskiye izvestiya", "Baku" və başqa rusdilli qəzetlər də nəşr edilməyə başladı

**"Əkinçi"nin yolunu davam etdirən qəzetlər xalq arasında demokratik və maarifçilik ideyaları yayır, milli və mədəni inkişafımızın yollarını göstərməyə çalışırdılar.**

**Elman Qasımov,**
**AJB-nin üzvü**

# SÖZÜ QOCALMAYAN ŞAİR

## Böyük şairin 100 illik yubileyi münasibətilə

**Bəxtiyar Mahmud oğlu Vahabzadə - 1925-ci il avqust ayının 16-da Şəki şəhərində anadan olmuşdur. O, ilk ibtidai təhsilini Şəkidə almış və 1934-cü ildə ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüş, orada orta məktəbi bitirmişdir. 1942-1947-ci illərdə Azərbaycan Dövlət Universitetində təhsil almış, 1947-1950-ci illərdə aspiranturada təhsilini davam etdirmişdir. 1950-ci ildə əmək fəaliyyətinə başlamışdır. 1951-ci ildə Bəxtiyar Vahabzadə "Səməd Vurğunun lirikası" mövzusunda namizədlik dissertasiyası yazmışdır. O, 1962-ci ildə doktorluq elmi işi yazmaq üçün məzuniyyətə çıxmış, 1964-cü ildə "Səməd Vurğunun həyatı və yaradıcılığı" mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. 1980-cı ildə Bəxtiyar Vahabzadə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2000-ci ildə isə akademiyanın həqiqi üzvü seçilmişdir.**

Bəxtiyar Vahabzadənin 1943-cü ildə yazdığı "Ana və şəkil" adlı ilk kitabı, 1947-cu ildə isə çap etdirdiyi "Mənim dostlarım" adlı kitabı onu az vaxtda respublikada tanıtdırmışdır. 1944-cü ildə mətbuatda çap edilən "Yaşıl çəmən, ağac altı, bir də ki, tünd çay" şeirindən təsirlənən Səməd Vurğunun təkidi ilə Bəxtiyar Vahabzadə Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilmişdir. 1950-ci illərin əvvəllərindən başlayaraq çap edilən "Bahar", "Əbədi heykəl", "Dostluq nəğməsi" və bundan sonrakı kitabları onu xeyli məşhurlaşdırmışdır. 1959-cu ildə Bəxtiyar Vahabzadənin yazdığı "Gülüstan" poeması 1960-cı ildə "Nuxa fəhləsi" qəzetində çap edilmişdir. Bu onun həyatında çox böyük hadisəyə çevrilmişdir. Bir tərəfdən dövlət orqanlarının ona təzyiqi, digər tərəfdən də onu qoruyan xalq məhəbbəti qarşı-qarşıya gəlmişdir. Bu qarşıdurmada Bəxtiyar Vahabzadəni iqtidarda, dövlət orqanlarında işləyən vətənpərvərlər və xalq sevgisi qorumuşdur.

1974-cü ildə Bəxtiyar Vahabzadəyə "Azərbaycanın Əməkdar incəsənət xadimi" fəxri adı verilmişdir. 1976-cı ildə "Gülüstan" poemasından sonra ən yaxın dostu professor Şirməmməd Hüseynovun tövsiyyəsi ilə özünü müdafiə üçün yazdığı "Leninlə söhbət" və "Muğam" poemasına görə Azərbaycan dövlət mükafatına layiq görülmüşdür. Bəxtiyar Vahabzadə 1981-ci ildə Sovet Sosialist Respublikaları İttifaqı yazıçılarının VII qurultayında SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin üzvü seçilmişdir, 1984-cü ildə SSRİ Dövlət mükafatı laureatı olmuş, həmin il də Xalq şairi fəxri adına layiq görülmüşdür. 1988-ci ildə ona Mirzə Fətəli Axundov adına ədəbi mükafat verilmişdir və "Qırmızı əmək bayrağı" ordeninə layiq görülmüşdür. 1991-ci ildə Azərbaycan Yazıçılar Birliyi Ağsaqqallar Şurasının üzvü seçilmişdir. Bəxtiyar Vahabzadə 1995-ci ildə "İstiqlal" ordeni ilə təltif olunmuşdur. O, 1991-ci ildə təşkil edilən Azərbaycan Respublikası Ali Soveti milli şurasının tərkibinə daxil edilmiş və 1995-2005-ci illərdə müstəqil Azərbaycanın millət vəkili seçilmişdir.

***

Bəxtiyar Vahabzadə təkcə şair kimi deyil, tədqiqatçı alim, ədəbiyyatşünas və dramaturq kimi də Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus zirvəyə yüksəlmişdir. Türkoloq alim Aydın Məmmədov Bəxtiyar Vahabzadə poeziyası haqqında yazarkən deyir: "Bəxtiyar Vahabzadə vətən torpağından göyərmiş poeziyadır".

Akademik Yaşar Qarayev Bəxtiyar Vahabzadə yaradıcılığını 3 dövrə bölmüşdür. Onun mülahizəsinə görə birinci dövr məktəb şeirləridir. Həmin dövrdə şair kimliyini qazanıb. İkinci dövr tarix və dünyaya səyahət, üçüncü dövr özünə səyahət, özünə enmə dövrüdür. O, fikirlərini şeirlərində belə biruzə verib.

"A"-dan "ana" yazdıq, "b"-dənsə "baba", "V"-dən "Vətən" yazdıq, "e"-dən "el", "oba".

***Ana yurdumuzu bu səslərlə sən***
***Ruhuna, qəlbinə həkk edəcəksən.***
***Başqa bir şeirində deyir:***
***Yaz ayları çağıldayan selmisən?***
***Bu dünyanı oyuncaqmı bilmisən?***
***Həyat səni güldürəndə gülmüsən***
***Hünərin var ağladanda gül, görüm.***

Bəxtiyar Vahabzadə yaradıcılığından gətirilən bir çox nümunələrdə ömrün müxtəlif dövrlərində insan düşüncəsinin necə dəyişdiyi əks olunur. Bəxtiyar Vahabzadə ya-



radıcılığında məktəb şeirlərindən vətən şeirlərinə keçid tamamilə təbii surətdə baş vermişdir. Ona görə ki, burada aparıcı xətt ana südündən ana məkdəb sevgisinə, ana məktəb sevgisindən ana vətən sevgisinə çevrilməklə mərhələ-mərhələ davam etmişdir. Bu da əlbəttə ki, ən sonda özünü və dünyanı dərk etmə səviyyəsinə yüksəlmişdir. Bəxtiyar Vahabzadə rus imperiyasına qarşı həmişə barışmaz olmuşdur. O, bu fikirlərini belə izhar etmişdir.

***"Mən azadam",***
***"müstəqiləm" sözlərini***
***Öz dilində deməyə də***
***İxtiyarım yoxsa əgər,***
***De, kim mənə azad deyər?***

O, bir çox fikirlərini üstüörtülü yazsa da, onun oxucuları bu fikirləri tam aydınlığı ilə anlayır və dərk edirdilər.

Bəxtiyar Vahabzadəni sözümüzün ağsaqqalı edən əsas amil onun tam aydın görünən hadisə və faktdan uzaqlaşa bilməməsi, formadan daha çox məzmun və mahiyyətə yaxınlaşmasıdır. Sovet dövrünün bütün tarix kitablarında "Gülüstan sülh müqaviləsi"ndən yazılırdı və bütün bu yazılarda Şimali Azərbaycanda yaşayanların tarixi Xoşbəxtliyi kimi qiymətləndirilirdi. "Gülüstan müqaviləsi" Rusiya ilə İran arasında sülh müqaviləsidir. Burada Azərbaycanın iştirakı yoxdur. Azərbaycanı müharibədə əldə edilən qənimət kimi bölüşdürənlər - Rusiya və İran uzun illər öz ideologiyalarına uyğun təbliğat aparmışlar. Bəxtiyar Vahabzadənin intellektual - poetik "Gülüstan" harayından sonra hər iki tərəfdə xalqlar diksinib ayıldılar. Bəxtiyar Vahabzadə real tarixi hadisəyə elə bir güzgü tutmuşdu ki, orada tam həqiqət əks olunmuşdur. Hər bir azərbaycanlı üçün hadisələr tam aydınlaşmışdır.

***... Vardırsa yaranmış,***
***Mütləq yaradan var.***
***Varsansa, özündən əvvəlcə atan var.***
***Dünya quru bir səs,***
***Qəm çəkməyə dəyməz,***
***Yüz-yüz itən olsun,***
***Min-min də bitən var.***
***Şükr eyliyəlim ki,***
***Bizlərdən həm əvvəl,***
***Həm sonra vətən var.***

1988-ci ildən başlayaraq yalnız yaradıcılığı ilə deyil, həm də ictimai-siyasi fəallığı ilə öz mövqeyini bildirən, hadisələrin mərkəzində olan Bəxtiyar Vahabzadə 1990-cı ilin 20 yanvar gününü bütün şiddəti ilə yaşamışdır.

O, həmin günün şəhidlərinə həsr etdiyi poemada azadlığın yaxında olduğunu daha çox hiss edirdi.

***Onlar sübut etdi, hər qara zülmün***
***Əli uzansa da, ömrü gödəkdir.***
***Xalqın azadlığı sabah, biri gün***
***Şəhid yarasından göyərəcəkdir.***

Poetik-fəlsəfi mütəfəkkiranə yaradıcılığın bir sirri də öz daxilinə enməklə özünə doğru yol getməkdədir. Bəxtiyar Vahabzadə yaradıcılığının daha bir məziyyəti də elə bundadır. Öz keçmişi və şöhrətli tarixindən ta bu günədək keçən yollara nəzər salan şair fərd kimi, millət kimi cılızlaşmağı etiraz edirdi. O, deyirdi: "Gələni kəpiklə qarşılamağı, gedəni təpiklə yola salmağı" öz-özünə yadlaşma kimi qiymətləndirirdi.

***Bunu düşündükcə xoflanıram mən,***
***Vallahi, kimsədən bir gileyim yox.***
***Mən necə qorxmayım xatirələrdən?***
***Mənim keçmişim var, gələcəyim yox.***

Bu sətirlərlə Bəxtiyar Vahabzadə rus imperiya siyasətinə etirazını bildirirdi.

Şair kimi ölçüsüz zaman içində yaşamaq Bəxtiyar Vahabzadə poeziyasının fəlsəfi məzmununa daha çox siraət etmişdir. Bəzən zaman və məkan dolaşıqlığında bir şair xoşbəxtliyinə qibtə edirik. İllər boyu həsrətdən, hicrandan gileyli olan şair əlçatmaz varlığında könül xoşbəxtliyi axtarır.

***Sən mənim qəribə qismətim, payım,***
***Gecələr günəşim, gündüzlər Ayım.***
***Güneydə quzeyim, qışda yazımsan,***
***Sən mənim həmişə əlçatmazımsan.***

Bəxtiyar Vahabzadənin bütün fəaliyyətində onun şairliyi öndə durur. O, bir çox şeirlərində və poemalarında bunu əks etdirmişdir.

Bəxtiyar Vahabzadə özünün "Fəryad" pyesi ilə Azərbaycan dramaturgiyasına yeni bir mövzu gətirmişdir. Özünə və dünyaya mifik, poetik, fəlsəfi gözlə baxan şair geriyə boylanmaqla türkün tarixindəki səhvləri açıb göstərmişdir.

Orada pas tutmuş bir qılınca kimsənin əl uzatmağa cəsarət etməməsi simvolik anlamdır. Şair irəli keçib o qılıncı götürmək istəyəndə qabağını kəsdilər və dedilər: - Əl vurma sehirlidir, bu qılınc kimin əlində olsa, elə onun özünü kəsəcək.

Bəxtiyar Vahabzadənin 12 cildlik külliyyatı professor Ramazan Qafarlı tərəfindən çapa hazırlanmış və millət vəkilimiz Cavanşir Feyziyevin sponsorluğu ilə nəşr edilərək xalqa təqdim edilmişdir. Biz bu kitablarla Bəxtiyar Vahabzadəni daha yaxşı oxuya, tanıya və dərk edə bilərik. Bəxtiyar Vahabzadə həmişə öz yaradıcılığı ilə oxucularını düşündürmüş və dünyanın dərkinə istiqamətləndirmişdir. Ahıl yaşlarında yazdığı şeirlərindən birində deyir:

***Qocaldır insanı, qocaldır zaman,***
***Ürəyin atəşi, közü qocalmır.***
***Dağları, daşları qocaldan zaman,***
***Bilmirəm bəs niyə özü qocalmır.***

***Bəxtiyar, düşünək biz dərin-dərin,***
***Xəyallar möhtəşəm, arzular şirin.***
***Əsl sənətkarın, əsl şairin***
***Özü qocalsa da, sözü qocalmır.***

Mənim bu yazım böyük şair Bəxtiyar Vahabzadə əziz xatirəsinə kiçik bir vəfa borcudur.

**Xəyalə Nağıyeva**
**Şəki Dövlət Regional Kollecin**
**Şöbə müdiri**

### Türkiyədən Elçin Əfəndiyevə ehtiram



**Bəlli olduğu kimi, təkcə Azərbaycanın yox bütövlükdə Türk dünyasının böyük yazçısı, ictimai xadimi Elçin Əfəndiyev dünyasını dəyişib. Bu acı xəbər Elçin müəllimin özünü və sözünü tanıyıb, böyük sayğı göstərən hər kəsi sarsıdıb.**

Acı xəbərlə bağlı Türkiyədə də kədərlənən və Elçin müəllimin ruhuna öz ehtiramlarını göstərən xeyli insanlar var. Onlardan biri də Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclinin millət vəkili və NATO parlament asambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlıud Çavuşoğlu Azərbaycanın Xalq yazıçısı, Türk dünyasının unudulmaz Elçin Əfəndiyevinin məzari üstünə əkil göndərib.

Xalq yazçısı Elçin müəllimin doğmalarının veridyi məlumata görə, həmin əkil Birinci Fəxri xiyabanda uyuyan Elçin müəllimin məzarı üstünə qoyulub.

### Qarabağda daha 44 abidə reyestrə daxil edilib

**İşğaldan azad olunmuş ərazilərdə aparılan kompleks tədqiqat və inventarlaşdırma işləri nəticəsində daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına əhəmiyyətli dəyişikliklər edilib.**

Adalet.az xəbər verir ki, Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən Modern.az-ın sorğusuna cavab olaraq bildirilib, Nazirlər Kabinetinin 2025-ci il 3 iyul tarixli, 193 nömrəli Qərarı ilə Ağdam, Kəlbəcər, Füzuli, Laçın, Zəngilan və Xocavənd rayonları üzrə tarixi, memarlıq və arxeoloji əhəmiyyət daşıyan 44 yeni aşkar edilmiş abidə daşınmaz tarix-mədəniyyət abidələrinin dövlət reyestrinə daxil edilib.

Qeyd olunan dəyişiklik, Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli, 132 nömrəli Qərarına əsasən qüvvədə olan "Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" sənədə edilmiş əlavələr çərçivəsində həyata keçirilib.

Dövlət Xidmətinin məlumatına görə, ümumilikdə 550 tarixi abidənin inventarlaşdırılması prosesi artıq başa çatdırılıb. Bu abidələr işğaldan azad olunmuş ərazilərdə yerləşir və dövlət mühafizəsinə götürülüb. Paralel olaraq, aparılan monitorinqlər zamanı daha 402 abidə - tarixi, memarlıq və arxeoloji baxımdan əhəmiyyətli obyektlər müəyyənləşdirilərək "yeni aşkar edilmiş abidələr" kimi qeydə alınıb.

İnventarlaşdırma zamanı aşkarlanan faktlar Ermənistanın mədəni irsimizə qarşı törətdiyi vandalizm aktlarını bir daha üzə çıxarıb. Dövlət Xidməti bildirir ki, 68 abidə tamamilə dağıdılıb,114 abidə qismən və ya ciddi dərəcədə zədələnib,əksər abidələr təhqir olunub, tövlə və anbar kimi istifadə edilib.

Bütün bu hallar sənədləşdirilərək müvafiq qurumlara təqdim olunub.

Xidmətin açıqlamasında vurğulanır ki, sonuncu dəfə daşınmaz abidələrin siyahısı 2001-ci ildə təsdiq edilib və aparılan təhlillər zamanı həmin siyahıda ciddi çatışmazlıqlar - adların, tarixlərin uyğunsuzluğu, əhəmiyyətli abidələrin ümumiyyətlə daxil edilməməsi kimi faktlar aşkarlanıb.

Məhz bu səbəbdən Mədəniyyət Nazirliyi yanında Daşınmaz Mədəni Sərvətlərin Müəyyən edilməsi üzrə Ekspert Şurası tərəfindən siyahının yenilənməsi və mövcud uyğunsuzluqların aradan qaldırılması istiqamətində işlər fasiləsiz davam etdirilir.



Ələmdar MƏMMƏDOV

# Mən bu zamana sığmazam

## Zirvəyə doğru: İlyas - İlahi qüvvə, köməyə gələn

**(əvvəli qəzetin ötən saylarında)**

### *Hər şeyi kadrlar həll edir...*

**İlyas İsmayılov Respublika prokuroru olarkən kadrların seçilib yerləşdirilməsində hansı meyarları əsas götürməsini 1981-ci ildə çapdan çıxmış "Prokurorluq işçilərinin mənəvi tərbiyəsi" adlı kitabçasında belə qeyd edirdi: "Dövlət orqanları sistemində prokurorluğun tutduğu yer, sosial təyinatı elədir ki, prokurorluq bütünlükdə qanunçuluğun vəziyyətinə görə məsuliyyət daşıyır... Prokurorluq işçisi ədalətə dərindən inanıb, bu yolda heç bir çətinlikdən qorxmadan mübarizə apararsa, hadisələri şəxsi baxımdan deyil, xalqın nöqteyi nəzərindən araşdırarsa həmişə hamının nəzərində siyasi xadim səviyyəsində durmuş olar. Yerli təsirə qarşı durmaq qabiliyyətini itirən, prinsipsiz mövqe tutaraq qanunların pozulmasına göz yuman prokuror öz sosial təyinatının əleyhi-nə getmiş olur."**

İlyas müəllimin bütün fəaliyyəti dövründə kadrlara münasibəti məhz bu prinsiplər əsasında formalaşmışdı.

...1987-ci ildə SSRİ Baş prokuroru Rekunkov və SSRİ Təhsil naziri İlyuşinin birgə məktubu var idi. Həmin məktubda gələcəkdə prokurorluq orqanlarında işə qəbul ediləcək abituriyentlərin se-çilməsi tövsiyə olunurdu. Azərbaycan Respublikası Prokurorluğunda bu işə məsul həmin vaxt Ümumi nəzarət şöbəsinin rəisi İsaxan Vəliyev idi. Kadrların seçilməsinə xüsusi diqqət yetirən İlyas müəllim seçilmiş tələbələrlə görüşür, bilik səviyyəsi ilə tanış olub, tövsiyələrini verirdi.

Bundan başqa, İlyas müəllim həm də Dövlət İmtahan Komissiyasının sədri kimi imtahanlarda iştirak edir və təyinatla prokurorluğa düşməsə də, ləyaqətli və savadlı məzunları işə qəbul edirdi.

Bu barədə hazırda təqaüddə olan baş ədliyyə müşaviri Abdulla Yusifov belə deyir:

"İ.İsmayılov 1988-ci ildə Dövlət İmtahan Komissiyasının sədri kimi imtahanlarda iştirak edirdi. Hiss edirdim ki, mənim danışığım onun xoşuna gəlir. Müəllimlər arada bir-biri ilə danışarkən mən fürsətdən istifadə edərək, tələbə bicliyi işlədib, təkrarçılıq etmək istədim. İlyas müəllim elə birinci cümləmdə mənə iradını bildirdi. Sonra O, bir Şəki lətifəsi də danışdı. Mən imtahanda əla qiymət aldım. Hiss etdim ki, İlyas müəllim əlindəki dəftərə nə isə yazdı. Təyinatda mən Ədliyyə Nazirliyinə düşmüşdüm. Hətta Oğuz rayonunda vəkil olmalı idim. Əsas təyinat zamanı birinci prokurorluq orqanlarına düşənlərin adı oxunurdu. Mənim adım çıxanda hamı kimi mən də təəccüb etdim. Prokurorluqda işləməli olanları İlyas müəllim özü qəbul edirdi. Onun bütün danışığı və tövsiyələri ədalətli və humanist olmağa yönəlmişdi".

Sonralar Abdulla Yusifov İlyas müəllimin etimadını tam doğruldanlardan biri oldu.

Rayon prokuroru, Baş Prokurorluğun idarə rəisinin müavini, Bakı şəhər Prokurorluğununun Dövlət İttihamı İdarəsinin rəisi vəzifələrində işləyən Abdulla Yusifov bütün həyatı boyu ədalət axtarışında olub, bu yolda hədsiz məhrumiyyətlərə məruz qalaraq, hətta vəzifə kürsüsündən endirilməsi və sonradan öz xahişi ilə prokurorluq orqanlarından xaric olunması məgər İlyas İsma-yılovun ədalətli mövqeyinin təsiri deyildimi?..

İlyas İsmayılov müsahibələrinin birində bu barədə belə deyir: "Mən hesab eləyirəm ki, ədalət bizim bütün ictimai və fərdi həyatımızın əsas qanunu olmalıdır. Təbiətdə baş verən sunamiləri, zəlzələləri, vulkanları və digər kataklizmləri dəqiq elmlərin nümayəndələri günəş şüalarının yer üzərində ədalətsiz bölünməsiylə izah edirlər. Ədalətsiz cəmiyyətdə də həmişə siyasi təlatümlər olur. Odur ki, ədalət bizim əsas meyarımız olmalıdır. Biz həmişə ədalətə yaxınlaşmağa çalışmalıyıq. Öz şəxsi maraqlarımız üçün ədaləti qurban verməli deyilik. Mən özümü belə tərbiyə eləmişəm. Həmişə yazılarımda da bunu deyirəm. Çünki mən ədalət hissinə inanıram. Sən bir dəfə həyatda yaşayırsan, onu da ləyaqətlə yaşamalısan. Bunun üçün Xeyir və Şərin mahiyyətini dərk edib Xeyirin yanında olmalısan, vətən və vicdan borcunu unutmamalısan, fədakarlıq və ədalətlilik nümayiş etdirməlisən".

Təqaüddə olan baş ədliyyə müşaviri Mircavan Kazımov da İlyas İsmayılov ədalətini hiss edənlərdən biridir. M.Kazımovun dediklərindən:

"İlyas müəlimlə mən ilk dəfə 1985-ci ildə hüquq fakültəsində dövlət imtahanı verərkən və diplom müdafiəsi zamanı qarşılaşmışam. İlyas müəllim dövlət imtahan komissiyasının sədri idi. Həmin dövrdə prokurorluq orqanlarına işə qəbul olunacaq əlaçı və digər müsbət keyfiyyətləri ilə fərqlənən tələbələrlə Respublika Prokurorluğunun əməkdaşları tərəfindən imtahandan əvvəl gö-rüslər olur, söhbətlər aparılır, kadrlar seçilir, Respublika Prokurorluğuna dəvət olunurdu. Orada da zəruri yoxlamalar aparılırdı və dövlət imtahanından sonra təyinatla prokurorluq orqanlarına qulluğa qəbul olunurdular. Mən də dövlət imtahanına qədər bütün bu proseslərdən müvəffəqiyyətlə keçdim və həmin siyahıya daxil edildim. Dövlət imtahanlarının başlanmasından bir gün əvvəl mərhum dekan İsa Məmmədov məni yanına çağırıb bildirdi ki, adım prokurorluq orqanlarına təyinat alınması nəzərdə tutulan siyahıdan çıxarılıb, seçim etməliyəm, ədliyyə və ya daxili işlər orqanları və fikrimi bu gün bildirməliyəm. Əlaçı olduğuma görə mənə belə sərbəstlik verilmişdi. Mən ədliyyə orqanlarını seçdim. Səhərisi günü elmi kommunizm fənnindən dövlət imtahanı oldu. Təyinatda olan dəyişiklik mənə çox pis təsir etmişdi. Ona görə də dörd qiymət aldım. Dövlət hüquq nəzəriyyəsindən İlyas müəllimin sədrliyi ilə imtahan verdim, əla aldım. Hətta, yadımdadı, birinci suala cavab verdikdən sonra hörmətli professorumuz Məsmə xanım soruşdu ki, İlyas müəllim icazə verirsiz, tələbə ikinci suala keçsin, İlyas müəllim cavab verdi ki, keçsin, mən birinci suala əla yazmışam. İlyas müəllimin sədrliyi ilə ikinci imtahan cinayət hüququ fənnindən oldu. Həmin imtahandan da əla aldım. Sonuncu diplom işinin müdafiəsi idi. Müdafiə zamanı dekanımız İsa müəllimlə mənim aramda məcmu cinayətlərin tövsifi və cəza təyini mə-sələlərinin izahı ilə əlaqədar fikir ayrılığı yarandı. İlyas müəllim müdaxilə etdi, mənim mövqeyimlə razılaşdı və mən müdafiədən də əla qiymət aldım.

Ona görə də İlyas müəllim mənim nəzərimdə, qəlbimdə obyektiv, savadlı, prinsipal bir şəxsiyyət kimi qalıb və qalacaq.

Təyinatla Ədliyyə Nazirliyinin Ekspertiza İnstitutuna göndərildim. Bir il işləyəndən sonra İnstitutun direktoru mərhum İdris Əliyev məni otağa çağırıb soruşdu ki, prokurorluq orqanlarında isləmək istəyirsən? Cavab verdim ki, İdris müəllim, kimdi məni prokurorluğa qəbul edən. Cavabında İdris müəllim bildirdi ki, İlyas müəllim səninlə maraqlanır, mən müsbət fikir




bildirdim, yəqin ki səni qısa vaxtda Respublika Prokurorluğuna dəvət edəcəklər. Elə də oldu, qısa müddətdə mən prokurorluq orqanlarında qulluğa qəbul edildim".

Yuxarıdakı xoş xatirəni, səmimi ürək sözlərini bizimlə paylaşan Mircavan Kazımov işlədiyi bütün vəzifələrdə insanlarla səmimi rəftarı, ədalətli davranışı ilə həmişə ictimaiyyətin hörmətini qazanmışdır. Onun Masallı rayon prokuroru kimi beş illik Konstitusiya müddətinin başa çatması ilə əlaqədar rayon ictimaiyyətinin iştirakı ilə RİH-də iclas keçirildi. Qədirbilən masallılar prokurorun beşillik fəaliyyətini yüksək dəyərləndirib, hamılıqla ona yaxşı yol arzuladılar.

Haşiyə: Təvəzörkarlıqdan uzaq olsa da, özümlə əlaqədar bir hadisəni də nəql etmək istəyirəm. 1997-ci ilin aprel ayında 5 illik Konstitusiya müddətimin başa çatması ilə əlaqədar Zaqatala rayon prokuroru vəzifəsindən azad edilib, Goranboy rayon prokuroru vəzifəsinə təyin olundum. Həmin ilin oktyabr ayında Zaqatala rayon prokurorluğunun müstəntiqi Fərrux Babayev məni öz toyuna dəvət etdi. Toya dörd nəfər yaxınımla birlikdə getdim. Düzü, yolboyu həyəcan keçirirdim.

Prokuror vəzifəsi digərlərindən cox fərqlidir. Axı, beş ildə yüzlərlə adamın həbsini və axtarışını sanksiyalaşdırmışdım! Saat 20 radələrində Zaqatalaya çatdıq. Mən şadlıq sarayına daxil olan kimi musiqi səsi kəsildi. Aparıcı gəldiyimi elan etdi. Hansı masanın yanından keçirdimsə, hamı ayağa qalxıb, mənimlə görüşüb öpüşürdü. Bizim üçün ayrılmış masaya 15 dəqiqəyə çata bildim. Göstərilən münasibətin həyəcanından məni tər basmışdı. Buna baxmayaraq, həmin anları həyatımın ən xoşbəxt günlərindən hesab edirəm.

Əziz oxucular, budur, İlyas İsmayılovun ədalət məktəbinin nəticəsi! O böyük insan, ziyalı, hüquq-mühafizə orqanlarının işıqlı adamı, ədalət carçısı İ.İsmayılov barədə söylənilən xoş xatirələr, işıqlı arzular, sağlığında qazanılan rəhmətlər bitib-tükənmir.

Peşə yollarındakı işıqda, nurda, uğurda İsmayılovun əməyinin böyük olduğunu qürurla danışanlardan biri də bir neçə rayonda prokuror vəzifəsində işləmiş, hazırda təqaüddə olan baş ədliyyə müşaviri Afər Nəsirovdur.

İlyas İsmayılovla bağlı xoş xatirələrini Afər müəllimin özündən eşidək:

"İlyas müəllim mənim üçün böyük şəxsiyyət, əsil ədalət və kişilik nümunəsidir. Mən Qax rayonunun ucqar dağ - Saribaş kəndində kasib bir ailədə anadan olmusam. Həqiqi hərbi xidməti başa vurduqdan sonra 1979-cu ildə ADU-nun hüquq fakültəsinin axşam şöbəsinə daxil oldum. 1985-ci ildə Dovlət İmtahan Komissiyasının sədri həmin ilin Yanvar ayında Respublika prokuroru vəzifəsinə təyin edilmiş İ.İsmajilov idi. O, Komissiyaya çox ədalətli rəhbərlik edirdi və mənim cavablarımdan xoşu gəlmişdi. İmtahan biletindəki sualları cavablandırdıqdan sonra harada işləməyimi soruşdu. Fəhlə işlədiyimi biləndə dəftərinə nə isə qeyd etdi. Bir neçə aydan sonra Respublika Prokurorluğundan gələn məktubla 212-ci kabinetə dəvət olundum. Kadrlar idarəsinin rəisi Fərrux Vəkilov mənimlə 40-45 dəqiqə söhbət etdikdən sonra Respublika prokurorunun müavini Mirağa Cəfərquliyevin yanına apardı. Mirağa müəllim də təxminən yarım saat söhbət etdikdən sonra məni prokurorluq orqanlarına işə qəbul etmək istədiklərini, lakin təklif edilən rayon və vəzifəylə razılaşmalı olduğumu bildirdi.

Biz birlikdə Respublika prokuroru İlyas İsmayılovun qəbuluna getdik. İlyas müəllim yaraşıqlı ağ kostyumda möhtəşəm görünürdü. O, məni görən kimi imtahan anlarını yada salıb, ailə vəziyyətimlə maraqlandı və soruşdu:

**- Harda vakant yerimiz var?**

Mirağa müəlim dedi:

**- Naxçıvan və Kürdəmirdə boş yerimiz var.**

İlyas müəllim bir qədər fikirləşib dedi:

**- Zaqatala Rayon Prokurorluğuna stajyor-müstəntiq vəzifəsinə təyin edilməsi barədə əmr hazırlayın ki, ailəsinə yaxın olsun.**

13 iyun 1985-ci ildə İlyas müəllimin əmri ilə Zaqatala Rayon Prokurorluğuna stajyor-müstəntiq vəzifəsinə təyin edildim.

Həyəcandan sifətim ağarmışdı. İlyas müəllim soruşdu ki, xəstə deyilsən ki? Mən cavabında:

**- Həyatımın ən xoş gününü yaşayıram, İlyas Abasoviç, - dedim.**

İlyas müəllim Fərrux Vəkilova müraciətlə dedi:

**- Fərrux Gərayeviç, bir taksi çağır, Nəsirovu Zaqatalaya yola sal.**

Beləliklə, taksi maşını ilə Zaqatala rayonuna gəlib işimə basladım.

Mən həmişə özümü İlyas İsmayılovun kadrı hesab etmişəm. Xatirimdədir, əmri imzalayandan sonra İlyas müəllim məndən soruşdu:

**- Prokurorluqda işləyəcəyini ağlına gətirirdinmi?**

Cavabında:

**- İlyas Abasoviç, əvvəllər inanmırdım, lakin Sizin dövlət imtahanında ədalətli mövqeyinizi görəndən ümidim yaranmışdı, - dedim.**

**(ardı var)**

---

### *20 yaşında öz dövlətini qurdu, vətəndaşları da var*

**Cəmi 20 yaşı olan britaniyalı Daniel Cekson uşaq vaxtlarından xəyal etdiyi ölkəni qurmağa nail olub.**

**Adalet.az xarici KİV-ə istinadən xəbər verir ki, o, Tuna çayı boyunca yerləşən və 125 dönümdən daha kiçik meşəlik ərazidə "Verdis Azad Respublikası" adlı öz dövlətini elan edib.**

**Gənc Cekson deyir ki, bu ideya onun ağlına hələ 14 yaşında gəlib:**

**"Verdis əvvəlcə dostlarla etdiyimiz bir eksperiment idi. Hamımız dəli bir şey yaratmaq istəyirdik."**



**Verdis, coğrafi baxımdan "Pocket Three" (Cep Üç) adı ilə tanınan, Xorvatiya və Serbiya arasında yerləşən, heç bir dövlətə məxsus olmayan bir ərazidə qurulub.**

**Cekson bu "boz zona"nı kəşf etdikdən sonra, 2019-cu il mayın 30-da Verdisin müstəqilliyini elan edib.**

**Ölkənin rəsmi dilləri ingilis, xorvat və serb dilləridir. Rəsmi pul vahidi isə avrodur. Verdisə yalnız Xorvatiyanın Osiyek şəhərindən çay yolu ilə daxil olmaq mümkündür. Lakin gəncin əraziyə yerləşmək cəhdləri Xorvatiya hakimiyyətinin sərt reaksiyası ilə qarşılanıb.**

**2023-cü ilin oktyabr ayında Cekson və bir neçə həmkarı Xorvatiya polisi tərəfindən saxlanılıb, sərhəddən çıxarılıb və Ceksona ömürlük ölkəyə giriş qadağası qoyulub.**

**O bildirir ki, Xorvatiya rəsmiləri onları milli təhlükəyə təhdid kimi qiymətləndiriblər və hazırda o, "sürgündə olan lider" olaraq fəaliyyətini davam etdirir.**

**Verdisin vətəndaşlıq sisteminə 15 mindən çox insan müraciət edib, onlardan 400 nəfər qəbul olunub.**

**Qəbul edilən hər bir şəxsə Verdis pasportu təqdim olunur. Lakin Cekson həmin pasportun beynəlxalq səfərlərdə istifadə edilməməli olduğunu vurğulasa da, bəzi şəxslərin bu sənədlə başqa ölkələrə daxil olduğu bildirilib.**

**Hazırda vətəndaşlıq üçün müraciətlər davam edir və üstünlük tibb və təhlükəsizlik sahəsində ixtisaslaşmış şəxslərə verilir.**

## "Bakcell" və "Uber" tərəfdaşlığı genişlənir

**İnnovasiya və sürət lideri "Bakcell" dünyanın aparıcı taksi aqreqatorlarından biri olan "Uber" ilə əməkdaşlığını davam etdirir. "Uber" platforması vasitəsilə hər sifariş zamanı sərnişinlər səyahət boyu "Bakcell"in ödənişsiz təklif etdiyi 1GB həcmində internet paketindən faydalana biləcəklər.**

Adalet.az xəbər verir ki, təklifdən yararlanmaq üçün "Uber" tətbiqi üzərindən sifariş zamanı "Fastest" kateqoriyasındakı tariflərdən birini seçmək kifayətdir. Təqdim olunan 1 GB internet paketi sərnişinlər üçün 30 dəqiqə ərzində keçərli olacaq. "Bakcell" və "Uber"in istifadəyə verdiyi bu innovativ xidmət sürət və bağlantını bir araya gətirərək sərnişinlərə daha səmərəli və fərqli səyahət təcrübəsi qazandıracaq.

"Bakcell" davamlı olaraq abunəçilərinin gündəlik təcrübəsini zənginləşdirən innovativ məhsul və həllər təqdim edir. Belə ki, son bir il ərzində şirkət Azərbaycanda "Birinci Tariff", "Tarif məsləhətçisi", "VoWifi", "Bakcell Fiber", "Star tarifləri" daxil olmaqla süni intellekt, texnologiya və son dövr yeniliklərə əsaslanan məhsul və xidmətlərini istifadəyə verib.

Təklif barədə daha ətraflı məlumatı "Bakcell"in saytından və ya rəsmi sosial şəbəkə hesablarından əldə etmək mümkündür.

**"Bakcell" haqqında**

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan "Bakcell" süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir. "Bakcell" müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

## Xroniki öskürək bununla əlaqəli ola bilər

**Xroniki öskürək hər zaman ağciyər xəstəlikləri və ya infeksiyalarla əlaqəli olmaya bilər. Bəzi hallarda problemin əsasında sinir sistemindəki pozğunluqlar dayanır.**

Adalet.az xəbər verir ki, bu qənaətə İngiltərənin Lester Universiteti, Danimarkanın Kopenhagen Universiteti və Londonun Kraliça Mariya Universitetinin tədqiqatçıları gəlib.

Alimlər beş beynəlxalq bioloji məlumat bazasından əldə edilən 30 minə yaxın insanın sağlamlıq məlumatlarını təhlil ediblər. Onlar xroniki öskürəkdən əziyyət çəkən insanlarda müəyyən genetik fərqliliklərin daha çox müşahidə olunduğunu aşkar ediblər. Bu fərqliliklər əsasən sinir hüceyrələrinin - xüsusilə də ağrı və digər həssas siqnalları ötürən neyronların fəaliyyətində dəyişikliklərlə əlaqəlidir.

Tədqiqatçılar izah edirlər ki, davamlı öskürək refleksi mərkəzi və periferik sinir sisteminin həddindən artıq həssaslaşması nəticəsində yarana bilər. Belə hallarda öskürək, əslində, xroniki ağrının bir forması kimi - hətta minimal və ya heç bir qıcıqlandırıcı olmadan da baş verə bilər.

Bu yeni anlayış müalicəyə yanaşmada dönüş nöqtəsi ola bilər. Alimlər bildirirlər ki, simptomları sadəcə aradan qaldırmaq əvəzinə, sinir sisteminə təsir edən preparatların istifadəsi daha səmərəli ola bilər. Bu yanaşma ənənəvi dərmanlarla - məsələn, soyuqdəyməyə qarşı və ya allergiyaya qarşı preparatlarla nəticə əldə etməyən pasiyentlər üçün ümidverici sayılır.

## "AzerGold" QSC və onun törəmə şirkətlərinin ötən ilin yekunlarına dair maliyyə nəticələri açıqlanıb

**"AzerGold" QSC-nin və onun törəmə şirkətləri- "Daşkəsən Dəmir Filiz" MMC və "AzerBlast" MMC-nin 2024-cü ilin yekunlarına dair maliyyə hesabatları açıqlanıb.**

Beynəlxalq nüfuzlu müstəqil auditor şirkəti - "Pricewaterhouse-Coopers" tərəfindən aparılan maliyyə yoxlamaları nəticəsində müsbət auditor rəy verilən maliyyə hesabatlarına əsasən Səhmdar Cəmiyyətin və onun törəmə şirkətlərinin birgə maliyyə nəticələrində pozitiv tendensiyalar qeydə alınıb. Ötən ili də yüksək gəlir və mənfəətlə başa vuran Cəmiyyət bütün göstəricilər üzrə mövqeyini daha da möhkəmləndirib. Ümumilikdə, 2023-cü illə müqayisədə satış gəlirləri 2024-cü ildə 35% artaraq 182.69 milyon ABŞ dolları səviyyəsinə yüksəlib. Hesabat ilində qiymətlilərin satış həcmi 9% artaraq, 70.5 min unsiya qızıl və 97.5 min unsiya gümüş təşkil edib.

2024-cü ildə istehsalat həcmi və satış gəlirlərinin artması nəticəsində "AzerGold" QSC və onun törəmə şirkətlərinin əməliyyat mənfəətini xarakterizə edən EBITDA göstəricisi 27.5% artaraq 89.88 milyon ABŞ dolları səviyyəsində qeydə alınıb. Nəticədə xalis mənfəət 2023-cü illə müqayisədə hesabat ilində 21.3% artaraq 33.02 milyon ABŞ dolları təşkil edib. Səhmdar Cəmiyyətin 2024-cü il üzrə ümumi aktivlərinin dəyəri 488.35 milyon ABŞ dolları təşkil edib, bu əvvəlki ilin analoji göstəricisi ilə müqayisədə 4.3% artıma bərabərdir.

Həmçinin "AzerGold" QSC və onun törəmə şirkətlərinin 2024-cü ildə xalis dövriyyə kapitalı 3.1% artaraq 105.22 milyon ABŞ dolları, ümumi kapitalı 26% artaraq 399.78 milyon ABŞ dolları təşkil edib.

"AzerGold" QSC və onun törəmə şirkətlərinin 2024-cü il üzrə göstəriciləri dövlət şirkətinin və onun törəmə şirkətlərində yüksək maliyyə dayanıqlığının mövcudluğunu təsdiqləyir.

2024-cü il üzrə konsolidə edilmiş maliyyə nəticələri ilə ətraflı tanış olmaq üçün linkə keçid edə bilərsiniz.

**VAQİF YUSİFLİ**
**Filologiya elmləri doktoru**



# VƏTƏN VƏ SEVGİ ŞEİRLƏRİ

**Anar Seyidağa Lənkəran ədəbi mühitində yetişmiş, formalaşmış və tezliklə Bakıda -qaynar ədəbi mühitdə də özünü istedadlı bir şair kimi tanıtmışdır.**

**Onun "Heyf bu sevgidən" şeirlər kitabına ön söz yazan görkəmli nasir Əlibala Hacızadə hələ 1997 -ci ildə Anarın istedadını yüksək qiymətləndirmiş,ona bir sıra dəyərli məsləhətlərini də əsirgəməmişdi: "Heyf bu sevgidən" kitabını mən məhəbbət nəğməsi kimi şirin-şirin oxudum, sevindim, kövrəldim. Şair sözü böyük sözdü. Onu hər kəsin adının qabağına yazmırlar və hər kəs də bu adı şərafətlə qoruyub axıracan saxlamır, saxlaya bilmir. ..Sənə tövsiyəm ancaq budur ki, o nakam sevgi dairəsindən çıx, ətrafına bax; yazılmalı, deyilməli dərdlərimiz çoxdur-onları gör və yaz. Torpağımızdan, taleyimizdən yaz! Onda sən əsl şair kimi qüdrətli olarsan, Anar!"**

**Anar Seyidağanın ilk iki şeir kitablarında doğrudan da əsas mövzu SEVGİ idi- onun lirik qəhrəmanı incidilmiş bir qəlbin hiss-həyəcanlarını ifadə edir, ondan uzaqlaşan sevgilisinin qayıdışına ümid bəsləyir, özünün həqiqi aşiq olduğunu bəyan edirdi. "Dünyanın ən qərib sevəni" olan bu gənc aşiq öz sevgisində inadkar idi, o, sevgiyə onu yaşadan mənəvi bir qüvvə, istinad kimi baxırdı:**

*Sevgimiz dillərə bir məsəl olsun,*
*İnanma, sevgimdə bir xəzəl olsun.*
*Dünya başdan-başa qoy gözəl olsun,*
*Mən səni sevməyə bilmərəm axı!*

**Onun sevgi şeirlərinə xas olan və lirik qəhrəmanın-sevən aşiqin xasiyyət və xarakterini ifadə edən ayrılıq həsrəti, kədər və üzüntü halları, bəzən peşimançılıq, bəzən də səmimi etiraflar - Anarın şeirlərində qəmli bir "sevgi dastanı"nı xatırladırdı. Ancaq bu "sevgi dastanı" gec-tez başa çatmalıydı, vüsalla bitməməliydi.Anarın lirik qəhrəmanı elə o zamanlar dərk edirdi ki, sevgi insan həyatının dayaq nöqtəsidir- "hamı yaşamır, hamı..Təkcə sevənlər yaşayır", "Bir az çox yaşamaqçün bir az çox sevmək lazımdır". Sevgi isə təkcə bir qızın eşqilə yaşayıb hicran alovlarında yanmaq ya da onun məhəbbətindən güc alıb həyat yollarında inamla addımlamaq deyil. Vətən sevgisi var, təbiətə vurğunluq var, gözəllikləri duymaq var. Yaşamağın mənasını dərk etmək var. Torpağı sevmək var. Və böyük Azərbaycan sevgisi var.**

***Yurd həsrəti didir məni,***
***Torpaq, gəlim səcdənə mən.***
***Külümü də itir mənim,***
***Torpaq, gəlim səcdənə mən.***

**Anar Seyidağanın "Salam" şeirində isə təbiətə, onun gözəlliklərinə və konkret olaraq bu gözəlliyi özündə əks etdirən ağaclara böyük sevgisi ifadə olunur. Bu şeirdə İnsan və Təbiət vəhdəti əks olunur. Təbiətin İnsanla, İnsanın Təbiətlə bağlılığı poeziya həqiqətinə çevrilir.**

***Salam, Çinar ağacı,***
***Uca Çinar, Xan Çinar.***
***Hay ver ucalığından.***
***Əsən yelə əyilmə,***
***Pay ver ucalığından.***
***Gəldim halallıq alım***
***Verim xəbər-gedirəm.***
***Daha da ucalasanq-***
***Deyə -Əçsgər gedirəm.***
***Salam, Palıd ağacı,***
***Salam Dəmirağacı.***
***Salam, Əncir ağacı.***



**Anar Seyidağanın ikimininci illərdə yazdığı şeirlər isə onun yaradıcılığında yeni bir dönüşün başlandığını əks etdirir. O, şairin vətənpərvərlik missiyasını düzgün dərk etdiyindən sevgi şeirləri ilə yanaşı, Vətənə həsr etdiyi şeirləriylə də diqqəti cəlb edir.. Ancaq Vətəni bir çox şairlərdən fərqli olaraq standart və şablon ifadələrlə, təşbihlərlə vəsf etmir. Nədir Vətən? Bu müqəddəs kəlmənin poetik izahını Anar belə şərh edir:**

*Qızım, sual etdin, düşündüm mən də,*
*Hikməti, mənası çox-çox dərində,*
*Dinində. Dilində, nəğmələrində*
*Özünü tapdınmı-Vətən deməkdir.*

*Övladın boynunda ən müqəddəs haqq*
*Vətəni qorumaq olmalı ancaq.*
*Ayağın altında əzdiyin torpaq*
*Əyilib öpdünmü-Vətən deməkdir.*

**Anarın şeirlərində XXI əsrin bir azərbaycanlı-igid, vətənpərvər obrazı diqqəti xüsusilə cəlb edir ki, bu obraz onun yaradıcılığında bir hadisə hesab oluna bilər. Bu obrazın timsalında biz Vətən uğrunda şəhid olan döyüşçülərimizi, Vətəni sevən, onun uğrunda canını belə qurban verən cavanlarımızı, qan yaddaşına sadiq qalan yurddaşlarımızı görürük.**

***Qoy bir şəhid qardaşı***
***Mənə də "qardaş" desin-***
***Dayanım arxasında***
***Bütün ömrüm boyunca.***

***Qoy bir şəhid balası***
***Mənə də "əmi" desin-***
***Sığavllayım saçını,***
***Öpə bilim doyunca.***

***Qoy bir şəhid atası***
***Mənə də "oğul" desin-***
***Xankəndi yürüşünə***
***Bayraqdar keçəcəyəm!***
***Qoy bir şəhid anası***
***Mənə də "balam" desin-***
***Onda mən***
***Ölərəm sənin üçün:***
***Ölərəm Anam-***
***Ölərəm Vətən!***

**Anar Seyidağanın ikimininci illərdə yazdığı şeirlərin mövzusuna nəzər yetirdikdə, bir rəngarənglik müşahidə edirik. Amma ən əsası odur ki, Anar hər hansı mövzuda yazdığı şeirdə heç bir sözçülüyə, şablona yol vermir, şeirin bədii-poetik sanbalına önəm verir. Onun bədii təsvir vaayrı şeirlərində sitələri ilə şeiri hissi-emosional, obrazlı şəkildə ifadə etməsinə ayrı-ayrı şeirlərində tez-tez rast gəlirik.Məlumdur ki, şeir təkcə şairin hansı bir fikri üzərində qurulur, lakin bu fikir quru sillogizmlərlə ifadə olunmamalıdır, burada ağılla hissiyyat, ürəklə ağıl vəhdət təşkil etməlidir. O, "Ana" şeirində Ana ilə Allah arasında bənzərliyi "kəşf" edir, "Belə Allah ola, Sevəsən onu..Anam kimi Allah istəyirəm mən" deyir,. Ümumiyyətlə, onun bir sıra şeirlərində Allaha müraciətlər diqqəti cəlb edir, "görən alın yazında məndən nə yazıb Allah" sorğusuna gəlir. Hər hansı bir məfhuma poetik məna vermək bacarığını da xüsusi qeyd etmək lazımdır. "Darıxmaq, nəfəs, quş dili, qızdırma, barmaq, ad və s. sözlər onun şeirlərində poetik məna kəsb edir.**

**Anarın son beş ildə yazdığı şeirlərdə fikir-düşüncə poeziyasının aparıcı xəttə çevrildiyini müşahidə edirik. Öncə qeyd etdik ki, şeir təkcə fikir üzərində qurulmur, burada fikirlə hissin-bədiiliyin vəhdəti olmalıdır. Amma onu da unutmaq olmaz ki, bir sıra şeirlərdə fikrin aparıcı rolu diqqəti cəlb edir, təbii ki, şairləri ölüm-həyat, varlıq-yoxluq, cənnət-cəhənnəm və s. fəlsəfi fikirlər daha çox maraqlandırır. Bu fəlsəfi fikirlər poeziyada da əks olunur. Və Azərbaycan poeziyası filosof-şairlərin zəngin yaradıcılığı ilə zəngindir.**

**Anar Seyidağa da bu şairlərin yaradıcılığından təsirlənir. "Çıxır" şeirinə diqqət yetirək:**

*Suyu tez quruyar, mənsəbə çatmaz,*
*Hansı çayın qolu axından çıxır.*
*Dost göyə çəkilib olur əlçatmaz,*
*Düşməni axtarma, yaxından çıxır.*

*Arlı tutar üzün çox güldüyündən,*
*Hərəsi danışar öz bildiyindən.*
*Halallıq gəzirdim quş dimdiyindən,*
*O da bir bağbanın bağından çıxır.*

*Dadını çıxarma daha acının,*
*Şəklinin əksi yox son əlacının.*
*Dincəl kölgəsində dar ağacının;*
*Ha günəş solundan, sağından çıxır.*

**Anar Seyidağanın yaradıcılığı - müasir poeziyamızda özünəməxsus fərdi üslubu, yazı manerası ilə diqqəti cəlb etməsi onun gələcək poetik uğurları üçün bir örnəkdir.**



# BAYAT



№ 49 (909)

## O qız od tökürdü gözündən o gün, O qızın baxışı qanlı bir baxış



Barat Vüsal

### DÜNYANIN ÖMRÜ

Bu sənət yarışı həyat yarışı,
Tökülən alnımın təridi, qardaş.
Açılsa qovğadan şairin başı.
Kərənin qırılan yeridi, qardaş!

Məni özü bilər duyub-duymayan,
Anlayıb, anmayıb, sayıb-saymayan,
Uduzar şairlə oyun oynayan,
Əlində taleyin zəridi, qardaş!

Baxma ki, çinardı qəfil budanan,
Baxma ki, öz ömrü gödəkdi yaman.
Tükənmək bilməyən bu vaxt, bu zaman
Hansı bəxtəvərin şeridi qardaş!?

Yayıl yer üzünə ey şerim-nəğməm,
Əsmə, kəndirimi kəsmə, ey qələm!
Həyatın bir güvənc yeri də mənəm,
Dərdim onun dərdi-səridi, qardaş!

Duy bircə misranın fəlsəfəsini,
"Allah da çox sevir şerin səsini".
Şairdi fırladan yer kurəsini,
Ya şair qəlblinin biridi, qardaş?

Mümkündü, o nadan bir dərman ala,
Hayfını azardan-bezardan ala.
Şeri satmırlar ki, bazardan ala,
Allahın sehridi, sirridi, qardaş!

Kim ki, şairinə qıyır dünyanın,
Barat, o, qəlbinə dəyir dünyanın.
Uzanan ömrüdü şair dünyanın,
Ən yaxşı xeyridi-bəhridi, qardaş!

* * *

Qata-qata göz yaşına,
Oxşatmayın başqasına.
Baş daşından başdaşına,
Çaxır qəbirstanlar məni.

Neylim, çıxıb uğruma,
Nədi, görüm axırı nə?
Elə bilmə axırıma
Çıxır qəbirstanlar mənim.

Qəmin, dərdin vədəsidi,
Nə ayrıydı, nə dəs idi?!
Etsə gördüm edəsidi
Oğul...qəbirstanlar məni?!

Olan olur, huşda qalır,
Qəbir itir, daşsa qalır.
Anam əli boşda qalır,
Doğur qəbirstanlar məni?

### AĞ ÇİÇƏK

Ağ günlərə çıxmalıydın,
çıxdın vətən,
Ağ günləri əllərində
möhkəm saxla!
Ağ günləri sənə haram edəcəklər,
Hələ hərdən səni susuz, ac qoymaqla,
İşığını sozaltmaqla,
Ocağını qaraltmaqla...

Hələ sinən para-para,
hələ sinən yara-yara,
Yaran köz-köz,
yaran göz-göz!
Hələ hansı addımdasa,
gəlir yenə günün qara,
çox dözmüsən ana Vətən.
buna da döz,
buna da döz!

Sənə baxıb öyünürəm,
yurdum, "əhsən!" - deyə-deyə,
Deyirəm ki, salam sənə,
Cavid ruhu, Müşfiq ruhu, Səməd ruhu,
Ağ günlərin ömrü-günü
daha uzun olsun deyə,
Xoş yaraşır anam, sənə,
Üzeyirin "Koroğlu"su!
Xoş yaraşır anam, sənə,
sənət ruhu!
Xoş yaraşır anam sənə,
özgənin yox,
öz süfrənin çörək-suyu.

Sən dözmüsən taleyinin
min qəminə,
Öz yolundan dönməmisən
amma Vətən!
Diz çökürəm daha gözəl
gün naminə,
Mən öpürəm bir az solğun,
qarayanız günlərinin
əllərindən!
Bəli, bir az qaralıq var,
suyu şirin sifətində,
Mərd dayansaq, bərk dayansaq,
zaman yuyub aparacaq!
Həmişəlik sevinəcək
yerim-göyüm.
Mənə Vətən göstər görüm,
olsun mələk surətində,
Özüm sənə qurban olum,
qara kişmiş, qara torpaq,
Özüm sənə qurban olum,
qaraqılçıq buğdam mənim!
Özüm sənə qurban olum,
qara donlu ağ çiçəyim!

### ŞƏHİD OĞLU

Yol üstə dayandı qəfil bir maşın,
İçindən hərbiçi bir kişi düşdü.
Bir oğlan uşağı qaçdı qabağa,
Bir atayla oğul belə görüşdü.

İstədi uşağı danlasın ata,
Baxdı qaş-qabaqlı,
bir az da küskün.
Uşaqsa sevindi, həmin küçəyə,
O gün oynamağa gəldiyi üçün.

...Ürəyimdə qəm var,
gözümdə nəm var,
Yaxında, dağlarda atəş səsləri,
Onu səslədilər maşındakılar,
O getdi, uşağın doldu gözləri.

O tanış küçədən yolum düşəndə,
Görürəm vurnuxur uşaq necə də.
Sanır ki, atası bir gün qayıdıb,
Doyunca bağrına basacaq onu,
Elə həmin yerdə, həmin küçədə...

Bir ata köksünü dəldi güllələr,
Ağaran bir gəlin saçlarına bax.
Gəlib o küçədə oynayır hələ,
Maşın dayananda,
adam düşəndə
baxır, yüyürəmmir daha bir uşaq!..

### TAYKEŞ AYAQQABI

*(Qərbi Azərbaycandan qovulmuş soydaşlarımıza)*

Bərk-bərk sinəsinə sıxmışdı onda,
Körpə qız bir taykeş ayaqqabını.
Əlindən almışdı yol qırağında,
Qaşqın adamların olan tabını.

Ayağı yalındı, başı açıqdı,
Gözləri dolmuşdu, deyəcəm niyə.
Dərdi çox böyükdü, özü kiçikdi,
Halı qalmamışdı sakitləşməyə.

Körpə qardaşını öldürmüşdülər,
Bir ayaqqabısı çıxıb qalıbmış.
Yanıb o körpə qız, o körpəcə qız
Qardaş iyisini ondan alıbmış.

Baxıb doğma evə, doğma qapıya,
Bacıdı, harayı yüksəlib göyə.
Üzünü söykəyib ayaqqabıya,
Oxşayıb: "Ay mənim qaqaşım" - deyə.

Yol üstə adamlar ağlaşırdılar,
Unudub özünün malı-mülkünü,
Unudub özünün dərd-əzabını,
Başına yığılıb körpə bir qızın,
Bir taykeş, bir köhnə ayaqqabının.

Hardasa dinirdi düşmən topları,
O qız da baxırdı baxışında qan.
Yadına düşmürdü yuxa paltarı,
Müğayat olurdu ayaqqabıdan.

Yel əsir, qarşıdan qış gəlirdi, qış,
Nələr düşünürdü körpə qız, nələr!
Köksünə sıxırdı ayaqqabını,
Qorxurdu qardaşı üşüyə bilər.

Baxın bir uşağın faciəsinə,
Öpürdü bir taykeş ayaqqabını.
Ağlayıb sıxtayır, ovunmayırdı,
Onu geyinmişdi öz sinəsinə,
Soyun, deyirdilər, soyunmayırdı.

O qız od tökürdü gözündən o gün,
O qızın baxışı qanlı bir baxış.
Düşdü həmişəlik gözümdən o gün,
Bu dünya bir taykeş ayaqqabıymış?!

O qız görən harda, hardadı indi,
Bəlkə də tükənib taqəti, tabı?
Yəqin nə dincəlir, nə yatır indi,
Başının altında bir ayaqqabı...

### YARAMA TORPAQ TÖKÜN...

Ərimәli, yanmalı pərvanələr şam üçün,
Bu sözlər qanun olsun gərək hər adam üçün,
Dizinizə döyməyin, qan verən yaram üçün,
Mən ayağa qalxacam,
yarama torpaq tökün!

Gərək bu gün poladdan qolum-qanadım olsun,
Vətənin dar günləri məhşər saatım olsun!
Vətənin qarşısında bu əsgər andım olsun:
Mən ayağa qalxacam,
yarama torpaq tökün!

Bəsdi deyib ağladım, yoxdu bir kəsim deyə,
Qoymaram borclu qalıb ruhum tələssin göyə?
Anamın göz yaşları bir yolluq kəssin deyə,
Mən ayağa qalxacam,
yarama torpaq tökün!

Bu səs əsgər səsidi, ürəkdən gəlir, bilin!
Yatmış baxtım, iqbalım, oyanıb gülür, bilin.
Qoy o qız da durmasın, elə boynu bükülü,
Mən ayağa qalxacam,
yarama torpaq tökün!

Qan itirə-itirə elə bil qan tapmışam,
Allahdan nazil olan Quran, iman tapmışam.
Bütün dərdləri yenən təzə dərman tapmışam,
Mən ayağa qalxacam,
yarama torpaq tökün!

### SƏNƏ GÜVƏNƏSİ OLMADI VƏTƏN

Gətirmə Vətəni yadına, yeri!
Düşmə bir dəhşətin oduna, yeri!
Südəmər uşaqsan, sədəmə dəyər,
Siçan deşiyini satın al,yeri,
Sənə güvənəsi olmadı Vətən!

Demirlər o gələn qoşunu saxla,
Deyirlər o dağın qaşını saxla!
Durub boylanırsan nə olub deyə:
Sən də get, bir təhər başını saxla,
Sənə güvənəsi olmadı Vətən!

Dayanıb uzaqdan sərhədə boylan,
Kimdi fikir verməə qaçan, qovulan?
Dörd-beş dəmirqara odunu gərək,
Qavırğan isinə bəlkə, ay oğlan ,
Sənə güvənəsi olmadı Vətən!

Qələmə yatıbdı yamanın əli,
Qələmə yatarmı yananın əli?
Səninki çənədi, üyüt, tök, danış,
Niyə dizindədi ananın əli?
Sənə güvənəsi olmadı Vətən!

Əllərin nə silah, nə qurşun tutdu,
Əllərin qəpiyi-quruşu tutdu.
Dərdin çəkiləsi deyil ha sənin,
Səni fələklərin qarğışı tutdu,
Sənə güvənəsi olmadı Vətən!

A küncə qısılan, a küncdə dinən,
Dönmədi səngərə-sipərə, sinən.
Hərbi tribunal bir qərar verib,
Həmənki qərarı oxuyuram mən: -
Sənə güvənəsi olmadı Vətən!

### MƏNİ ÖZ QƏBRİMƏ QOYUN

Qoymayın seçilsin ilk beşiyimdən,
Siz məni özümün qəbrimə qoyun.
Siz məni etməyin ev-eşiyimdən,
Siz məni özümün qəbrimə qoyun!

Bələnim qanımın qanına kimi,
Yollanım Allahın yanına kimi.
Aparın dünyanın sonuna kimi,
Siz məni özümün qəbrimə qoyun!

Hər cibdən bir cürə güllə çıxacaq,
Canımız min cürə yolla çıxacaq.
Haranı qazsanız kəllə çıxacaq,
Siz məni özümün qəbrimə qoyun!

Səbri sanmayın ki, çoxdu səbrimin,
Olmazdım, olsaydı baxtı dərdimin,
Əlim ətəyindən çıxdı qəbrimin,
Siz məni özümün qəbrimə qoyun!

Hazır bir qəbirmiş bu yorğan-döşək,
Qazılı qəbirmiş bu yorğan-döşək.
Pozulu qəbirmiş bu yorğan-döşək,
Siz məni özümün qəbrimə qoyun!

Susmazdı bu qəlbim, özgə qəlbidi,
Bu zirvə dərədi, üzdə qəlbidi.
Vallah, yer kürəsi özgə qəbridi...
Siz məni özümün qəbrimə qoyun!

# Azərbaycançılıq ideyasının təbliği

№ 29 (2452) 8 avqust 2025-ci il

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi



# AZƏRBAYCANÇILIQ İDEYALARI DÜNYAYA TƏBLİĞ EDİLİR

**Bu gün dünyada zəngin tarixi və uzaq keçmişi olan çox ölkələr var. Və hər bir ölkə də ona çalışır ki, öz milli adət-ənənələrini, bəşəri dəyərlərini və tolerantlığını dünyaya yaysın. Əlbəttə, burda qəribə heç nə yoxdur, amma görünən odur ki, heç də hər xalq, hər millət azərbaycanlılar kimi bəşəri dəyərlərə, insanlığa və humanizmə malik deyillər. Çünki Azərbaycançılıq ideyası və düşüncəsi bizim qanımızda, canımızda və sümüyümüzdədir. Bəlkə də dünyanın yeganə xalqıyıq ki, biz ən yaxşı şeyi qonaqlarımıza təqdim edirik.**



Üstəlik də bu xalqın başqa millətlərə, başqa dövlətlərə və hətta başqa irqlərə qarşı çox böyük məhəbbəti, istəyi və sevgisi var. Elə buna görə də dünyadan çox vaxt bizə böyük dövlətlər və onların əlaltıları qısqanclıq hissi ilə baxıblar. Bilməyiblər qibtə eləsinlər, yoxsa şər-böhtan deyib bu milləti, bu xalqı dünyanın gözündən salsınlar.

Amma dünya da kar, kor, lal deyil. Çünki bütün sərhədlər də açılıb, Azərbaycan da demokratik, sivil, hüquqi və beynəlxalq qanunlara hörmətlə yanaşan bir ölkədir. Ona görə də hər gün məmləkətimizə minlərlə xarici ölkə vətəndaşları, rəsmi şəxslər, turistlər gəlirlər. Onlar gəlib Azərbaycanın görməli, gəzməli, istirahət etməli yerlərini gəzirlər və görürlər ki, düşmənlərimizin apardığı əks təbliğatla gördükləri bir-birinin tam əksidir. Yəni Azərbaycanda irqindən, dinindən və millətindən asılı olmayaraq, bütün xalqlara və millətlərə hörmətlə yanaşılır.

Amma hansı ki inkişaf etmiş Avropa ölkələrində belə bir çox xalqlara, xüsusən də İslamı qəbul edənlərə qarşı və o cümlədən türkçülüyə, azərbaycançılığa çox qısqanclıqla yanaşılır. Hətta Almaniya kimi, Fransa kimi dünyəvi və demokratik ölkələrdə qara irqə məxsus olan və o cümlədən müsəlmanlara qarşı münasibət bəzi hallarda ürəkaçan deyildir.

Hələ biz Azərbaycan Dövlət Universitetində oxuduğumuz illərdə bizim böyük müəllimlərimiz olan Mir Cəlal Paşayev, Nəsir İmanquliyev, Bəxtiyar Vahabzadə, Şirməmməd Hüseynov, Pənah Xəlilov, Şamil Qurbanov, Firudin Hüseynov, Kamil Vəliyev, Cahangir Məmmədli və digər professorlar bizə azərbaycançılıq ideyalarını təbliğ edirdilər. Xalqımızın ən nəcib, ən incə və ən yaddaqalan cizgilərini bizə öyrədirdilər. Onlar deyirdilər ki, Azərbaycan xalqı dünyanın ən kinsiz, ən düşmənsiz millətidir. Çünki biz heç kimin paxıllığını çəkmirik və heç kimin ərazisində gözümüz yoxdur.

Bəli, illər keçdikcə Azərbaycan müstəqil dövlət oldu. İşğal olunmuş 20 faiz torpaqlarımız Ulu Öndər Heydər Əliyevin apardığı siyasət nəticəsində və Prezident İlham Əliyevin həyata keçirdiyi möhtəşəm 44 günlük İkinci Qarabağ müharibəsindən sonra azad edildi. Artıq dünya gördü ki, Azərbaycan kiçik dövlət olsa da, böyük dövlətlərin eləyə bilmədiyi böyük işləri həyata keçirdi, öz ərazi bütövlüyünü bərpa elədi, müstəqilliyini qoruyub saxlaya bildi.

Heç kimə sirr deyil ki, bütün bunlar dünyada uzun müddət aparılmış Azərbaycançılıq ideologiyasının həyata keçirilməsi nəticəsində mümkün oldu.

Azərbaycanın İslam Dövlətləri Birliyində təmsil olunması və bu mötəbər qurumda sədr seçilməsi onu göstərdi ki, artıq dünyanın hər yerində Azərbaycanı yaxşı tanıyırlar, onu sevirlər və ona hörmətlə yanaşırlar. Ermənilərin və onların uzun illər dünyanın hər yerində apardığı anti-azərbaycan təbliğatı darmadağın edildi. 30 il onların yalanlarına inananlar da sonradan gördülər ki, əsl ədalət və haqq Azərbaycanın tərəfindədir. Çünki Azərbaycançılıq ideyasında başqa millətə və xalqa düşmən gözlə baxmaq, onları alçatmaq, torpağını əlindən almaq, əxlaqını ləkələmək ideyası yoxdur. Əksinə, Azərbaycançılıq o deməkdir ki, bəşəri hisslərin tərənnümü və sevgisi burda öz əksini tapır.

Burda bütün dinlərə - yəhudilərə, xristianlara və digər dinlərə mənsub insanlara çox böyük hörmət, çox böyük diqqət, çox böyük sevgi var.

Və onların ən bariz nümunəsi kimi Azərbaycanda həmin dinlərə məxsus olan kilsələrin, monastırların, sinaqoqların, eləcə də digər dini abidələrin İslam dini qədər qorunub saxlanması və hörmət edilməsidir.

Təbii ki, ölkəmizə səfər edən, müxtəlif dinlərə mənsub olan həm siyasi xadimlər, həm də turistlər öz gözləri ilə həmin yerləri ziyarət edərkən görür və əsl həqiqətin necə olduğunu bir daha yəqin edirlər. Başqa millətin xətrinə dəyməsin, hətta ən inkişaf etmiş Avropa dövlətlərində belə dostluq elədiyin adam, çörək kəsdiyin insan onun qonağı olanda səni evinə aparmır.

Ən yaxşı halda hotelə aparır, hotelin də pulunu o adam yox, sənin özün ödəyirsən. Amma bizdə görün necədir? Bizdə isə tam başqa mənzərədir. Biz özümüz də o əcnəbi dostlarımızdan soruşmuşuq: sizdə qonaq otağı varmı?

Onlarsa deyiblər ki, bizdə yaxşı otaqlar çoxdur, amma yaxşı və gözəl otaqlarda özümüz istirahət edir, yemək yeyir və yatıb dincəlirik. Ancaq Azərbaycanda isə ən yaxşı otaqları qonaq üçün hazırlayırıq, ən yaxşı yorğanı, ən yaxşı divanı və ən yaxşı yeməyi onlar gələndə bişiririk.

**Əlbəttə, dünya hər şeyi yaxşı bilir. Başqa sözlə demiş olsaq, ağı-qaradan seçməyi bacarır. Bu gün dünyada Azərbaycanın layiqli yer tutması və ən inkişaf etmiş ölkələrlə sosial-iqtisadi, mədəni münasibətlər qurması elə həm də Azərbaycançılıq ideyalarına əsaslanır və ona söykənir. Ona görə də bu gün dünya dövlətlərinin və xalqlarının Azərbaycana münasibəti çox gözəldir və onlar gəlib bütün həqiqətləri ölkəmizdə görəndən sonra eşitdiklərinin və oxuduqlarının düz olduğunu görürlər.**

**EMİL FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



Nadir Yalçın

# Arif Babayevə ölmək üçün nə lazım idi?

Baş redaktor otağına çağırıb Arif Babayevin vəziyyətinin pisləşdiyi barədə məlumat verir. Tez oğlu ilə əlaqə saxlayıb xəbər alırıq:

- Qaxdakı evimizdə istirahət edirdi. Birdən halı pisləşdi. Qax Rayon Mərkəzi xəstəxanasına yerləşdirmişik. Bakıya gətirməyə çalışırıq.

O danışdıqca xəbəri yazıb saytda yayımlayırам. Elə həmin an başqa bir mesaj gəlir:

- Ağdamda yanğınlar başlayıb.

Bu xəbəri də dərc edəndən sonra Arif Babayevin "Rast"da oxuduğu "Dilkeş" qulağımda cingildəyəndə bir məsələ özümə agah olur:

Ağdam necə yanırsa, Arif Babayev o cür can üstədir. Arif Babayev necə can üstədirsə, Ağdam da elə yanır.

Nəhayət, Ağdam necə yanırsa, Arif Babayev "Dilkeş"i o cür oxuyur.

Xalq artisti ilə vida mərasimində Nihat Pirə dedim:

- Arif Babayev xəstəxanaya düşən gündən Ağdam od tutub yanmağa başladı

***

Arif Babayevin Bakıdakı xəstəxanaların birinə təxliyə olunacağını öyrənirik. Tez-tez oğlu ilə əlaqə saxlayırıq. Deyir, Mərkəzi Klinikaya gətiririk, yoldayıq. Bəziləri Yeni klinikaya gətiriləcəyini deyir. Media orqanları isə tamam başqa xəstəxanaya yerləşdiriləcəyi barədə xəbər yayımlayır.

Çaş-baş qalmışıq, gecə ilə hamı bir-birinə zəng edir. Adını çəkdiyim xəstəxanalarının baş həkimləri ilə danışıram. Heç kimdə Arif Babayevin təxliyəsi ilə bağlı məlumat yoxdur. Mat-məəttəl nə edəcəyimizi düşünürük. Gecə saat 12-ə çatıb. Bu vaxtı kiməsə zəng eləmək də olmur.

Arif Babayevi heç yerdə tapa bilmirik. Qeybə çəkilib, nədir?!

Həmin vaxt İlkin Naibə deyirəm:

- Bəlkə, Arif müəllimi Ağdama aparıblar?

- Orda xəstəxana fəaliyyət göstərir ki? - İlkin təəccüblə soruşur.

- Bəlkə, sağalmağa yox, öz yurdunda rahat ölməyə aparıblar?

- Allahın işini bilmək olmaz...

...Sonradan öyrənirik ki, oğlunun dediyi kimi, Mərkəzi Klinikadadır.

Bu gün isə hər şey daha aydınlaşdı. Arif Babayevi, doğrudan da, Bakıda tapa bilmədik. İndi o, Ağdamdadır. Bilmirəm, hansı küçədə, hansı dalanda, hansı səmtdə. Amma dəqiq bilirəm, o özünə mütləq getməyə bir yer tapıb.

Seyyid Şuşinskinin kişi xanəndələr arasında sağ qalan yeganə tələbəsi səs yaddaşına birdəfəlik köçürüldü. Bu dəfə "zapis aparatı" Arif Babayevin səsini əbədi canına çəkdi. İndi hardasa, bir kamança kökdən düşdü, bir tarın simi qırıldı, kimisi susdu, kimisi isə səsinin olduğunu yeni kəşf edib oxumağa qərar verdi. Bütün bu qarma-qarışıqlığın içində Arif Babayev etibarlı çıxdı:

Səsini - taleyini Ağdama çatdırdı...

Bütün Qarabağsız ölən qarabağlı xanəndələrin əvəzinə - onların ömrünü yaşamağı bacardı... Deyirdi, birdən ölərəm, Ağdamı görmərəm... Gördü, öldü... Ona bir Ağdamı görmək lazım imiş, görsün, rahatlayıb ölsün...



***

Beynəlxalq Muğam Mərkəzində Arif Babayevlə vida mərasiminə toplaşmışıq. Cənazəni gözləyirik. Əməkdar jurnalistlər İlqar Əlfioğlu ilə Səadət Məmmədovanı gördüm. Onların içəri girməyi ilə Muğam Mərkəzinin səsucaldıcılarından Arif Babayevin ifasında "Mirzə Hüseyn segahı"nın səslənməsi bir oldu.

- Babam deyərdi, Arif Babayev "ləyaxlı" xanəndədi, - İlqar müəllim xatirələrini yada saldı.

Bu cümləni eşidib həm Səadət Məmmədovaya, həm İlqar Əlfioğluya başsağlığı verdik. İlqar müəllim illərdi qarabağlı xatirələrini yazır, danışır, Ağdamdan söhbət açır, Arif Babayev elə onun da kisəsindən getdi...

Səadət Məmmədova isə "Ağdam və mən"lə ağdamlı xatirələrin bərpaquruculuq işlərini aparır, fəhlələrlə, texnika ilə çiyin-çiyinə Ağdamı təzədən qurmaq istəyir. İndi xatirələrin bərpasına kömək edəcək ən vacib şəxsiyyətlərdən biri ilə vidalaşmağa gəlmişik....

Vida mərasimində gözüm iki nəfəri axtardı: Aqil Abbası, Qulu Ağsəsi... Arif Babayev sonuncu dəfə səhnədə olanda bir də gördük Aqil Abbas içəri girib iki-üç addım irəlilədi.

Qollarını qoynuna qoyub xeyli səhnədəki səssiz Arifə tərəf zilləndi. Yanımdakılardan biri dedi ki, özü də yaşlanıb, ona görə lap kədərlidi... Day o adam bilmirdi ki, Aqil Abbas səsini itirib, Ağdamın səsi, Aqilin səsi, elə bir fərqi yoxdu... Bu gün Aqil Abbas da itirdi...

... Qulu Ağsəsi ilk dəfə idi belə donuq görürdüm. Qılığına girib bir az danışdırmaq istədim, gördüm, yox, hələ havalıdı.

- Gülablıdan Sarıhacılıya nə qədər olardı? - sağollaşanda Qulu Ağsəsdən soruşdum.

- Arifin səsi ilə bir saniyə, - asta səslə cavab verdi.

...Arif Babayev hələ adını bilmədiyimiz sədanı dinləmək üçün gözlərini əbədi yumanda dan yerindən qalxan Günəş gecəqonduların, göydələnlərin damlarını yenicə ağartmışdı. Bu xəbər yayılanda Bakıda gün işığı ilə ağaran damların gözü olsaydı, burdan kilometrlərlə uzaqlarda yaraları sarılan Ağdama boylanardı.

Bu yenicə ağaran damların dili olsaydı, üzü Ağdama sarı xəbər yollayardı. Deyərdi, bağrından qopan səs havaya qoşulub, buludlar arasında itib sənə tərəf gəlir.

Bu gün ruhlar şəhəri Ağdam Arif Babayevin səsini qarşıladı. Ayaq üstə, alqışlayaraq, adına layiq!

***

Arif Babayevi görkəmli geoloq, ulu neftçi Xoşbəxt Yusifzadənin solunda dəfn elədilər. Xoşbəxt müəllimin sağında isə mərhum xanəndə Əlibaba Məmmədovun məzarı var. Onları bir vaxt neftdən sonra büsbütün dəyişən Bakı ayırırdı. Sonra birləşdilər, xoşbəxt birləşdilər, xoşbəxt ayrıldılar...

***

Evə getməmişdən əvvəl nənəmə baş çəkmək üçün yaşadığı mənzilə yollanıram. Yol boyu Arif Babayevin həyat yoldaşı Gültəkin xanımın dayısı Zakir əmini xatırlayıram. Babamla Zakir əmi tələbə vaxtından dostluq edirdilər. Sonra babam da, o da xəstələndi, əlaqə kəsildi. İndi nə babam həyatdadı, nə Zakir əmi...

Telefon kitabçamızda Zakir əminin adının yanında soyadı da yazılmışdı. Nə qədər çalışsam da, soyadını yadıma sala bilmirəm. Telefona əl atıb onun soyadını soruşmaq üçün atama zəng etmək istəyirəm. Birdən yadıma düşür ki, atam 20 gün əvvəl vəfat edib... Nənəmgilə çatan kimi ona Arif Babayevin ölüm xəbərini verirəm. Çox məyus olur, kövrəlir...

Atam ölən günün sabahısı dedi ki, radionu yığışdır, qoy şkafa. 20 gündür radioya qulaq asmır... Arif müəllimin ölüm xəbərini eşidəndən yarım saat sonra yenidən məni yanına çağırdı. Dedi, radionu gətir qoş, Arifin ifalarını verəcəklər, yəqin... Radionu qoşdum. Arif Babayev oxuyurdu. Nənə-bala dəqiqələr uzunu danışmadan-tərpənmədən qulaq asdıq:

*"Sənsiz, ey şux, mənim xoş güzaranım yoxdur,*
*Sən ki yoxsan, elə bil cismdə canım yoxdur..."*

# İlin ən yaxşı məşqçisi adına namizədlər

Fransanın məşhur "France Football" nəşri 2025-ci il üçün kişilər arasında ən yaxşı futbol məşqçisi adına namizədləri açıqlayıb.

QOL.az xəbər verir ki, mükafata 5 namizəd göstərilib.

Bunlar Antonio Konte ("Napoli"), Luis Enrike (PSJ), Hans-Diter Flik ("Barselona"), Enzo Mareska ("Çelsi") və Arne Slotdur ("Liverpul").




**Xatırladaq ki, 2024-cü ildə həmin vaxt "Real"a rəhbərlik edən Karlo Ançelotti dünyanın ən yaxşı məşqçisi seçilmişdi.**

# Dünyanın ən şirin nəvəsi




**Mənə elə gəlir ki, daha doğrusu, inanıram ki, dünyada mənim nəvələrimdən şirin baba payı yoxdur. Bunu mənə günah saymayın. Çünki hər kəs üçün nəvə şirindir. Axı şirin nəvələrimin sonbeşiyi olan Fateh kişi bu gün 2 yaşını tamam edir. Doğulduğu gündən hər kəsə qaynayıb-qarışmağı, hər kəsi sevindirməyi bacaran Fateh kişi artıq uşaq bağçasında da müəllimələrinin sevimlisi olub. Deməli, adı dürüst seçilib. O, ürəkləri fəth etməyə başlayıb. Arzu edirəm ki, sağlam və uğurlu həyatı ilə həmişə istəklərinə qovuşsun. Necə deyərlər, məqsədi yolunda Fateh olsun.**

Baxışından əlenir,
Üst-başına bələnir,
Görən dərhal dillənir -
Fatehdi bu, Fatehdi.

Duruşu da yerində,
Yerişi də yerində,
Ucada, həm dərində,
Fatehdi bu, Fatehdi.

Bir evdə mütləq hakim,
Onunu kimi var ta kim,
İstədim nəzmə çəkim,
Fatehdi bu, Fatehdi.

Şah geyimdə-kecimdə,
Diqqətlidi seçimdə!
İki yaşın içində,
Fatehdi bu, Fatehdi.

Bütün nəvələrə can sağlığı arzusuyla
Nigarın, Aysunun, Atillanın, Nərgizin və bir də
iki yaşlı Fatehin babası Əbülfət Mədətoğlu

## "Lester"dən "Beşiktaş"a



**"Beşiktaş" yeni futbolçu transfer edib. QOL.az xəbər verir ki, bu barədə klubun mətbuat xidməti məlumat yayıb. İstanbul təmsilçisi "Lester"dən Vilfred Ndidini alıb. 28 yaşlı yarımmüdafiəçi ilə tibbi müayinədən sonra müqavilənin imzalanacağı bildirilib.**

Qeyd edək ki, Ndidi 2017-ci ildən "Lester"in formasını geyinirdi.

Aqil Abbas və İradə Tuncay Xalq yazıçısı
**Elçin Əfəndiyevin**
vəfatından kədərləndiklərini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verirlər.

Nəbi Muxtarov ailə üzvləri ilə birlikdə Xalq yazıçısı
**Elçin Əfəndiyevin**
vəfatından kədərləndiklərini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verirlər.

Aslan Mehdiyev ailə üzvləri ilə birlikdə Xalq yazıçısı
**Elçin Əfəndiyevin**
vəfatından kədərləndiklərini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verirlər.

Asif Quliyev və Ceyhun Əlibəyov Xalq yazıçısı
**Elçin Əfəndiyevin**
vəfatından kədərləndiklərini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verirlər.

Əbülfət Mədətoğlu ailə üzvləri ilə birlikdə Xalq yazıçısı
**Elçin Əfəndiyevin**
vəfatından kədərləndiklərini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verirlər.

Faiq Qismətoğlu **Fərrux Seyidova** məşhur hakim, hüquq elmləri doktoru, professor
**Ənvər Seyidovun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi və baş məsləhətçi:** Aqil ABBAS
**Baş redaktor:** İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 **Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 240**
Çapa imzalanmışdır: 07.08.2025